**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**POLİS AKADEMİYASI**

## “DİO-nun inzibati fəaliyyəti” kafedrası

**Bakalavr hazırlığına dair əyani təhsil alanlar üçün**

# İNZİBATİ HÜQUQ

**fənni üzrə**

## PRAKTİKUM

*DİN-in Polis Akademiyasının Elmi Şurasının“28” fevral 2018-ci il tarixli 2 №li qərarı ilə təsdiq edilmişdir.*

Bakı – 2018

**Elmi redaktorlar:** Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq elmləri doktoru, dosent
**Nazim Əliyev**

Polis Akademiyası rəisinin tədris və elmi işlər üzrə müavini, polis polkovniki, hüquq elmləri doktoru, professor, əməkdar müəllim
**Mahir Əhmədov**

**Tərtib edənlər:** "DİO-nun inzibati fəaliyyəti" kafedrasının rəisi, polis polkovniki
**Vaqif Abışov**

"DİO-nun inzibati fəaliyyəti" kafedrasının dosenti, polis polkovnik-leytenantı, hüquq üzrə fəlsəfə doktoru
**Rafiq Nəcəfquliyev**

"DİO-nun inzibati fəaliyyəti" kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı, hüquq üzrə fəlsəfə doktoru
**Şahin Şükürov**

**Rəy verənlər:** DİN-in Polis Akademiyasının "Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim
**Ceyhun Süleymnaov**

Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru
**Ağa Kərim Mirzəyev**

*Bakalavr hazırlığına dair əyani təhsil alanlar üçün "İnzibati hüquq" fənni üzrə praktikum məzmun baxımdan nəzəri suallar, müstəqil həlli üçün tapşırıqlar, tövisyə olunan normativ hüquqi aktlar və s. daxil edilməklə fənnin seminar (təcrübə) məşğələlərin keçirilməsi məqsədilə hazırlanan tədris-metodik vəsaitdir.*

*"İnzibati hüquq" fənni üzrə praktikum kursantlar, müəllimlər, "İnzibati hüquq"un məsələləri ilə maraqlanan şəxslərə ünvanlanıb.*

## Mündəricat:

Giriş............. ...................................................................... 5
"İnzibati hüquq" fənni üzrə praktikumdan irəli gələn məsələ və tapşırıqların icrası ilə bağlı tədris-metodik tövsiyələr............. 8
Mövzu-təqvim planı .............................................................. 12
ÜMUMİ HİSSƏ........................................................................ 14
I BÖLMƏ. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti ... 14
Mövzu № 1. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri....................... 14
II BÖLMƏ. Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüquq ........................................................................ 19
Mövzu № 2. İnzibati hüquq – hüququn sərbəst sahəsi kimi ....... 19
Mövzu № 3. İnzibati hüquq normaları və münasibətləri ........... 24
III BÖLMƏ. İnzibati hüququn subyektləri................................ 30
Mövzu № 4. İnzibati hüququn fərdi və kollektiv subyektləri ..... 30
Mövzu № 5. İcra hakimiyyəti orqanları.................................... 35
Mövzu № 6. Dövlət qulluğu və dövlət qulluqçuları ................... 40
IV BÖLMƏ. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları................................................................. 45
Mövzu № 7. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları................................................................. 45
Mövzu № 8. İdarəetmənin (icra hakimiyyəti orqanlarının) hüquqi aktları........................................................................ 53
Mövzu № 9. Xüsusi inzibati-hüquqi rejimlər............................. 57
XÜSUSİ HİSSƏ ...................................................................... 61
V BÖLMƏ. İnzibati hüquqda sahəvi dövlət idarəetməsi............ 61
Mövzu № 10. Daxili işlər sahəsində dövlət idarəetməsi............ 61

Mövzu № 11. Ədliyyə sahəsində dövlət idarəetməsi.................. 65
Mövzu № 12. Müdafiə sahəsində dövlət idarəetməsi................. 69
Mövzu № 13. Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət idarəetməsi .................................................... 74
Mövzu № 14. Xarici işlər sahəsində dövlət idarəetməsi............. 77
Mövzu № 15. Təhsil sahəsində dövlət idarəetməsi ..................... 81
Mövzu № 16. Vergi sahəsində dövlət idarəetməsi ...................... 86
Mövzu № 17. Gömrük sahəsində dövlət idarəetməsi ................. 91
VI BÖLMƏ. İnzibati hüquqda qanunçuluq və məsuliyyət ......... 96
Mövzu № 18. Dövlət idarəetməsində qanunçuluq və intizam .... 96
Mövzu № 19. Dövlət idarəetməsində intizam və maddi məsuliyyət.................................................................. 100
Mövzu № 20. Dövlət idarəetməsində inzibati məsuliyyət........ 102
Referatın yazılması ilə bağlı tövsiyyələr.................................. 107
Təxmini imtahan sualları...................................................... 109
Mövzu üzrə tövsiyyə edilən ədəbiyyat siyahısı ................... 112
Əlavələr (çıxarışlar): ............................................................ 117

# Giriş

İnzibati hüquq fənni əsas ixtisas fənlərindən biri olaraq dövlət idarəetmə sistemində icra hakimiyyətinin təşkili və onun sistemi, həyata keçirilməsinin forma və metodları, dövlət idarəetməsində fiziki və hüquqi şəxslərin, icra hakimiyyəti orqanlarının və dövlət qulluqçularının inzibati-hüquqi statusu, növləri və səlahiyyətləri, habelə dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları, sosial-siyasi, sosial-mədəni, iqtisadi və sahələrarası sahələrdə dövlət idarəetməsinin təşkilinin öyrənilməsini nəzərdə tutur.

Fənnin əsas vəzifələri aşağıdakılardır:

♦ müasir dövrdə inzibati hüquq elminin inkişafı nəticəsində nail olduğu səviyyəyə müvafiq olaraq inzibati hüququn əsas prinsipləri, kateqoriyaları və müddəaları haqqında dərin biliklərin kursantlar tərəfindən əldə edilməsi;

♦ konkret həyati faktlara (vəziyyətlərə) inzibati hüquq normalarını düzgün şərh və tətbiq etmək bacarıq və vərdişlərini kursantlara öyrətmək;

♦ dövlət idarəetmə sistemi, dövlət idarəetməsinin forma və metodları, dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsi üsulları ilə kursantları tanış etmək;

♦ sosial-siyasi, sosial-mədəni, iqtisadi və sahələrarası sahələrdə dövlət idarəetməsinin təşkili və inzibati-hüquqi tənzimlənməsi, eləcə də daxili işlər orqanlarının (polisin) ümumi, sahəvi və xüsusi səlahiyyətli idarəetmə orqanları ilə qarşılıqlı əlaqələrinin xüsusiyyətləri ilə kursantları tanış etmək və s.

İnzibati hüquq fənni ali təhsil müəssisələrində tədris edilən Dövlət və hüquq nəzəriyyəsi, Konstitusiya hüququ və ictimai elmlərin müddəalarına əsaslanır. İnzibati hüquq cinayət, maliyyə, əmək və digər hüquq fənləri ilə sıx bağlıdır. Bununla yanaşı İnzibati hüquq fənni Polis Akademiyasında tədris edilən əsas ixtisas fənlərindən biri olan Daxili işlər orqanlarının inzibati fəaliyyəti fənninin əsasını təşkil edən metodoloji əhəmiyyətə malikdir.

İnzibati hüquq fənninin materialları kursantlar tərəfindən mühazirələr və seminar dərslərində, habelə sərbəst özünühazırlıq məşğələlərində öyrənilir.

Praktikumun seminar dərslərinə hazırlaşmaq üçün əsas tədris sənədlərindən biri olduğu nəzərə alınmaqla hər mövzu üzrə seminar məşğələsinin sualları, özünühazırlıq üçün tapşırıqlar, özünüyoxlama sualları və digər metodiki göstərişlər verilmişdir.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında tədris edilən İnzibati hüquq fənninin təyinatı kursantlara gələcək xidməti vəzifələrinin peşəkarcasına yerinə yetirilməsi üçün zəruri olan kompleks bilik, bacarıq və vərdişləri dərindən öyrətməkdən ibarətdir.

Praktikumun məzmun və strukturunda İnzibati hüquq fənninin Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında tədris edilməsi və daxili işlər orqanlarının fəaliyyətinə uyğunlaşdırılması nəzərə alınmışdır.

İnzibati hüquq fənninin öyrənilməsi zamanı aşağıdakı metodik tələblərə riayət edilməlidir:

♦ mühazirənin konspektləşdirilməsi məcburi xarakter daşıyır;

♦ kursantlar seminar məşğələlərinə hazırlaşarkən müzakirə ediləcək sualların cavablarını öyrənməli və tövsiyə edilmiş tapşırıqları yerinə yetirməlidirlər;

♦ hər mövzu üzrə normativ-hüquqi aktların və nəzəri mənbələrin əsas müddəaları öyrənilməlidir;

♦ problemli vəziyyətlərin həlli yalnız yazılı formada yerinə yetirilməlidir;

♦ tədris proqramı ilə seminar məşğələləri nəzərdə tutulmamış mövzular üzrə tapşırıqlar mütləq yerinə yetirilir və kursantlar tərəfindən müstəqil olaraq tədris proqramında göstərilmiş ədəbiyyatlar vasitəsi ilə öyrənilir.

♦ həmin mövzuların öyrənilməsinə nəzarət sorğu-sual və ya kollokvium formasında, eləcə də konspektlərin yoxlanılması yolu ilə həyata keçirilir;

♦ mühazirə və seminar məşğələ dərslərində iştirak etməyən, həmçinin qeyri-kafi qiymət alan kursantlar həmin mövzunu müəllimə cavab verməklə konspekti təqdim etməlidirlər;

♦ fənnin öyrənilməsi zamanı yaranmış bütün suallar üzrə məsləhət almaq üçün mühazirə oxuyan və ya seminar məşğələlərini aparan müəllimə müraciət etmək lazımdır.

## “İnzibati hüquq” fənni üzrə praktikumdan irəli gələn məsələ və tapşırıqların icrası ilə bağlı tədris-metodik tövsiyələr

“İnzibati hüquq” fənni üzrə praktikum İnzibati hüquq kursunu öyrənən DİN-in Polis Akademiyasının əyani fakültəsinin kursantları üçün tədris-metodik vəsaitdir.

İnzibati hüquq dövlət-idarəçilik münasibətlərin iştirakçılarının vəzifə və hüquqları, idarəetmənin forma və metodlarını, dövlət idarəetmənin qanunçuluğunun təmini vasitələri, həmçinin iqtisadiyyat, sosial və inzibati fəaliyyət sahəsində dövlət tənzimlənməsinin əsaslarını müəyyən edir.

Praktikum fənn üzrə tədris proqramına uyğun tərtib olunub və əyani təhsil alan kursantlar üçün nəzərdə tutulur (peşəkar təlimi bakalavr).

Praktikum 20 mövzunu əhatə edir. Hər mövzu nəzəri xarakterli yoxlama sualları, tapşırıqları, praktiki məsələlər tövsiyyə olunan ədəbiyyat və normativ hüquqi aktların təxmini siyahısını əhatə edir. Mövzu və sualların siyahısı hansı ki, aidiyyəti üzrə hər mövzuya uyğun tərtib olunaraq seminar məşğələlərdə problemlərin aktuallığı, qanunvericiliyin vəziyyəti kursantlar tərəfindən mümkün olan materialların əldə edilməsini nəzərə alaraq məsələlərlə müzakirəyə çıxarılır.

Məşğələlərə hazırlıq prosesində və onların həyata keçirilməsində nəzəri biliklərin əldə olunması və praktiki vərdişlərin formalaşması vəhdəti nəzərdə tutulur.

Kursantlar qanunverici və digər normativ hüquqi aktları ilə müstəqil işləmək vərdişlərini əldə edirlər, konkret hüquqi faktlara inzibati hüquq normaların tətbiqi və düzgün izahı, hüquqazidd hərəkətdə inzibati hüquqpozmanın əlamətlərinin və tərkibinin təsnifatının müəyyənləşdirilməsi, həmçinin prosessual və idarəetmə sənədlərin tərtibatı ilə ətraflı tanış olurlar.

## Praktiki məşğələlərin məqsədi:

- Dövlət idarəetmə sahəsində baş verən proseslərin xüsusiyyətləri, qanunauyğunluqların məzmunu, təyinatın vahid dərk etməsinin kursantlarda formalaşmasıdır;
- Hüquq məkanında hərəkət etmək bacarığı və konkret praktiki məsələlərin həllində inzibati hüquq normaların tətbiqidir;
- Kursantlarda hüququ dərk etmənin inkişafı inzibati hüququn mərhələləri ilə idarəetmə bacarığıdır;
- Kursantlara insan və vətəndaş hüquq və azadlıqlarına qanuni maraqlarına hörmət hisslərin yiyələnməsidir.

Qeyd olunan məqsədlərə müvafiq kursantlara tədris prosesinin hazırlığı və məşğələlərin keçirilməsi zamanı nəzəri və praktiki tələblərə uyğun təqdim olunan seminar (praktiki) məşğələlərin keçirilməsi metodikası qurulur. Bu onu bildirir ki, hər bir dərsdə mövzu iki aspektdə qurulur, daha doğrusu hər şeydən əvvəl konkret mövzu üzrə kursantın nəzəri suallar üzrə bilikləri müəyyən olunur. Sonra isə müvafiq normativ hüquqi materialın istifadəsi ilə təqdim olunan praktiki məsələlər həll olunur.

Ayrı-ayrı mövzular üzrə fəaliyyətin digər növləri də nəzərdə tutulur. Hansı ki, praktiki məsələlərin həlli ilə bağlı deyil. Həmin hallarda nəzəri sualların müzakirəsi bilavasitə aidiyyəti üzrə zəruri olan normativ hüquqi aktların tanış olması və təhlili ilə vəhdətdə həyata keçirilir. Bu məqsədə çatmaq üçün hər mövzu üzrə kursantlara tədqim olunan konkret suallar təkan olur, onların köməkliyi vasitəsilə hər hansı bir problemin dərindən öyrənilməsi üçün kursantları cəlb etməyə imkan yaranır.

Praktikium ondan irəli gəlir ki, onun məzmununa daxil olan hər bir mövzu nəzəri sualların müzakirəsi ilə başlanır, yəni müvafiq tədris fənnin kateqoriyaları və əsas anlayışlar barəsində kursantların biliklərinin müəyyənləşdirilməsindən başlanır. Bu suallar tədris olunan kursun proqramını tamamən təkrarlayır. Onlar kursant-

ların diqqətini mərkəzləşdirmək üçün müvafiq mövzunun əsas problemləri üzrə cəmləşirlər.

Kursantların nəzəri suallar üzrə biliklərin yoxlanılması metodikası müxtəlif ola bilər: məruzəçi, məruzəçilərin müəyyən olunması, qrup halında söhbət və s.

Nəzəri sualların müzakirəsinə kursantların hazırlıq üçün tədris-metodik bazasına, mühazirələrin konspektləri, tədris vəsaitləri, dərsliklər, həmçinin tövsiyə olunan xüsusi elmi ədəbiyyat xidmət edir. Dərsi aparan müəllim xüsusi ədəbiyyatın xüsusi nəzəri sualların hazırlığı məqsədilə kursantlara dəqiq tövsiyələr təqdim olunmalıdır. Müvafiq sualların hazırlığı planına uyğun kursantlara metodik tövsiyələrin təqdim olunması məqsədəmüvafiqdir.

Seminar (praktiki) məşğələlərin bu hissəsinin əsas vəzifəsi kursantlarda inzibati-hüquq elminin vacib mərhələlərin müstəqil dərk etməsi bacarıqların inkişafında hərtərəfli hüquqi təhlilin keçirilməsi və dəqiq hüquqi cəhətlərin formalaşdırılmasıdır.

Praktikum kursantlara hər mövzu üzrə əsas nəzəri sualları təqdim edir. Hər bir nəzəri sualın və ya bir neçə qrup sualların müzakirəsi müəllimin vahid qiymətləndirilməsi ilə müşahidə olunmalıdır.

Kursantlarda hüquqi təhlil vərdişini inkişaf etmək məqsədilə qoyulan nəzəri vərdişini inkişaf etmək məqsədilə nəzəri suallarına təklif olunan cavablar həmişə dolğun tərtib olunması nəzərdə tutulur – bəzi hallarda təklif olunan variantlar əsasında kursantlardan öz cavabını formalaşdırılması tələb olunur, mümkünsə təklif olunan variantlar tək və ya qismən daxil olmalıdır.

Nəzəri sualların həllindən sonra məşğələnin ikinci hissəsi praktiki hissə başlanır. Onun əsas məzmunu – praktikumda təklif olunan məsələlərin həlli konkret məsələlərin müzakirəsidir.

"İnzibati hüquq" üzrə hər bir praktiki məsələ, tapşırıq dövlət orqanları və ya vəzifəli şəxslər tərəfindən bu və ya digər hüquqi hərəkətlərin həyta keçirilməsinin konkret misaldan ibarətdir.

***"İnzibati hüquq" fənni üzrə praktiki məşğələlərin köməliyi ilə əldə olunan məqsədlər aşağıdakılardan ibarətdir:***

- Kursantlara "İnzibati hüquq" kursunun əsasən daha da mətnin baxımdan hissələr üzrə daha dərin biliklərin əldə olunması və möhkəmləndirilməsi məqsədilə metodik köməkliyin göstərilməsi;
- Dövlət idarəetmə sahəsində ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktlardan kursantlarda istifadə bacarığının işlənməsi;
- Təklif olunan praktiki vəziyyətlərlə bağlı məsələlərin hüquqi həlli hazırlığı və hüquqi təhlil vərdişlərin kursantlarda işlənməsi;
- Praktikumla tövsiyə olunan elmi və tədris ədəbiyyatın, həmçinin normativ hüquqi aktların kursantlar tərəfindən müstəqil öyrənilməsinə nəzarətin həyata keçirilməsidir.

### *"İnzibati hüquq" fənn kursunun mənimsəmə və dərk etməsinin vəzifələri:*

- Normativ hüquqi aktların istifadəsi bacarıqlarının formalaşması;
- İctimai həyatın müxtəlif sahələrində icra hakimiyyti orqanlarının, fəaliyyətinin forma və metodları barədə vacib nəzəri biliklərin kursantlar tərəfindən əldə olunması;
- Ehtiyac olan məlumatın axtarılması metodikanın dərk etməsi, öyrənilən fənnin hquqi bazanın nəzəri əsasların formalaşması, əldə olunan biliklər əsasında öyrənilən materialın yaradıcı dərk etməsi;
- Dövlətdəki baş verən idarəetmə prosesinin mahiyyətin şəxsi görüntünün işlənməsi.

"İnzibati hüquq" fənn kursunun tədrisi kursantların inzibati-hüquq normaları ilə işlənmə bacarığına və onların praktiki fəaliyyətində istifadəsinin inkişafına istiqamətləndirilmişdir.

"İnzibati hüquq" fənnin öyrənilməsi prosesi müvafiq ümumi və peşəkar kompetensiyaların formalaşmasına yönəlmişdir.

## Mövzu-təqvim planı

| № | Mövzu | Mövzuya ayrılmış vaxt | Dərsin növü | | | |
|---|---|---|---|---|---|---|
| | | | Mühazirə | Seminar | Təcrübə | Kollokvium |
| **I BÖLMƏ. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti** | | | | | | |
| 1 | İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri | 4 | 2 | 2 | - | |
| **II BÖLMƏ. Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüquq** | | | | | | |
| 2 | İnzibati hüquq - hüququn sərbəst bir sahəsi kimi | 4 | 2 | 2 | - | |
| 3 | İnzibati hüquq normaları və münasibətləri | 4 | 2 | 2 | - | |
| **III BÖLMƏ. İnzibati hüququn subyektləri** | | | | | | |
| 4 | İnzibati hüququn fərdi və kollektiv subyektləri | 4 | 2 | 2 | - | |
| 5 | İcra hakimiyyəti orqanları | 4 | 2 | 2 | - | |
| 6 | Dövlət qulluğu və dövlət qulluqçuları | 4 | 2 | 2 | - | |
| **IV BÖLMƏ. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları** | | | | | | |
| 7 | İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları | 4 | 2 | 2 | | |
| | **Kollokvium** | **2** | | | | **2** |
| 8 | İdarəetmənin (icra hakimiyyəti orqanlarının) hüquqi aktları | 6 | 4 | 2 | | |
| 9 | Xüsusi inzibati hüquqi rejimlər | 4 | 2 | 2 | | |
| **XÜSUSİ HİSSƏ**<br>**V BÖLMƏ. İnzibati hüquqda sahəvi dövlət idarəetməsi** | | | | | | |
| 10 | Daxili işlər sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 11 | Ədliyyə sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| 12 | Müdafiə sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| 13 | “Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| 14 | Xarici işlər sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| | **Kollokvium** | **2** | | | | **2** |
| 15 | Təhsil sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| 16 | Vergi sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| 17 | Gömrük sahəsində dövlət idarəetməsi | 4 | 2 | 2 | | |
| **VI BÖLMƏ. İnzibati hüquqda qanunçuluq və məsuliyyət** | | | | | | |
| 18 | Dövlət idarəetməsində qanunçuluq və intizam | 6 | 4 | 2 | | |
| | **Kollokvium** | **2** | | | | **2** |
| 19 | Dövlət idarəetməsində intizam və maddi məsuliyyət | 4 | 2 | 2 | | |
| 20 | Dövlət idarəetməsində inzibati məsuliyyət | 4 | 2 | | | |
| | **Fənn üzrə cəmi:** | **90** | **44** | **40** | | **6** |

# ÜMUMİ HİSSƏ

## I BÖLMƏ. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti

## Mövzu № 1. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri

Vaxt - 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. İdarəetmənin anlayışı, xüsusiyyətləri, elementləri və funksiyaları.
2. Dövlət idarəetməsinin anlayışı, subyektləri, əlamətləri, prinsipləri və funksiyaları.
3. İcra hakimiyyətinin anlayışı, məqsədi və xüsusiyyətləri.
4. Daxili işlər sahəsində dövlət idarəetməsinin nəzəri əsasları.

### Tədris olunan mövzunun qısa məzmunu

Azərbaycan Respublikasının hüquq sistemi nizamasalma predmeti baxımdan fərqləri. Hüquq sisteminə daxil olan inzibati hüquq sahəsi. İnzibati hüququn nizamasalma predmetinə əsasən təşkil edilən ictimai münasibətlər. İnzibati hüququn formalaşmasının metodoloji əsasları. İdarəetmənin latın mənşəli "administatio" sözünün mənası. İdarəetmənin ümumi məzmunun əlamətləri. Sosial idarəetmənin anlayışı. Sosial idarəetmənin əlamətləri. Sosial mənada başa düşülən idarəetmənin növləri. İdarəetmənin elementləri. İdarəetmənin subyeti anlayışı. İdarəetmənin obyekti anlayışı. İdarəetmənin subyektləri və obyektləri arasında əlaqələr. İdarəetmənin ümumi, xüsusi və təminedici funksiyaları. İdrəetmənin ümumi funksiyaları: anlayışı və növləri. Planlaşdırma funksiyası. Proq-

nozlaşdırma funksiyası. Dəqiqləşdirilmiş məlumat funksiyası. Nizamasalma və operativ sərəncam vermə funksiyası. Razılaşdırma funksiyası. Yoxlama (nəzarət) funksiyası. Qeydiyyat (uçot) funksiyası.İdarəetmə prosesinin mərhələləri.

Dövlət idarəetməsinin anlayışı. Dövlət hakimiyyətinin mahiyyəti. Dövlət hakimiyyətin bölünməsi prinsipi. Dövlət orqanlarının ikitərəfli fəaliyyəti. İcraedici fəaliyyət. sərəncamvermə fəaliyyəti. Dövlət idarəetməsinin subyektləri. Yerli özünüidarəetmə orqanlarının dövlət idarəetmə subyekti statusu. Qeyri-hökumət təşkilatlarının dövlət idarəetmə səlahiyyətləri. Dövlət idarəetməsinin sosial idarəetmədən özünəməxsus fərqli əlamətləri. Dövlət idarəetməsinin ümumi prinsipləri. Dövlət idarəetməsinin təşkilati prinsipləri. Dövlət idarəetmə orqanlarının metodları və onların növləri. Dövlət idarəetmə prosesində icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən əsas fəaliyyət istiqamətləri. İcra hakimiyyəti orqanlarının idarəetmə prosesi mərhələləri.

İcra hakimiyyətini fərqləndirən xüsusiyyətlər. İcra hakimiyyətinin həyata keçirilməsi prosesində hüquqtətbiqedici fəaliyyət. İcra hakimiyyətinin əsas məqsədləri.

Daxili işlər sahəsində idarəetmə- dövlət idarəetməsinin bir sahəsi kimi.

## Əsas anlayış və terminlər

İdarəetmə. İdarəetmənin elementləri. İdarəetmə prosesinin mərhələləri. İdarəetmənin funksiyaları. Dövlət idarəetməsi. dövlət idarəetməsinin mahiyyəti. Dövlət idarəetməsinin prinsipləri. İcra hakimiyyəti. İcra hakimiyyətinin subyektləri. İcra hakimiyyətinin məsədləri.

## Tapşırıq və məsələlər:

1. İdarəetmənin anlayışını təqdim edin.
2. İdarəetmənin məzmun əlamətlərini açıqlayın.
3. Sosial idarəetmənin anlayışını təqdim edin.
4. Sosial idarəetmənin əlamətlərini xarakterizə edin.

5. İdarəetmənin ümumi funksiyalarının anlayışını tövsif edin.
6. İdarəetmənin ümumi funksiyalarına hansılar aiddir, onları sadalayın.
7. İdarəetmənin ümumi funksiyalarını hərəsinə ayrı-ayrılıqda misallar təqdim edin.
8. İdarəetmənin hansı digər funksiyaları var, onları bildirin və onlarla bağlı misallar gətirin.
9. İdarəetmə prosesi hansı mərhələlərdən ibarətdir.
10. Dövlət idarəetməsi və idarəetmə anlayışlarını müqayisə edin.
11. Dövlət idarəetmə subyektlərini sadalayın.
12. Dövlət idarəetməsinin sosial idarəetmə ilə fərqli olan əlamətlərini göstərin.
13. Dövlət idarəetməsi prinsiplərinin təsnifatını təqdim edin.
14. Dövlət idarəetməsi öz fəaliyyətində daha da hansı metodlardan səmərəli istifadə edir.

## Yazılı tapşırıqlar:

1. Dövlət idarəetməsi ilə ümumən idarəetmə ilə funksiyalarının ümumi və fərqli cəhətlərini qeyd edin.
2. İcra hakimiyyətinin dövlət hakimiyyətində yerini, rolunu və əhəmiyyətini qeyd edin.
3. İcra hakimiyyətinin özünə məxsus fərqli xüsusiyyətlərini sadalayın və onların əsaslarını yazılı qaydada bildirin.
4. Daxili işlər sahəsində idarəetmənin vəzifələri ilə bağlı yazılı misallar göstərin.
5. Daxili işlər sahəsində idarəetmənin xüsusiyyətlərini icra hakimiyyətinin xüsusiyyətləri ilə müqayisə edin və qeydiyyat aparın.
6. Daxili işlər sahəsində idarəetmənin prinsiplərini dövlət idarəetmə prinsipləri ilə müqayisəli hüquqi təhlil apararaq fərqli tərəflərini göstərin.

## Mövzu üzrə yoxlama sualları:

1. İdarəetmənin termin baxımdan anlayışı nədən ibarətdir?

2. İdarəetmə anlayışının hüquqi məzmunu.
3. İdarəetmənin ümumi məzmununun əlamətləri.
4. Sosial idarəetmənin anlayışı.
5. Sosial idarəetmənin əlamətləri.
6. Sosial idarəetmənin növləri.
7. İdarəetmənin subyekti, obyekti, düzünə və əksinə olan əlaqələri.
8. İdarəetmənin sistemi və funksiyalarının növləri.
9. İdarəetmənin ümumi funksiyalarının növləri məzmunu.
10. İdarəetmənin xüsusi funksiyalarının növləri və məzmunu.
11. İdarəetmənin təminedici funksiyalarının növləri və məzmunu.
12. İdarəetmə prosesinin mərhələləri.
13. Dövlət idarəetməsinin dövlət hakimiyyəti prinsipi əsasında təşkili.
14. Dövlət hakimiyyətinin mahiyyəti və strukturu.
15. Dövlət idarəetməsinin mahiyyəti.
16. İcraedici fəaliyyətin hüquqi məzmunu.
17. Sərəncamvermə vermə fəaliyyətin hüquqi məzmunu.
18. Dövlət idarəetməsinin subyektlərinə aid edilən orqanlar.
19. Dövlət idarəetməsinin sosial idarəetmədən özünəməxsus əlamətlərinə görə fərqləri.
20. Dövlət idarəetməsinin ümumi və təşkilati prinsipləri.
21. Dövlət idarəetmə prosesində istifadə olunan metodlar.
22. Dövlət idarəetmə prosesində icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən əsas fəaliyyət istiqamətləri.
23. İcra hakimiyyəti orqanlarının idarəetmə prosesinin mərhələləri.
24. İcra hakimiyyətini dövlət hakimiyyətinin digər budaqlarına münasibətdə fərqləndirən xüsusiyyətləri.
25. İcra hakimiyyətinin əsas məqsədləri.

## Referat mövzuları

1. İdarəetmə institutunun nəzəri əsasları.
2. Azərbaycan Respublikası Konstitusiyasına əsasən dövlət

idarəetməsinin subyektləri və onların səlahiyyətləri.

3. İcra hakimiyyətinin hüquqi əsasları.

4. MDB-nin konstitusiyalarına əsasən icra hakimiyyəti orqanlarının müqayisəli-hüquqi təhlili.

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2016.

2. Naxçıvan Muxtar Respublikasınının Konstitusiyası. Bakı. Qanunun 2009.

3. V.Abışov. A.İsmayılov, R.Nəcəfquliyev. İnzibati hüquq. Dərs vəsaiti. Ümumi hissə. “MBM” mətbəəsi. Bakı 2014. Səh.368.

4. Dr.Fərhad Mehtiyev.İnzibati hüquq (Administrative law). Ali təhsil müəssisələri üçün dərs vəsaiti.Bakı, 2010, 511 səh.

5. «Административное право: практикум. О.Н.Ковалева, И.И.Мах, И.Н.Мах; М-во внутренних дел Республики Беларусь учреждения образования «Могилевский институт МВД Республики Беларусь. Могилев: Могилев институт МВД, 2016-88 с .

6. “Polis haqqında” Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. Qanun 2016.

7. Dərs vəsaiti. Hüquq nəzəriyyəsi. C.Süleymanov, B.Nəsirov, M.Xalıqov, İ.Əliyev. Bakı 2015 (səh.298-302).

8. Dərslik. “İnzibati hüquq”. Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008 (səh.5-14).

## II BÖLMƏ. Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüquq
## Mövzu № 2. İnzibati hüquq – hüququn sərbəst sahəsi kimi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. İnzibati hüququn anlayışı və predmeti.
2. İnzibati hüququn məqsədi.
3. İnzibati hüququn sistemi və prinsipləri.
4. İnzibati hüququn metod, funksiya və mənbələri.
5. İnzibati hüquq elmi, predmeti, sistemi və vəzifələri.

**Tədris olunan mövzunun qısa məzmunu**

Dövlətin hüquq sisteminin nizamasalma predmetinə görə fərqləri. Hüquq sisteminin bir-biri ilə qarşılıqlı əlaqələri. İnzibati hüquq müstəqil hüquq sahəsi kimi. İnzibati hüquq normaları idarəçilik münasibətlərinin nizamlayıcısı kimi, dövlət idarəetmə sistemində vəzifə və funksiyaları. İnzibati hüququn dövlət idarəçiliyinə xas olan xüsusiyyətləri. Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüququn xüsusiyyətləri. İnzibati hüququn predmetini müəyyən edən amillər. İnzibati hüququn predmeti. İnzibati hüquqla tənzimlənən idarəetmə münasibətlərin növləri. İdarəetmə münasibətlərinin təsnifatını yaranma məqsədləri və tənzimləmə münasibətləri qrupları. İnzibati hüququn predmetini təşkil edən idarəetmə xarakterli ictimai münasibətlər. İnzibati hüququn anlayışı.

İnzibati hüququn məqsədləri. İnzibati hüquq Azərbaycan Respublikasının hüquq sisteminin bütün sahələri ilə bağlılığı (konstitusiya, maliyyə, mülki, əmək, cinayət, cinayət-prosessual, mülki-

prosessual hüquq sahələri ilə).

İnzibati hüquq normaları tənzimləyən ictimai münasibətlərin məzmununa görə qrupları. Klassik yanaşmaya əsasən inzibati hüququn üç hissəsi və onların institutları. İnzibati hüququn prinsipləri anlayışı. İnzibati hüququn prinsiplərinin məzmun və məqsədlərinə görə qrupları: konstitusion prinsiplər; xüsusi prinsiplər. Konstitusion prinsiplərin növləri. Xüsusi prinsiplərin növləri.

Metod anlayışı. Hüququn sahəsi hüquqi tənzimləmə vasitəsi kimi hüquqi imkanları: qadağan etmə; sərəncamvermə (əmr vermə); icazə vermə. İnzibati hüquqi metodların xarakterini nəzərə alınan cəhətlər. İnzibati hüququn metodlarının mahiyyətinə görə növləri. İnzibati hüququn funksiyaların xüsusiyyətləri. Əsas hüquqi funksiyaların növləri: təşkilati-struktur; mübahisə-mühafizəedici. İnzibati hüququn funksiyaları. İnzibati hüququn mənbələri, anlayışı. İnzibati hüququn mənbələrinə aid normativ hüquqi aktlar. Normayaradıcılıq nəticəsində sistemləşdirmənin əsasən üç forması: məcəlləşdirmə; inkorporasiya; konsolidasiya.

İnzibati hüquq elminin məzmunu, İnzibati hüquq elminin predmeti. İnzibati hüquq elmində tədqiq olunan əsas müddəalar. İnzibati hüquq elminin nəzəri əsasları. İnzinati hüquq elminin metodoloji əsasları. İnzibati hüquq elminin vəzifələri. Inzibati hüquq elminin funksiyaları, nəzəri; tətbiqi; tərbiyəvi. İnzibati hüquq elminin sistemi. İnzibati hüquq elminin formalaşması tarixi.

**Əsas anlayış və terminlər**

Hüquq sistemi. İcra Hakimiyyəti sistemi. Dövlət idarəetmə sistemi. İnzibati hüquq anlayışı. İnzibati hüquq normaları. İnzibati hüququn predmeti. İnzibati hüququ tənzimləyən idarəetmə münasibətləri. İcra hakimiyyəti subyektləri. İnzibati hüququn sistemi. İnzibati hüququn prinsipləri anlayışı. Qanunçuluq. Demokratiya. Humanistlik. Təqsirsizlik prezumpsiyası. “Metod” anlayışı. İnzibati hüquqi metodlar. Funksiya anlayışı. İnzibati hüququn funksiyaları. “Mənbə” anlayışı. İnzibati hüququn mənbələri. Məcəlləşdirmə. İnkorporasiya. Konsolidasiya. Normayaradıcılıq. Norma-

tiv-hüquqi akt. Hüquq elmi. İnzibati hüquq elmi. Vəzifə.

### Tapşırıq və məsələlər

1. İnzibati hüququ normaları idarəçilik münasibətlərinin nizamlayıcısı kimi dövlət idarəetmə sistemində vəzifə və funksiyaları sadalayın.
2. Azərbaycan Respublikasının hüquq sistemində inzibati hüququn rolunu müəyyən edən xüsusiyyətləri acıqlayın.
3. İnzibati hüququn predmetinin müəyyən olunması üçün nəzərə alınan amilləri qeyd etməklə acıqlayın.
4. İnzibati hüquqla tənzimlənən idarəetmə münasibətlərinin növlərini göztərməklə bir neçə misallar qeyd edin.
5. İdarəetmə münasibətlərinin təsnifatını yaranma məqsədləri və tənzimləmə münasibətləri baxımdan qruplaşmanı aparın və praktik misallar göstərin.
6. İnzibati hüququn predmetini təşkil edən idarəetmə xarakterli ictimai münasibətlərin müxtəlif olan sahələrdən mövcudluğunu sadalayın və misallarla möhkəmləndirin.
7. İnzibati hüququn məqsədlərini Azərbaycan Respublikası Konstitusiyasına uyğun əsaslandırın.
8. İnzibati hüquq Azərbaycan Respublikasının hüquq sisteminin hansı sahələri ilə qarşılıqlı əlaqəlidir və onların ümumi cəhətləri nədən ibarətdir göstərin.

### Yazılı tapşırıqlar:

1. Sadalanan münasibətlərdən “İnzibati hüquq” sahəsinə aid olanı seçin və cavabınızı əsaslandırın:

- İcra başçısının qəsəbə və ya kənd nümayəndəsi tərəfindən vətəndaşların özəl torpaq sahələri üzrə yaranan mübahisələrinin həll edilməsi;
- Mərkəzi icra hakimiyyəti orqanının ləğv edilməsi və onun səlahiyyətlərinin digər orqanlara verilməsi;
- Bələdiyyə qərarının inzibati-iqtisadi məhkəməsində mübahisələndirilməsi.

2. “Polis haqqında” Azərbaycan Respublikası Qanunundan istifadə etməklə, “İnzibati hüquq”un predmetinə aid olan münasibətlərə ən azı 2 misal yazın.

**Mövzu üzrə yoxlama sualları**

1. İnzibati hüquq Azərbaycan Respublikaslının hüquq sisteminin müstəqil sahələrindən biri kimi.
2. İnzibati hüquq normaları idarəçilik münasibətlərinin nizamlayıcısı kimi dövlət idarəetmə sistemində vəzifə də funksiyaları.
3. Azərbaycan Respublikasının hüquq sisteminidə inzibati hüququn xüsusiyyətləri.
4. İnzibati hüququn predmetinin anlayışı.
5. İnzibati hüquqla tənzimlənən idarəetmə münasibətlərinin növləri.
6. İnzibati hüququn predmetini təşkil edən idarəetmə xarakterli ictimai münasibətlərin növləri.
7. İnzibati hüququn məqsədləri hansılardır.
8. İnzibati hüquq Azərbaycan Respublikasının hüququ sisteminin hansı sahələri ilə əlaqəsi mövcuddur.
9. İnzibati hüquq normaları ilə tənzimlənən ictimai münasibətlərin məzmununa görə qrupları.
10. İnzibati hüququn prinsiplərinin məzmun və məqsədlərinə görə növləri.
11. İnzibati hüququn metodlarının anlayışı və növləri.
12. İnzibati hüququn funksiyalarının növləri.
13. İnzibati hüququn mənbələri anlayışı və onlara aid normativ hüquqi aktlar.
14. İnzibati hüquq elminin əsas müddəaları.
15. İnzibati hüquq elminin əsas vəzifələri.
16. İnzibati hüquq elminin funksiyaları.
17. İnzibati hüquq elminin sisteminin tərkib elementleri.
18. İnzibati hüquq elminin formalaşması mərhələləri.

**Referat mövzuları**

1. “İnzibati hüquq”un nəzəri əsasları.

2. “İnzibati hüquq” və “Konstitusiya hüququ”: ümumi və fərqli cəhətləri.
3. “İnzibati hüquq”un mənbələri sırasında normativ-hüquqi aktların yeri və rolu.
4. “İnzibati hüquq”un prinsipləri və funksiyaları.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2016.
2. Naxçıvan Muxtar Respublikasınının Konstitusiyası. Bakı. Qanunun 2009.
3. V.Abışov. A.İsmayılov, R.Nəcəfquliyev. İnzibati hüquq. Dərs vəsaiti. Ümumi hissə. “MBM” mətbəəsi. Bakı 2014. Səh.368.
4. Dr.Fərhad Mehtiyev. İnzibati hüquq (Administrative law). Ali təhsil müəssisələri üçün dərs vəsaiti.Bakı, 2010, 511 səh.
5. «Административное право: практикум. О.Н.Ковалева, И.И. Мах, И. Н. Мах; М-во внутренних дел Республики Беларусь учреждения образования «Могилевский институт МВД Республики Беларусь. Могилев: Могилев институт МВД, 2016-88 с .
6. “Polis haqqında” Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. Qanun 2016.
7. Dərs vəsaiti. Hüquq nəzəriyyəsi. C.Süleymanov, B.Nəsirov, M.Xalıqov, İ.Əliyev. Bakı 2015 (səh.298-302).
8. Dərslik. “İnzibati hüquq”. Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008 (səh.5-14).

## Mövzu № 3. İnzibati hüquq normaları və münasibətləri

Vaxt 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. İnzibati hüquq normalarının anlayışı və quruluşu.
2. İnzibati hüquq normalarının növləri və hüquqi məzmunu.
3. İnzibati hüquq normalarının həyata keçirilməsi üsulları.
4. İnzibati hüquq münasibətlərinin anlayışı, quruluşu və növləri.

**Tədris olunan mövzunun qısa məzmunu**

Azərbaycan Respublikasının hüquq sistemində hüquq norması, inzibati hüquq normasına aidiyyətliyi. İnzibati hüquq normalarının vəzifələri. İnzibati hüquq normasının anlayışı. İnzibati hüquq norması quruluşunun anlayışı. İnzibati hüquq normasının quruluşunun üç tərkib elementləri. Hipoteza. Hipotezanın anlayışı. Hipotezanın növləri. Dispozisiya. Dispozisiyanın anlayışı. Dispozisiyanın növləri. Sanksiya. Sanksiyanın anlayışı. Sanksiyanın növləri. Normativ hüquqi aktın maddəsi. Normativ hüquqi aktların maddələrində hüquq normalarının ifadə üsulları: birbaşa, göndərici, blanket. İnzibati hüququn tənzimləyici rolunun inzibati-hüquq normalarında halları. Hüquqi təbiəti baxımdan inzibati-hüquq normalarının məzmununda göstərilən məsələlər. İnzibati-hüquqi tənzimləmənin məzmunu. İnzibati-hüquqi tənzimləmə mexanizminin elementləri. İnzibati-hüquq normalarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbiti. İnzibati-hüquq nəzəriyyəsinə əsasən hüquq sahəsində normaların iyerarxiyası.

İnzibati-hüquq normalarının tənzimləmə predmetinə görə növləri: maddi, inzibati-hüquq normaları, prosessual inzibati-hüquq normaları. İnzibati-hüquq normalarının hüquqi məzmunun xarakterinə görə növləri. Zamanda təsirinə görə inzibati hüquq normaları. Məkanda təsirinə görə inzibati hüquq normaları. Xüsusiləşdiril-

miş normaların növləri.

İnzibati-hüquq normalarının həyata keçirilməsi üsulları. İnzibati-hüquq normalarının realizəsi anlayışı. Hüquq nəzəriyyəsində hüquq normalarının formaları. İnzibati hüquq normalarının realizəsinə dair formaları. İnzibati-hüquq normalarının icra etmə forması. İnzibati-hüquq normalarının realizəsinin istifadə etmə forması. İnzibati-hüquq normalarının tətbiq edilməsinin mahiyyəti. İnzibati-hüquq normalarının tətbiq edilməsinə qoyulan əsas tələblər. Hüquq tətbiqetmənin elmi təşkilinin elementləri.

İnzibati-hüquq münasibətlərinin anlayışı. Hüquq münasibətlərinə xas olan əsas əlamətlər. İnzibati hüquq münasibətlərinin anlayışı. İnzibati hüquq münasibətlərinin ümumi xüsusiyyətlərini tamamlayan amillər. İnzibati hüquq münasibətlərinin xüsusiyyətləri. İnzibati hüquq münasibətlərinin quruluş elementləri. İnzibati hüquq münasibətlərinin subyektləri. İnzibati hüquq qabiliyyəti anlayışı. Nzibati hüquq normalarının tənzimlənməsinin ümumi obyekti. İnzibati hüquq münasibətlərinin obyektlərinin növləri. İnzibati hüquq münasibətlərinin yaranmasında, dəyişməsində və xitam olunmasında hüquqi faktlar. Hüquqi faktların anlayışı.

İnzibati hüquq münasibətlərinin növləri. İnzibati hüquq münasibətlərinin hüquqi məzmuna görə növləri. Maddi inzibati hüquq münasibətləri. Prosessual inzibati hüquq münasibətləri. İnzibati hüquq münasibətləri yaradan hüquqi faktlar xarakterinə görə növləri. Subyektlərin hüquq və vəzifələri və ya bir-birinə qarşı olan münasibətləri baxımından inzibati hüquq münasibətlərinin növləri. Müdafiə üsullarına görə iznibati hüquq münasibətləri inzibati və məhkəmə qaydasında müdafiə olunanlara bölgüsü. Hüquqpozmalar əsasında yaranan inzibati hüquq münasibətlərinin müdafiəsinə olan tələblər.

### Əsas anlayış və terminlər

Hüquq norması. İnzibati hüquq norması. Hipoteza. Dispozisiya. Sanksiya. Sadə hipoteza. Mürəkkəb hipoteza. Alternativ hipoteza. Sadə dispozisiya. Təsviri dispozisiya. Göndərici dispozisiya.

Blanket dispozisiya. Mütləq müəyyən sanksiya. Nisbi müəyyən sanksiya. Alternativ sanksiya. Nzibati hüquqi tənzimləmə mexanizmi. Maddi inzibati hüquq normaları. Prosessual inzibati hüquq normaları. Məcburedici normalar. Qadağanedici normalar. Səlahiyyətverici normalar. Həvəsləndirici normalar. Məsləhətverici normalar. Müddətli normalar. Müddətsiz normalar. Ümumdövlət normaları. Muxtariyyət normaları. Yerli normalar. Xüsusi normalar. Təsbitedici normalar. Definitiv normalar. Prinsip normalar. İnzibati hüquq normalarının realizəsi. Üsul (forma). İnzibati hüquq münasibətləri. Maddi inzibati hüquq münasibətləri. Prosessual inzibati hüquq münasibətləri. Hüquqi faktlar.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminara çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Cari ildə dərc edilmiş və özündə inzibati hüquq normalarını təsbit edən dövlət hakimiyyəti və ya idarəetmə orqanlarının 2-3 aktlarında olan inzibati hüquq normalarını dəftərə köçürmək.
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə diqqətlə tanış olmaq, normaların əsas növlərini müəyyən etmək və bloklar üzrə qruplaşdırmaq lazımdır.Kursantlar təsnifat üçün məlum meyarları seçməli və qruplaşmanın seçilmiş variantlarının müzakirəsinə hazır olmalıdır.
5. İnzibati hüquq normalarının quruluşu, məzmunu və növlərini öyrənmək.
6. İnzibati hüquq normalarının zamana, məkana və fiziki şəxslərə görə qüvvəsini müəyyən etmək.
7. Dövlət idarəetmə orqanlarının fəaliyyəti prose-sində yaranan və inzibati hüquq normaları ilə nizama salınan ictimai münasibətlərin 2-3 variantını seçməli və seminar məşğələsində onların müzakirəsinə hazır olmalıdır.
8. 1-3-cü mövzular üzrə cari nəzarətə hazır olmalı (bunun üçün həmin mövzuları və tövsiyə edilmiş ədəbiyyatları bir daha təkrarlayın).

9. Yazılı tapşırıqları həll etmək.

**Yazılı tapşırıqlar:**

1. İXM-in 327-ci maddəsi neçə hissədən ibarətdir? Həmin hissələri sadalayın. İXM-in 327-ci maddəsinin dispozisiyasının növünü müəyyən edin.
2. İXM-in 327-ci maddəsinin sanksiyasının növünü müəyyən edin. Sizin fikrinizcə, İXM-in 327-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanı iki dəfə törətmiş şəxsi, İXM 327-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb etmək olar?
3. İXM-in 206-cı maddəsinin dispozisiya və sanksiyasını qeyd edin. Onların növlərini müəyyən edin.
4. «Vətəndaşların müraciətləri haqqında» və «Dövlət idarəetmə orqanlarının və vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermə haqqında» Qanunlardan istifadə etməklə, aşağıdakı inzibati hüquq normalarının növlərini araşdırıb qeyd edin:
   - məcburedici;
   - maddi;
   - definitiv;
   - qadağanedici;
   - səlahiyyətverici;
   - prosessual.
5. İnzibati Xətalar və Cinayət Məcəllələrindən istifadə etməklə «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının Qanununda mövcud olan inzibati hüquq normalarının pozulmasına görə inzibati və cinayət məsuliyyətinə səbəb olan bir neçə halları müəyyən edin. Onların müzakirəsinə hazır olun.
6. İXM-in 328-ci maddəsinin dispozisiya və sanksiyalarının fərqlərini qeyd edin.
7. İXM-in 328.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxsi İXM-in 328.3-cü maddəsi ilə inzibati məsuliyyətə cəlb etmək olar ?
8. «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» və «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının qanunlarından inzibati hüquq normalarının reali-

zəsinə dair bir neçə misal qeyd edin.

9. Yol hərəkəti və pasport qaydaları bütün vətəndaşlara şamil edilən normalardır, yoxsa onlar vətəndaşların müəyyən kateqoriyasına şamil edilir?

10. Azərbaycan Respublikasının vətəndaşı rayon polis idarəsinə (şöbəsinə) şəxsiyyət vəsiqəsinin alınması ilə əlaqədar müraciət etmişdir. Bu hüquq münasibətində inzibati hüquq münasibətinin elementlərini qeyd edib, izah edin.

## Mövzu üzrə yoxlama sualları

1. İnzibati hüquqi tənzimləmə mexanizminin anlayışı və elementləri.
3. İnzibati hüquq normaların anlayışı və quruluşu.
4. İnzibati hüquq normaların hipotezasının anlayışı və növləri.
2. İnzibati hüquq normaların dispozisiyasının anlayışı və növləri.
3. İnzibati hüquq normaların sanksiyasının anlayışı və növləri.
4. İnzibati hüquq normaların təsnifatı və növləri.
7. İnzibati hüquqi normaların nizamasalma predmetinə görə növləri.
5. .İnzibati hüquq normaların hüquqi məzmununun xarakterinə görə növləri.
6. İnzibati hüquq normaların məkanda təsirinə görə növləri.
7. İnzibati hüquq normaların zamanda təsirinə görə növləri.
8. İnzibati hüquq normaların fiziki şəxslərə təsirinə görə növləri.
9. İnzibati hüquq normaların sistemləşdirilməsi və onun növləri.
10. İnzibati hüquq normaların realizəsi anlayışı və növləri.
11. İnzibati hüquq normaların tətbiq edilməsinə qoyulan tələblər.
12. İnzibati hüquq münasibətlərin anlayışı və əsas əlamətləri.
13. İnzibati hüquq münasibətlərin elementləri.
14. İnzibati hüquq münasibətlərin subyektlərinin növləri.
15. İnzibati hüquq münasibətlərin obyektinin anlayışı və növləri.
16. İnzibati hüquq münasibətlərin hüquqi faktlarının anlayışı və növləri.

17. İnzibati hüquq münasibətlərin təsnifatı və növləri.

18. İnzibati hüquq münasibətlərin hüquqi xarakterinə görə növləri.

19. İnzibati hüquq münasibətlərin subyektlərinin əlaqə xarakterinə görə növləri.

20. İnzibati hüquq münasibətlərini yaradan hüquqi faktların xarakterinə görə növləri.

21. İnzibati hüquq münasibətlərin müdafiə üsuluna görə növləri.

22. DİO-nun fəaliyyəti sahəsində yaranan inzibati hüquq münasibətlərin növləri.

**Referat mövzuları**

1. İnzibati hüquq normaların anlayışı və quruluşu.
2. İnzibati hüquq normaların təsnifatı və növləri.

**Mövzu üzrə əsas ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Hüquq ədəbiyyatı. Bakı 2016.

2. Naxçıvan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009.

3. Vaqif Abışov, Aleksandr İsmayılov, Rafiq Nəcəfquliyev İnzibati hüquq. Dərs dəsaiti. Ümumi hissə. “MBM” mətbəəsi. Bakı, 2014.368 s.

4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı 2016 (mad.1,11).

5. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli Fərmanı. Bakı 2016 (mad.5.1).

# III BÖLMƏ. İnzibati hüququn subyektləri
## Mövzu № 4. İnzibati hüququn fərdi və kollektiv subyektləri

Vaxt-4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. Vətəndaşların inzibati-hüquqi statusunun anlayışı, elementləri və onların xarakteristikası. Fərdi subyektlərin xüsusi inzibati-hüquqi statusu.
2. Dövlət idarəetməsində vətəndaşların hüquqlarının təminatı və onların təmin edilməsi üsulları.
3. Kollektiv subyektlər. Qeyri-hökumət təşkilatlarının, dini qurumların və müəssisələrin anlayışı və növləri, onların inzibati-hüquqi statusu.

**Tədris olunan mövzunun qısa məzmunu:**

İnzibati hüquqda fərdi subyektlərin anlayışı və onların növləri.

Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statusunun anlayışı və onun mahiyyəti. Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statusunu müəyyən edən normativ-hüquqi aktlar və onların növləri.

Azərbaycan Respublikası vətəndaşlarının inzibati-hüquqi statusunun elementləri (inzibati hüquq qabiliyyəti, inzibati fəaliyyət qabiliyyəti, inzibati hüquqlar və vəzifələr, azadlıqlar və məsuliyyət) və onların xarakteristikası.

Dövlət idarəetməsində vətəndaşların əsas hüquq və vəzifələrinin növləri (ümumi, xüsusi) və onların xarakteristikası.

Dövlət idarəetməsində vətəndaşların hüquqlarının təminatı növləri (sosial, hüquqi, təşkilati) və onların xarakteristikası.

İnzibati hüququn fərdi subyektlərinin xüsusi inzibati-hüquqi statusu. Xüsusi inzibati-hüquqi statusa malik olan şəxslər (inzibati kol-

lektivlərin üzvləri, inzibati qəyyumluq subyektləri, xüsusi inzibati-hüquqi rejimli ərazinin sakinləri, icazə sistemi subyektləri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) və onların xarakteristikası.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin inzibati-hüquqi statusu və onun xüsusiyyətləri. Əcnəbilərin və vətən-daşlığı olmayan şəxslərin inzibati-hüquqi statusunu müəyyən edən normativ-hüquqi aktlar.

Dövlət idarəetməsində vətəndaşların hüquqlarının müdafiəsi üsulları (inzibati, məhkəmə və alternativ qayda).

Vətəndaşların inzibati-hüquqi statusunun, onların hüquq, azadlıq və qanuni mənafelərinin təmin edilməsində daxili işlər orqanlarının rolu.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri.

İnzibati hüququn kollektiv subyektlərinin anlayışı və növləri.

Müəssisə və təşkilatların anlayışı, növləri və onların inzibati-hüquqi statusu. Müəssisə və təşkilatların fəaliyyətlərinin hüquqi nizamlanması.

Qeyri-hökumət təşkilatlarının anlayışı, növləri və onların inzibati-hüquqi statusu. Qeyri-hökumət təşkilatlarının fəaliy-yətlərinin hüquqi nizamlanması.

Dini qurumların anlayışı, növləri və onların inzibati-hüquqi statusu. Dini qurumların fəaliyyətlərinin hüquqi nizamlanması.

Daxili işlər orqanlarının inzibati hüququn kollektiv subyektləri ilə qarşılıqlı əlaqəsi.

## Əsas anlayış və terminlər

İnzibati-hüquqi status. Əcnəbi. Vətəndaşlığı olmayan şəxs. İnzibati hüququn kollektiv subyektləri. Müəssisə. Təşkilat. Qeyri-hökumət təşkilatları. Dini qurumlar.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə edilmiş ilkin mənbə materialları ilə tanış olmaq;

2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq;

3. Aşağıda göstərilən normativ-hüquqi aktlarla tanış olmaq:

- «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanunu (sonrakı əlavə və dəyişikliklərlə);
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi (sonrakı əlavə və dəyişikliklərlə);

4. Göstərilən normativ-hüquqi aktlarla tanış olarkən (onları öyrənərkən) kursantlar bu qanunların əsas müddəalarını konspektləşdirmək vacibdir.

5. Seminar məşğələsi zamanı yaranan suallara cavab verməyə hazır olmaq lazımdır.

6. 4.Azərbaycan Respublikasının «Polis haqqında» Qanununda vətəndaşların xüsusi hüquq və vəzifələrini tapın və dəftərdə qeyd edin.

4. Yazılı tapşırıqları həll etmək.

**Yazılı tapşırıqlar:**

1. Göstərilən kollektivlərdən hansıları xüsusi inzibati-hüquqi statusa malikdir. Səttərxanov adına maşınqayırma zavodu; Əzizbəyov rayon Polis İdarəsi; Ədliyyə Nazirliyinin 10 saylı ümumi rejimli cəzaçəkmə müəssisəsi; 3 saylı orta məktəb; texniki peşə məktəbi; «N» saylı hərbi hissə; Mərdəkan makaron fabriki; Ədliyyə Nazirliyinin 2 saylı İstintaq Təcridxanası.

2. «Fövqəladə vəziyyət haqqında» Azərbaycan Respublikasının Qanunundan istifadə etməklə, vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılmasını nəzərdə tutan tədbirləri müstəqil tərtib edilmiş cədvəldə qeyd edin.

3. 17 yaşlı «M» qanunvericiliklə müəyyən edilmiş yaş həddindən əvvəl hərbi xidmətə göndərilməsi barədə rayon hərbi komissarlığına ərizə ilə müraciət etmişdir.

4. Yaranmış vəziyyəti qiymətləndirin və qəbul olunacaq qərarı izah edin.

5. Azərbaycan Respublikası vətəndaşının və əcnəbi şəxsin in-

zibati hüquqi statusunun fərqləndirici xüsusiyyətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

6. Göstərilən şəxslərdən hansını inzibati qəyyumluğun subyektləri adlandırmaq olar.

7. Qarabağ müharibəsi iştirakçısı; I qrup əlil; valideynini itirmiş uşaq; DİO-nun təqaüdçüsü; ruhi xəstə; çoxuşaqlı ailələr; hərbi qulluqçular; şəhid ailəsi; 20 yanvar əlilləri; Çernobıl qəzası əlilləri; Əfqanıstan müharibəsinin iştirakçısı; məcburi köçkünlər; xalq artistləri; əməkdar müəllim; qonaq evinin qulluqçuları.

8. Göstərilən hallarda müdafiə üsullarını müəyyən edin:

a) vətəndaş «M» və «Q» barəsində «F» qəzetində böhtan xarakterli məlumatlar yaymışdır;

b) Kurs rəisi seminar dərsində «0» bal almasına görə kursantı istirahət gününə növbədən kənar xidməti naryada təyin etmişdir.

9. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsini və «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanununu təhlil edib, vətəndaşların hüquq və azadlıqlarının pozulması ilə əlaqədar şikayətlərin oxşar və fərqləndirici xüsusiyyətlərini, həmçinin onların verilmə qaydası və müddətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

10. «Polis haqqında» Qanunu təhlil edib, polis əmək-daşının inzibati hüquqi statusunun aşağıdakı xüsusiyyətlərini qeyd edin:

- kim bu fəaliyyətlə məşğul ola bilər:
- qanunla verilmiş hüquqlar;
- üzərinə qoyulmuş vəzifələr;
- nəzərdə tutulmuş məhdudiyyətlər.

## Mövzu üzrə yoxlama sualları:

1. İnzibati hüququn fərdi subyektlərinin anlayışı və növləri.
2. Vətəndaşların inzibati-hüquqi statusu anlayışı və onun elementləri.
3. Xüsusi inzibati-hüquqi statusa malik olan şəxslər.
4. İnzibati fəaliyyət qabiliyyətinin inzibati hüquq qabiliyyətindən fərqi.

5. İnzibati hüquq qabiliyyətinin və inzibati fəaliyyət qabiliyyətinin yaranması.

6. Fiziki şəxslər hansı yaş həddinə çatdıqdan sonra inzibati məsuliyyətə cəlb oluna bilərlər.

7. Azərbaycan Respublikası vətəndaşlarının hüquq və vəzifələrinin təsnifatı.

8. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin inzibati hüquqi statusu.

9. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər hansı hallarda Azərbaycan Respublikasının hüdudlarından çıxarıla bilər.

10. Vətəndaşların hüquqlarının təminatı və onların təmin edilməsi üsulları.

11. Vətəndaşların hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi üzrə DİO-nun fəaliyyəti.

12. Vətəndaşların müraciətlərinə baxılması qaydası.

13. Vətəndaşların müraciətlərinə baxılması müddəti.

14. İnzibati hüququn kollektiv subyektləri: anlayışı və növləri.

15. Qeyri-hökumət təşkilatların fəaliyyətini nizamlayan normativ-hüquqi aktlar.

16. Qeyri-hökumət təşkilatların yaranması, fəaliyyəti və ləğv olunması qaydası.

17. Dini qurumların fəaliyyətini nizamlayan nor-mativ-hüquqi aktlar.

18. Dini qurumların yaranması, fəaliyyəti və ləğv olunması qaydası.

19. Azərbaycan Respublikasında müəssisələrin fəaliyyətini nizamlayan normativ-hüquqi aktlar.

20. Müəssislərin yaranması, fəaliyyəti və ləğv olunması qaydası.

21. Daxili işlər orqanlarının inzibati hüququn kollektiv subyektləri ilə qarşılıqlı əlaqəsi.

## Referat mövzuları

1. Azərbaycan Respublikası vətəndaşlarının hüquq və vəzifələrinin təsnifatı.

2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin inzibati hüquqi statusu.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2016.

2. Naxçıvan Muxtar Respublikasınının Konstitusiyası. Bakı. Qanunun 2009.

3. V.Abışov. A.İsmayılov, R.Nəcəfquliyev. İnzibati hüquq. Dərs vəsaiti. Ümumi hissə. "MBM" mətbəəsi. Bakı 2014. Səh.368.

4. Dr.Fərhad Mehtiyev.İnzibati hüquq (Administrative law). Ali təhsil müəssisələri üçün dərs vəsaiti.Bakı, 2010, 511 səh.

5. «Административное право: практикум. О.Н.Ковалева, И.И. Мах, И. Н. Мах; М-во внутренних дел Республики Беларусь учреждения образования «Могилевский институт МВД Республики Беларусь. Могилев: Могилев институт МВД, 2016-88 с .

6. "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. Qanun 2016.

7. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, II cild səh. 862. Qanun – 2001 (maddə 1-3).

8. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, 2016 (maddə 1-2).

## Mövzu № 5. İcra hakimiyyəti orqanları

Vaxt – 4 saat
Mühazirə - 2 saat
Seminar – 2 saat

**Əsas suallar**

1. İcra hakimiyyəti orqanının anlayışı, inzibati-hüquqi statusu, əsas əlamətləri və fəaliyyətinin əsas istiqamətləri.

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının növləri, inzibati-hüquqi statusu, ümumi əlamətləri və vəzi-fələri.
3. Yerli icra hakimiyyətinin səlahiyyətləri və fəaliyyətinin əsas istiqamətləri.

**Tədris olunan mövzunun qısa məzmunu:**

Dövlət orqanının və onun bölməsinin anlayışları. Dövlət orqanlarının növləri və onların statusunu müəyyən edən normativ-hüquqi akt.

İcra hakimiyyəti orqanının anlayışı, inzibati-hüquqi stat-su və əsas əlamətləri. İcra hakimiyyəti orqanlarının təşkili prinsipləri və quruluşu. İcra hakimiyyəti orqanlarının fəaliyyətlərinin ərazi miqyası, yaranma qaydası, səlahiyyətlərinin xarakteri və həcmi, aidiyyatı məsələlərin həlli üsulları, maliyyələşmə mənbələri meyarlarına görə təsnifatı və onların inzibati-hüquqi statusları.

İcra hakimiyyəti orqanlarının fəaliyyətlərinin əsas istiqamətləri və onların məzmunu. İcra hakimiyyəti orqanlarının inzibati-hüquqi statusunu müəyyən edən normalar (yaranma məqsədini, təşkilati-strukturunu, tabeçilik və hakimiyyət səlahiyyətlərini müəyyən edən) və onların müəyyən edilməsinin əhəmiyyəti.

Azərbaycan Respublikasında icra hakimiyyətinin Azər-baycan Respublikası Prezidentinə mənsubluğu, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri və aktları.

Azərbaycan Respublikası Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra hakimiyyəti orqanı kimi. Nazirlər Kabinetinin tərkibi, səlahiyyətləri və aktları.

İcra hakimiyyəti orqanlarının növləri (ümumi, sahəvi, xüsusi səlahiyyətli) və onların inzibati-hüquqi statusu.

Mərkəzi icra hakimiyyəti orqanlarının növləri, onların inzibati-hüquqi statusu, quruluşu, ümumi əlamətləri və fərqləri. Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətlərinin əsas istiqamətləri.

Yerlərdə icra hakimiyyətinin həyata keçirilməsi, onların səlahiyyətlərinin müəyyən edilməsi və fəaliyyətinin əsas isti-qamətləri.

İcra hakimiyyəti orqanlarının sistemində Azərbaycan Respubli-

kası Daxili İşlər Nazirliyinin yeri və rolu.

**Əsas anlayış və terminlər**

Dövlət orqanı. İcra hakimiyyəti orqanı. Mərkəzi icra hakimiyyəti orqanları. Yerli icra hakimiyyəti orqanları.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara ca-vablar hazırlamaq.
3. Yazılı tapşırıqları həll etmək.

**Yazılı tapşırıqlar:**

1. Aşağıda göstərilən subyektlərdən hansı icra hakimiy-yəti orqanları sisteminə aiddir ?
- müəssisə;
- zavod müdiriyyəti;
- rayon prokurorluğu;
- RPİ-nin cinayət-axtarış şöbəsi;
- məktəb müdiriyyəti;
- tikinti quraşdırma idarəsi;
- icra başçısı;
- vəkillər kollegiyası;
- rayon icra hakimiyyətinin maliyyə şöbəsi;
- notariat kontoru.

2. «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə»dən istifadə etməklə onun təşkilati strukturunu sxem şəklində tərtib edin.

3. «İcra hakimiyyəti orqanlarının sistemi», «icra hakimiyyəti orqanının strukturu» və «icra hakimiyyətinin strukturu» anlayışlarını təhlil edib oxşar və fərqləndirici xüsusiyyətləri qeyd edin. Sizin fikrinizcə son iki anlayış eynidirmi?

4. İcra hakimiyyəti orqanı hansı əlamətlərə malik olmalıdır?
- Bir şəxsin (rəisin, müdirin və s.) rəhbərliyi altında fəaliyyət

göstərməlidir;

- Əsaslı binaya mütləq malik olmalıdır;
- Öz fəaliyyətində inandırma və məcburetmə metodlarına əsaslanmalıdır;
- İcraedici-sərəncamverici fəaliyyətin realizə vasitəsi olan hüquqi-hakimiyyət xarakterli səlahiyyətlərin daşıyıcısı olmalıdır;
- Öz möhürünə malik olmalıdır;
- Nizamnamə, əsasnamə və s. əsasında fəaliyyət göstərməlidir;
- Dövlət adından çıxış etməlidir;
- Məcburetmə tədbirlərinin tətbiq edilməsi üzrə səlahiyyətlərə malik olmalıdır.

5. Sadalanan subyektlərdən hansıları idarəetmə fəaliyyətini həyata keçirir:

- rayon icra hakimiyyətinin başçısı;
- məktəb direktoru;
- vəkil;
- cinayət-axtarış şöbəsinin rəisi;
- prokurorluğun müstəntiqi;
- VVADQ şöbəsinin əməkdaşı;
- Ticarət mərkəzinin satıcısı;
- Mənzil-istismar sahəsinin rəisi;
- Aptek müdiri;
- Orta məktəb müəllimləri.

6. Azərbaycan Respublikasının daxili işlər orqanlarının sistemini sxem şəklində tərtib edin.

7. «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə»dən istifadə etməklə onun inzibati hüquqi statusuna aid olan müddəalarını qeyd edin.

8. Yerli icra hakimiyyətinin təşkilati-hüquqi vəziyyətini təhlil etməklə:

- fəaliyyətinin məqsədləri və vəzifələrini;
- fəaliyyətinin əsas istiqamətlərini;
- DİO ilə qarşılıqlı fəaliyyətini qeyd edin.

9. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında

Əsasnamə və DİO-nun İntizam Nizamnaməsindən istifadə etməklə daxili işlər nazirinin səlahiyyətlərini qeyd edin.

**Mövzu üzrə yoxlama sualları**

1. Dövlət orqanı və icra hakimiyyəti orqanı anlayışı.
2. İcra hakimiyyəti orqanlarının əsas əlamətləri.
3. İcra hakimiyyəti orqanlarının inzibati-hüquqi statusu.
4. İcra hakimiyyəti orqanlarının təşkili prinsipləri.
5. İcra hakimiyyəti orqanlarının ümumi quruluşu.
6. İcra hakimiyyəti orqanlarının növləri.
7. Azərbaycan Respublikası Prezidentinin icra hakimiyyəti sahəsində səlahiyyətləri.
8. Azərbaycan Respublikası Prezidentinin hüquq yaradıcılıq səlahiyyətləri.
9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibi və səlahiyyətləri.
10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ - hüquqi aktları.
11. Yerli icra hakimiyyəti başçılarının səlahiyyətləri.
12. Azərbaycan Respublikası DİN-in quruluşu və səlahiyyətləri.

**Referat mövzuları**

1.İcra hakimiyyəti orqanlarının inzibati-hüquqi statusu və ümumi quruluşu.

2. Yerli icra hakimiyyəti orqanlarının hüquqi əsasları və səlahiyyətləri.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2016.
2. Naxçıvan Muxtar Respublikasınının Konstitusiyası. Bakı. Qanunun 2009.
3. V.Abışov. A.İsmayılov, R.Nəcəfquliyev. İnzibati hüquq.

Dərs vəsaiti. Ümumi hissə. “MBM” mətbəəsi. Bakı 2014. Səh.368.

4. Dr.Fərhad Mehtiyev.İnzibati hüquq (Administrative law). Ali təhsil müəssisələri üçün dərs vəsaiti.Bakı, 2010, 511 səh.

5. «Административное право: практикум. О.Н.Ковалева, И.И.Мах, И.Н.Мах; М-во внутренних дел Республики Беларусь учреждения образования «Могилевский институт МВД Республики Беларусь. Могилев: Могилев институт МВД, 2016-88 с .

6. “Polis haqqında” Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. Qanun 2016.

7. “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 30 iyun 2001-ci il. Polis haqqında sənədlər toplusu. Bakı, Qanun – 2015 (maddə 1-2).

8. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə” (maddə 4-5).

## Mövzu № 6. Dövlət qulluğu və dövlət qulluqçuları

Vaxt – 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Dövlət qulluğunun anlayışı, əsas vəzifələri və prinsipləri.
2. Dövlət qulluqçusunun anlayışı və onların növləri.
3. Dövlət qulluğunu keçmə, onun mərhələləri və şərtləri.

### Tədris olunan mövzunun qısa məzmunu

Dövlət qulluğunun anlayışı, əsas vəzifələri və prinsipləri. Dövlət qulluğunun idarəetmə orqanları, onun tərkibi və səlahiyyətləri.

Dövlət qulluğu vəzifəsinin anlayışı və dövlət qulluğu vəzifələrinin təsnifatı. İnzibati vəzifələrin təsnifatı və inzibati vəzifələr sahəsində ixtisas tələbləri.

Dövlət qulluqçusunun anlayışı. Dövlət qulluqçusunun andı. İxtisas dərəcələri və onların verilmə qaydası.

Dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları. Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər, dövlət qulluqçularının təminatı. Dövlət məvacibinin anlayışı və tərkibi. Dövlət qulluqçularının mükafatlandırılması və məsuliyyəti.

Dövlət qulluğunu keçmə, onun mərhələləri (dövlət qulluğuna qəbul, inzibati vəzifənin tutulması, dövlət qulluq-çularının attestasiyası, dövlət qulluğunda irəli çəkilmə və dövlət qulluğuna xitam verilməsi) və dövlət qulluğunun şərtləri.

Daxili işlər orqanlarında xidmət - dövlət qulluğunun xüsusi növü kimi.

## Əsas anlayış və terminlər

Dövlət qulluğu. Dövlət qulluqçusu. Attestasiya. Dövlət məvacibi. Xidmət keçmə.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrən-mək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara ca-vablar hazırlamaq.
3. 4-6 saylı mövzular üzrə cari nəzarətə hazır olmalı (bunun üçün həmin mövzuları və tövsiyə edilmiş ədəbiy-yatları bir daha təkrarlayın).
4. Yazılı tapşırıqları həll etmək.

## Yazılı tapşırıqlar:

1. Dövlət qulluğu prinsiplərini sadalayın:

- qanunçuluq;
- humanizm;
- ümumi mümkünlük;

- sadəlik;
- dövlət maraqlarının müdafiəsi;
- dövlət-hakimiyyət səlahiyyətlərinin olması;
- hesabat vermək və nəzarət altında olmaq;
- dəyişkənlik.

2. Dövlət qulluğuna və DİO-da xidmətə qəbulu məh-dudlaşdıran halları sadalayın.

3. Aşağıda sadalanan subyektlərin hansıları dövlət qulluqçularına aid edilə bilər:

- rayon prokuroru;
- makinaçı;
- mənzil-istismar sahəsinin çilingəri;
- briqadir;
- polis əməkdaşı;
- zavodun mühəndisi.

4. Sizin fikrinizcə dövlət qulluqçusu və polis əməkdaşı başqa bir ödənişli fəaliyyətlə məşğul ola bilərmi? Cavabınızı qanunvericiliyə istinad edib əsaslandırın.

5. Aşağıda göstərilən işçilərin hansıları vəzifəli şəxslər sayıla bilər:

- müvafiq yerli icra hakimiyyəti orqanları yanında komissiyanın məsul katibi;
- zavodun texniki təhlükəsizlik mühəndisi;
- Milli Məclisin deputatı;
- zavodun baş elektriki;
- layihə institutunun kadrlar şöbəsinin inspektoru;
- universamın satıcısı;
- kommersiya bankının makinaçısı;
- Polis Akademiyasının müəllimi;
- rayon prokuroru;
- şəhər məhkəməsinin sədri.

6. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəlləsinə istinad edib vəzifəli şəxs anlayışının oxşar və fərqlən-

dirici xüsusiyyətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

7. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnaməni təhlil edib, dövlət qulluqçularına və polis əməkdaşlarına tətbiq edilən mükafatlandırma və intizam tənbehlərinin oxşar və fərqləndirici növlərini müstəqil olaraq tərtib edilmiş cədvəldə qeyd edin.

8. Müvafiq qanunvericilikdən istifadə etməklə aşağıdakı şəxslərin hüquqi statuslarının xüsusiyyətlərini qeyd edin (inzibati məsuliyyət və inzibati məcburetmə tədbirlərinin tətbiq edilməsi hissəsində)?

- hakimlər;
- polis əməkdaşları;
- prokurorlar;
- deputatlar;
- hərbi qulluqçular.

9. Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnaməni təhlil edib daxili işlər orqanlarında xidmətin xüsusiyyətlərini qeyd edin.

## Mövzu üzrə yoxlama sualları

1. Dövlət qulluğu anlayışı və onun növləri.
2. Dövlət qulluğunun prinsipləri.
3. Dövlət qulluğu vəzifəsi anlayışı və onun növləri.
4. Dövlət qulluqçusu anlayışı və onların növləri.
5. Vəzifəli şəxslərin və hakimiyyət nümayəndələrinin oxşar və fərqli əlamətləri.
6. Dövlət qulluqçularının inzibati-hüquqi statusu.
7. Dövlət qulluğunu keçmə mərhələləri.
8. DİO-da xidmət keçmənin xüsusiyyətləri.
9. Polis əməkdaşına tətbiq edilən mükafatlandırma tədbirləri.
10. Polis əməkdaşlarına tətbiq edilən intizam tənbehləri.

## Referat mövzüları

1. Dövlət qulluğu anlayışı, prinsipləri və onun növləri.

2. Dövlət qulluqçularının inzibati-hüquqi statusu və hüquqi məzmunu.

**Mövzu üzrə ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 55-56).
2. Dərs vəsaiti. "İnzibati hüquq" Ümumi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2014 (səh. 180-214).
3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanunu (maddə 1-3).
3. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. Qanun – 2016 (maddə 1).

# IV BÖLMƏ. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları

## Mövzu № 7. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forma və metodları

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının anlayışı, mahiyyəti və növləri.
2. İnzibati-hüquqi müqavilə anlayışı və onun müqayisəli-hüquqi təhlili.
3. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarının anlayışı, növləri və onların xarakteristikası.
4. İnzibati məcburetmə tədbirlərinin anlayışı, növləri, onların tətbiq edilməsinin əsasları və məqsədləri.

**Tədris olunan mövzunun qısa məzmunu**

Dövlətin vəzifə və funksiyalarının realizəsi zamanı dövlət idarəetmə orqanlarının hüquqi nəticə yaradan və hüquqi nəticə yaratmayan hərəkətləri.

Dövlət idarəetmə fəaliyyətinin inzibati-hüquqi formalarının anlayışı və mahiyyəti. Dövlət idarəetmə fəaliyyətinin inzibati-hüquqi formalarının seçilməsinə təsir göstərən hallar.

Dövlətin qarşısında qoyulan vəzifə və funksiyaların həyata keçirilməsi kimi - icra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının anlayışı və mahiyyəti.

İcra hakimiyyəti realizəsinin inzibati-hüquqi formalarının növləri (hüquqi, qeyri-hüquqi) və onların xarakteristikası.

İcra hakimiyyəti realizəsinin hüquqi formasının təsnifat meyar-

ları (məzmununa, məqsədyönlüyünə və ifadə üsuluna görə).

İcra hakimiyyəti realizəsinin hüquqi formasının məz-mununa görə növləri (hüquqyaratma və hüquqtətbiqetmə fəaliyyəti) və onların xarakteristikası.

Hüquqyaratma fəaliyyətinin anlayışı və onun mərhələləri.

Hüquqtətbiqetmə fəaliyyətinin anlayışı, onun həyata keçirilmə formaları (hüquqi tənzimləmə və hüquq-mühafizəetmə) və onun mərhələləri.

Hüquqi əhəmiyyətli hərəkətlərin həyata keçirilməsi - icra hakimiyyətinin realizə forması kimi.

İcra hakimiyyəti realizəsinin hüquqi formasının məqsəd-yönlüyünə görə növləri (daxili və xarici) və onların xarakteristikası.

İcra hakimiyyəti realizəsinin hüquqi formasının ifadə üsuluna görə növləri (sözlə və ya işarə ilə) və onların xarak-teristikası. İcra hakimiyyəti realizəsinin hüquqi formasının sözlə ifadə edilməsi üsulunun növləri (yazılı və şifahi) və onların xarakteristikası.

İcra hakimiyyəti realizəsinin qeyri-hüquqi formalarının anlayışı, mahiyyəti və təsnifat meyarları (təşkilati hərəkətlər, maddi-texniki hərəkətlər) və onların xarakteristikası.

İnzibati-hüquqi müqavilə - icra hakimiyyətinin realizəsi vasitəsi kimi. İnzibati-hüquqi müqavilənin əlamətləri və onun mülki-hüquqi müqavilədən fərqi.

İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metod-larının anlayışı və əsas əlamətləri, onların tətbiq edilməsinin məqsədi. İcra hakimiyyətinin realizəsində inzibati-hüquqi metodların əlaqələndirilməsi.

İcra hakimiyyətinin realizəsinin əsas metodları kimi inandırma və məcburetmə; onların məzmunu və əsas əlamətləri.

İnandırma və məcburetmənin realizə metodlarının növləri (inzibati, iqtisadi və sosial-psixoloji metodlar) və onların xarakteristikası.İcra hakimiyyətinin realizəsinin əsas metodu kimi inandırmanın anlayışı və onun mahiyyəti. İnandırma tədbirlərinin həyata keçirilməsinin məqsədi və formaları. İnandırma tədbirlərinin növləri.

İcra hakimiyyətinin realizəsinin əsas metodu kimi məcburetmə-

nin anlayışı və mahiyyəti. Məcburetmənin təsir üsuluna görə (psixi, təşkilati və fiziki), təsiretmənin bilavasitə obyektinə görə (fərdi və kollektiv subyektlərə), həmçinin hüquqi amillərə görə (qanunauyğun və qanunazidd) növləri və onların xarakteristikası.

Qanunauyğun məcburetmə tədbirlərinin növləri (intizam, inzibati, mülki-hüquqi və cinayət-hüquqi məcburetmə) və onların xarakteristikası.

İcra hakimiyyətinin realizəsinin xüsusi növü kimi - inzibati məcburetmənin anlayışı və əsas əlamətləri. İnzibati məcburetmə tədbirlərinin növləri (inzibati xəbərdaretmə, inzibati qarşısınıalma, inzibati prosessual təminetmə və inzibati tənbehlər) və onların tətbiq edilməsinin məqsədləri.

İnzibati xəbərdarlıq tədbirlərinin anlayışı, növləri, onların tətbiq edilməsinin əsasları və qaydası.

İnzibati qarşısınıalma tədbirlərinin anlayışı, növləri, onların tətbiq edilməsinin əsasları və qaydası.

İnzibati prosessual təminetmə tədbirlərinin anlayışı, növləri və onların tətbiq edilməsinin əsasları.

İnzibati tənbehlərin anlayışı, növləri və onların tətbiq edilməsinin məqsədləri.

İnzibati məcburetmə tədbirlərini tətbiq etməyə səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər). İnzibati məcburetmə tədbirlərinin daxili işlər orqanları tərəfindən tətbiq edilməsinin xüsusiyyətləri.

İnzibati məcburetmə tədbirlərinin tətbiq edilməsi zaman qanunçuluğa riayət edilməsi.

**Əsas anlayış və terminlər**

İnzibati-hüquqi forma. Dövlət idarəetmə fəaliyyətinin inzibati-hüquqi formaları. Hüquqyaratma fəaliyyətinin anlayışı və onun mərhələləri. Hüquqtətbiqetmə fəaliyyətinin anlayışı. İcra hakimiyyəti realizəsinin qeyri-hüquqi formaları. İnzibati-hüquqi müqavilə. İcra hakimiyyətinin realizəsinin əsas metodu kimi məcburetmə. İnzibati xəbərdarlıq tədbirləri. İnzibati qarşısınıalma tədbirləri. İnzibati prosessual təminetmə tədbirləri. İnzibati tənbeh. İnzibati

məcburetmə.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə edilmiş tədris materiallarını öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi forması anlayışını qısa və dürüst ifadə etmək.
4. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının təsnifatını və növlərini aydınlaşdırmaq.
5. Qüvvədə olan qanunvericilikdə inzibati-hüquqi müqavilələrə dair bir neçə misallar tapmaq və onları dəftərdə qeyd etmək.
6. Polis haqqında Azərbaycan Respublikası Qanunundan idarəetmənin inzibati-hüquqi formalarına dair misallar tapın və dəftərdə qeyd edin.
7. Azərbaycan Respublikasının Polis haqqında Qanu-nunda, İnzibati Xətalar Məcəlləsində, Fövqəladə vəziyyət haqqında və Hərbi vəziyyət haqqında Azərbaycan Respub-likasının Qanunlarında olan müxtəlif inzibati məcburetmə tədbirlərinə aid əsas müddəaları konspektləşdirmək.
8. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Sizin fikrinizcə aşağıda sadalanan hərəkətlərdən hansılarını icra hakimiyyətinin realizəsinin formalarına aid etmək olar?

- inzibati müqavilənin bağlanması;
- alqı - satqı müqaviləsinin bağlanması;
- Daxili işlər naziri tərəfindən növbəti xüsusi rütbənin verilməsi;
- görülmüş işlər barədə hesabatların verilməsi;
- mənzil istismar idarəsi tərəfindən vətəndaşa arayışın verilməsi;
- polis əməkdaşları tərəfindən hadisə yerinə baxışın keçirilməsi;
- Polis İdarəsinin rəisi tərəfindən DİN-in yeni əmrinin məzmunca izah edilməsi;

- Polis İdarəsinin rəisi tərəfindən verilmiş tapşırığın icrasının yoxlanılması.

2. Azərbaycan Respublikasının Milli Məclisi və DİN-in hüquqyaratma fəaliyyətlərinin xüsusiyyətlərini sadalayın.

3.Sizin fikrinizcə, icra hakimiyyətinin realizəsi yalnız hüquqi formada mümkündür? Cavabınızı icra hakimiyyəti orqanlarının daxili və xarici fəaliyyətinə uyğun izah edin.

4. DİN-in hüquqyaratma fəaliyyətinə dair bir neçə misal qeyd edin.

5. Sizin fikrinizcə ictimai birliyin dövlət qeydiyyatı, lisenziyaların verilməsi, daxili işlər orqanı tərəfindən vətən-daşın müraciətinə cavabın verilməsi, nəqliyyat vasitəsinə texniki baxışın keçirilməsi, xidməti naryadın gündəlik təlimatlandırılması və əmək təhlükəsizliyinin pozulmasına görə müəssisənin fəaliyyətinin dayandırılmasını icra hakimiyyətinin realizəsinin formalarına aid etmək olarmı?

6. İcra hakimiyyətinin realizəsinin inzibati hüquqi for-maları olan hüquqyaratma və hüquqtətbiqetmə fəaliyyətlərinin fərqləndirici xüsusiyyətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

7. İnzibati hüquqi müqavilənin və mülki hüquqi müqa-vilənin fərqləndirici xüsusiyyətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

8. Sizin fikrinizcə yol hərəkəti nişanlarını icra hakimiy-yətinin realizəsinin inzibati hüquqi formalarına aid etmək olarmı?

9. İnzibati xəta törətmiş vətəndaşa rayon polis orqanının rəisi tərəfindən inzibati tənbehin tətbiq edilməsi icra hakimiyyətinin realizəsinin inzibati hüquqi formsına aid edilə bilərmi? Cavabınızı əsaslandırın.

10. Aşağıdakı tədbirlərdən hansıları inzibati-məcburetmə tədbirlərinə aid edilə bilər:

- inzibati qaydada tutma;
- karantinin tətbiq edilməsi;
- məcburi müalicəyə göndərmə;
- gömrük baxışının keçirilməsi;
- kredit verilməsinin dayandırılması.

- cəmiyyətə zidd amillər törətmiş şəxslərdən odlu silahın götürülməsi;
- özbaşına tikilmiş tikililərin sökülməsi;
- nəqliyyat vasitələrinin hərəkətinin dayandırılması (məhdudlaşdırılması);
- mülki hava gəmilərinin sərnişinlərinin əl baqajına baxış keçirilməsi.

11. Aşağıdakı tədbirlərdən hansıları inzibati qarşısınıalma tədbirlərinə aid edilə bilər:

- dövlət sərhədinin ayrı-ayrı sahələrinin bağlanması;
- inzibati qaydada çıxarma;
- məcburi tibbi müayinə;
- sanitariya normalarının pozulmasına görə müəssisənin fəaliyyətinin dayandırılması;
- büdcə maliyyələşdirilməsinin azaldılması.
- özünümüdafiə fəndlərinin tətbiqi;
- mülki hava gəmilərinin sərnişinlərin şəxsi axtarışı;
- nasaz olan nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi;
- sənədlərin yoxlanılması.

12. Polis haqqında və Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının Qanunlarını istifadə etməklə odlu silahın tətbiqi hallarını təhlil edib müstəqil tərtib etdiyiniz cədvəldə onları qeyd edin.

13. İnsan ləyaqətini alçaldan və ictimai mənəviyyatı təhqir edən sərxoş vəziyyətdə ictimai yerlərə gəldikdə fiziki şəxsə hansı inzibati məcburetmə tədbirləri tətbiq edilə bilər.

Cavabınız Polis haqqında Azərbaycan Respublikasının Qanununa əsasən olmalıdır.

14. Polis haqqında Azərbaycan Respublikasının Qanununu və İnzibati Xətalar Məcəlləsindən istifadə etməklə polis tərəfindən tətbiq edilən inzibati məcburetmə tədbirlərinin aşağıdakı meyarlar əsasında qruplaşdırın:

- inzibati xəbərdaretmə tədbirləri;

- inzibati qarşısını alma tədbirləri;
- inzibati prosessual təmin etmə tədbirləri;
- inzibati tənbehlər.

15. Polis əməkdaşı hansı hallarda odlu silah tətbiq edə bilər. Odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının vəzifələrini sadalayın.

**Mövzu üzrə yoxlama sualları**

1. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi formalarının anlayışı və növləri.
2. İcra hakimiyyətinin realizəsinin hüquqi formasının təsnifatı.
3. İcra hakimiyyətinin realizəsinin hüquqi formasının məzmununa görə növləri.
4. Hüquqyaratma fəaliyyətinin anlayışı və onun mərhələləri.
5. Hüquqtətbiqetmə fəaliyyətinin anlayışı və onun həyata keçirilmə formaları.
6. Hüquq əhəmiyyətli hərəkətlərin həyata keçirilməsi icra hakimiyyətinin realizəsinin forması kimi.
7. İcra hakimiyyətinin realizəsinin hüquqi formasının məqsədyönlüyünə görə növləri.
8. İcra hakimiyyətinin realizəsinin hüquqi formasının ifadə üsuluna görə növləri.
9. İcra hakimiyyətinin realizəsinin qeyri-hüquqi formalarının anlayışı və təsnifatı.
10. İnzibati-hüquqi müqavilənin anlayışı və növləri.
11. Daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifə və funksiyaların yerinə yetirilməsində inzibati-hüquqi formaların əhəmiyyəti
12. İcra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodlarının anlayışı, əsas əlamətləri və onların tətbiq edilməsinin məqsədi.
13. İcra hakimiyyətinin realizəsinin əsas metodları kimi inandırma və məcburetmənin anlayışı və onların mahiyyəti.
14. İnandırma tədbirlərinin həyata keçirilməsinin məqsədi, formaları və növləri.

15. İcra hakimiyyətinin realizəsinin əsas metodu kimi məcburetmənin anlayışı, əsas əlamətləri və mahiyyəti.

16. İnzibati məcburetmənin anlayışı və əsas əlamətləri.

17. İnzibati məcburetmə tədbirlərinin təsnifatı və onların.

18. İnzibati xəbərdarlıq tədbirlərinin anlayışı və növləri, onların tətbiq edilməsinin əsasları və qaydası.

19. İnzibati qarşısınıalma tədbirlərinin anlayışı və növləri, onların tətbiq edilməsinin əsasları və qaydası.

20. İnzibati prosessual təminetmə tədbirlərinin anlayışı və növləri; onların tətbiq edilməsinin əsasları.

21. İnzibati tənbehlərin anlayışı və növləri, onların tətbiq edilməsinin məqsədləri.

22. DİO-nun qarşısında qoyulmuş vəzifələrin realizəsində icra hakimiyyətinin realizəsinin inzibati-hüquqi metodların əhəmiyyəti.

## Referat mövzuları

1.İcra hakimiyyətinin realizəsinin hüquqi formaları

2.İnzibati qarşısınıalma tədbirləri

3. İnzibati prosessual təminetmə tədbirləri

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 109;120; 148).

2. Dərs vəsaiti. "İnzibati hüquq" Ümumi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2014 (səh. 245-287).

3. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi". Bakı, Qanun-2016 (maddə 3; 157).

4. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsi". Bakı, Qanun - 2016 (maddə 3; 177).

# Mövzu № 8. İdarəetmənin (icra hakimiyyəti orqanlarının) hüquqi aktları

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

## Əsas suallar

1. İdarəetmə aktlarının anlayışı, əlamətləri və növləri.
2. İdarəetmə aktlarının qəbulu qaydası. İdarəetmə aktlarına qoyulan tələblər, onlara riayət edilməməyinin nəticələri.
3. Daxili işlər orqanlarında qəbul edilən idarəetmə aktlarının xüsusiyyətləri, onların növləri və xarakteristikası.

## Tədris olunan mövzunun qısa məzmunu

Normativ-hüquqi aktların anlayışı və normativ xarakterli aktların növləri. Normativ-hüquqi aktların hazırlanmasının planlaşdırılması, onların layihələrinin hazırlanması, müstəqil elmi ekspertizası və dərc edilməsi. Normativ-hüquqi aktların zamana, məkana və subyektlərə görə qüvvəsi. Normativ-hüquqi aktların şərhi, onların sistemləşdirilməsi və uçotu.

İdarəetmənin hüquqi aktlarının anlayışı və əsas əlamətləri. İdarəetmə aktlarının hüquqi əhəmiyyəti. İdarəetmənin hüquqi aktlarının dövlət orqanlarının və ictimai birliklərin aktlarından, o cümlədən digər aktlardan fərqi.

İdarəetmənin hüquqi aktlarının hüquqi nizamasalma mexanizmində təyinatı. İdarəetmənin hüquqi aktlarının hüquqi xüsusiyyətlərinə, ifadə formalarına, təsir müddətlərinə, aktları qəbul edən orqanlara, ərazidə təsirinə, aktı qəbul edən orqanların səlahiyyətlərinin xarakterlərinə görə təsnifatı, növləri və onların xarakteristikası.

İdarəetmə aktlarının qəbul edilməsi mərhələləri, onların məzmunu və səmərəliyinin şərtləri. İdarəetmənin hüquqi aktlarına qoyulan tələblər və onlara riayət edilməməyinin nəticələri (mübahisəli və əhəmiyyətsiz aktlar).

İdarəetmə aktlarının təsiri (dərc olunduğu gündən, aktda göstərilən müddətdən). İdarəetmə aktlarının qüvvədə olma müddətləri və qüvvələrinin itirilməsi halları.

Daxili işlər orqanlarında qəbul edilən idarəetmə aktlarının anlayışı, növləri və onların məzmunu.

Daxili işlər orqanlarında qəbul edilən idarəetmə aktlarına qoyulan tələblər.

Daxili işlər orqanlarında qəbul edilən idarəetmə aktlarının qəbul edilməsi mərhələləri və onların məzmunu.

Daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifə və funksiyaların yerinə yetirilməsində idarəetmə aktlarının əhəmiyyəti.

**Əsas anlayış və terminlər**

Normativ-hüquqi akt. İdarəetmənin hüquqi aktı. Daxili işlər orqanlarında qəbul edilən idarəetmə aktları.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Hər bir müdavim qüvvədə olan qanunvericilikdən, idarəetmənin fərdi aktlarına və idarəetmənin inzibati sanksiyalı inzibati-hüquqi aktlarına 2-3 nümunə seçməli və onların şərhini hazırlamalıdır.
4. Son illərdə qəbul edilən normativ-hüquqi aktlar sırasından normativ, qeyri-normativ və qarışıq xarakterli aktlar seçmək və bu seçimi əsaslandırmaq.
5. Müəllimin tapşırığı ilə hər bir tağımdan bir müdavim Normativ-hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununa aid çıxış hazırlamalıdır.
6. Yazılı tapşırıqları həll etmək.

## Yazılı tapşırıqlar:

1. İmtahanda müdavim demişdir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikası Milli Məclisin məlumatında dərc edilir və qəbul edildiyi andan qüvvəyə minir.

Verilmiş cavab düzgündür ?. Fikrinizi əsaslandırın.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları hansı rəsmi nəşriyyatda dərc olunur?

İdarəetmənin hüquqi aktlarının qüvvəyə minməsi qaydalarını izah edin.

2. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Nazirlər Kabinetinin Qərarı, yerli icra hakimiyyəti başçısının sərəncamı, Azərbaycan Respublikası Vergilər Nazirliyinin təlimatı, Daxili İşlər Nazirinin əmri, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamı, zavod müdirinin əmri.

Yuxarıda qeyd edilən normativ sənədləri idarəetmə aktlarının hansı növlərinə aid etmək olar?

Əmr və təlimat, qərar və sərəncam arasında olan fərqi izah edin.

3. İdarəetmənin hüquqi aktlarının ədalət mühakiməsi aktlarından fərqləndirici xüsusiyyətlərini qeyd edin.

4. Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilən hüquqi aktların əsaslarını, dərc edilmə qaydasını və qüvvəyə minmə qaydalarını izah edin.

5. Polis əməkdaşı bilavasitə rəisi tərəfindən qanunsuz əmr aldıqda hansı formada davranmalıdır.

6. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu və icra hakimiyyətinin realizəsinin forması olan hüquqyaratma fəaliyyətinin mərhələlərindən istifadə etməklə, idarəetmə aktlarının qəbulu mərhələlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

7. Azərbaycan Respublikasının Prezidenti, Nazirlər Kabineti və DİN tərəfindən qəbul edilmiş bir neçə normativ hüquqi aktların

tam adını, qəbul olunmasının hüquqi əsaslarını, tarixini və dərc mənbəyini qeyd edin.

8. «İdarəetmə qərarı» və «idarəetmənin normativ hüquqi aktı» anlayışlarını təhlil edib onların oxşar və fərqləndirici xüsusiyyətlərini qeyd edin.

## Mövzu üzrə yoxlama sualları

1. Normativ-hüquqi aktların anlayışı.
2. İdarəetmənin hüquqi aktlarının anlayışı və əhəmiyyəti.
3. İdarəetmə aktlarının qanunlardan fərqi.
4. İdarəetmə aktlarının prokuror nəzarəti və məhkəmə aktlarından fərqi.
5. İdarəetmə aktlarının  xidməti  sənədlərdən fərqi.
6. İdarəetmənin normativ və fərdi aktlarının xüsusiyyətləri.
7. İdarəetmə aktlarının təsnifatı və növləri.
8. İdarəetmə aktlarının səmərəliliyinin şərtləri.
9. İdarəetmə aktlarının qəbulu prosesi.
10. İdarəetmə aktlarına qoyulan tələblər və onları riayət edilməməyinin nəticələri.
11. İdarəetmə aktlarının qüvvədə olması.
12. İdarəetmə aktlarının qüvvədən düşməsi, təsirinin dayandırılması və xitam edilməsi.
13. Daxili işlər orqanlarının aktları və onların xüsusiyyətləri.
14. Daxili işlər orqanlarında qəbul edilən aktların növləri və xarakteristikası.
15. Daxili işlər orqanlarında idarəetmə aktlarının qəbulunu tənzimləyən normativ-hüquqi aktlar.

## Referat mövzuları

1.İdarəetmə aktlarının təsnifatı və növləri.

2.Daxili işlər orqanlarının aktları və onların xüsusiyyətləri.

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 95; 109; 148).

2. Dərs vəsaiti. “İnzibati hüquq” Ümumi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2014 (səh. 323-358).

3. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu. Bakı, Qanun – 2016 (maddə 1-2).

4. “DİN-in normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi qaydalarına dair Təlimat”ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası DİN-in 10 avqust 2012-ci il tarixli Q18-001-12 nömrəli Qərarı (maddə 1) .

## Mövzu № 9. Xüsusi inzibati-hüquqi rejimlər

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Xüsusi inzibati hüquqi rejimlərin anlayışı, növləri və onların xarakteristikası.
2. Fövqəladə vəziyyət rejimin tətbiq edilməsinin əsasları, qaydası və tətbiq edilən tədbirlər.
3. Hərbi vəziyyət rejimin tətbiq edilməsinin əsasları, qaydası və tətbiq edilən tədbirlər.

### Tədris olunan mövzunun qısa məzmunu

Hüquqi rejim anlayışı, növləri (ümumi, törəmə) və onların xarakteristikası.

İnzibati-hüquqi rejimlərin anlayışı və onların əlamətləri.

İnzibati-hüquqi rejimlərin növləri (ərazi rejimləri, yüksək ictimai təhlükə mənbəyi olan əşya və predmetlərin dövriy-yəsinin rejimi, dövlət əhəmiyyətli obyektlərin rejimi) və onların xarakteristikası.

İnzibati-hüquqi rejimlərin məkana görə növləri (ümum-dövlət və regional) və onların xarakteristikası.

İnzibati-hüquqi rejimlərin zamana görə növləri (daimi və müvəqqəti) və onların xarakteristikası.

İnzibati-hüquqi rejimlərin tətbiq edilməsinin əsasları və qaydası. İnzibati-hüquqi rejimlərin həyata keçirilməsi zaman tətbiq edilən məcburetmə tədbirləri. İnzibati-hüquqi rejimlərin tətbiq edilməsi zamanı vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması.

Fövqəladə vəziyyət rejimi - inzibati hüquqi rejimlərin xü-susi növü kimi. Fövqəladə vəziyyətin tətbiq edilməsi əsası, onun elan edilməsi və həyata keçirilmə qaydası.

Hərbi vəziyyət rejimi - inzibati-hüquqi rejimlərin xüsusi növü kimi. Hərbi vəziyyətin tətbiq edilməsinin hüquqi əsasları, onun elan edilməsi və həyata keçirilmə qaydası.

İnzibati-hüquqi rejim qaydalarının pozulmasına görə vəzifəli şəxslərin və vətəndaşların məsuliyyəti. İnzibati-hüquqi rejimlərin təmin edilməsində daxili işlər orqanlarının rolu.

İnzibati-hüquqi rejimlərin həyata keçirilməsində qanun-çuluğun təmin edilməsi.

## Əsas anlayış və terminlər

Hüquqi rejim. İnzibati-hüquqi rejim. Fövqəladə vəziyyət rejimi. Hərbi vəziyyət rejimi.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə edilmiş materialları öyrənmək.
2. Seminara çıxarılmış nəzəri suallara cavablar hazır-lamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Fövqəladə vəziyyətin tətbiqi zamanı həyata keçirilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin təsnifatını dəftərinizdə aparın.

2. Fövqəladə vəziyyət rejimində daxili qoşunların hüquq və vəzifələrini dəftərinizdə qeyd edin.

3. Daxili qoşunların hərbi qulluqçularının şəxsən və ya bölmənin tərkibində xüsusi vasitələri tətbiq etmə hallarını dəftərinizdə qeyd edin.

4. İnsan və vətəndaş hüquq və azadlıqlarının məhdud-laşdırılması baxımından hərbi vəziyyət dövründə tətbiq edilən tədbirlərin təsnifatını dəftərinizdə aparın.

5. Fövqəladə və ya hərbi vəziyyət rejimləri tətbiq edildikdə fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqinin normativ şərtləri Xidməti və mülki silah haqqında və Polis haqqında Azərbaycan Respublikasının Qanunlarında eynidirmi? Cavabınızı qanunvericiliyə müvafiq olaraq əsaslandırın.

6. Fövqəladə vəziyyət və hərbi vəziyyət rejimlərində tətbiq edilən məhdudiyyətlərin oxşar və fərqləndirici növlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

## Mövzu üzrə yoxlama sualları

1. Hüquqi rejim anlayışı və rejimlərin növləri.
2. İnzibati-hüquqi rejimlərin anlayışı, onların əlamətləri və növləri.
3. İnzibati-hüquqi rejimlərin məkana və zamana görə növləri.
4. İnzibati-hüquqi rejimlərin tətbiq edilməsinin əsasları və qaydası.
5. İnzibati-hüquqi rejimlərin tətbiq edilməsi zamanı vətəndaşların məhdudlaşdırılan hüquq və azadlıqları.
6. Fövqəladə vəziyyətin tətbiq edilməsinin əsası, onun elan edilməsi və həyata keçirilməsi qaydası.
7. Fövqəladə vəziyyət rejimi tətbiq edilməsi zaman tətbiq edilən tədbirlər.
8. Hərbi vəziyyətin tətbiq edilməsinin hüquqi əsasları, onun elan edilməsi və həyata keçirilməsi qaydası.
9. Hərbi vəziyyətin tətbiq edilməsi zaman tətbiq edilən tədbirlər.
10. İnzibati-hüquqi rejim qaydalarının pozulmasına görə vəzifəli şəxslərin və vətəndaşların məsuliyyəti.

11. İnzibati-hüquqi rejimlərin təmin edilməsində daxili işlər orqanlarının rolu.

**Referat mövzüləri**

1. İnzibati-hüquqi rejimlərin tətbiq edilməsinin əsasları və qaydası.
2. Fövqəladə vəziyyətin tətbiq edilməsinin əsası və bu vəziyyətdə tətbiq edilən tədbirlər.
3. Hərbi vəziyyətin tətbiq edilməsinin hüquqi əsasları və bu vəziyyətdə tətbiq edilən tədbirlər.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 7; 8).
2. Dərs vəsaiti. "İnzibati hüquq" Ümumi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı, 2014 (səh. 288-319).
3. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun – 2015 (maddə 1-2).
4. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi". Bakı, Qanun-2016 (maddə 378).

# XÜSUSİ HİSSƏ

## V BÖLMƏ. İnzibati hüquqda sahəvi dövlət idarəetməsi

### Mövzu № 10. Daxili işlər sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı, təşkilati-hüquqi formaları və onların məzmunu.
2.DİN-daxili işlər sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Daxili işlər orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

**Tədris olunan mövzunun qısa məzmunu**

Daxili işlər sahəsində dövlət idarəetməsi sosial idarəetmənin növlərindən biri kimi. Daxili işlər sahəsində dövlət idarəetməsi təşkiletmə fəaliyyəti kimi. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, məqsədi və təşkilati-hüquqi formaları.

Daxili işlər sahəsində dövlət idarəetməsinin (ümumi, xüsusi, əsas və təminedici) funksiyaları.

Azərbaycan Respublikasının Prezidenti - daxili işlər sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən səlahiyyətli subyekt kimi. Qanunvericilik və icra hakimiyyəti orqanları daxili işlər sahəsində ümumi dövlət siyasətini müəyyən edən səlahiyyətli subyekt kimi.

DİN - daxili işlər sahəsində dövlət idarəetməsini bilava-sitə həyata keçirən orqan kimi. DİN - respublikada daxili işlər orqanları sisteminə rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanı kimi.

Daxili işlər naziri - Daxili İşlər Nazirliyinə bilavasitə rəhbərliyi həyata keçirən vəzifəli şəxs kimi. Daxili işlər nazirinin və onun müavinlərin vəzifəyə təyin olunması və vəzifədən azad olunması prosedurası. Daxili işlər nazirinin səlahiyyətləri.

DİN-in vahid sistemi, onu təşkil edən elementlər. DİN-in strukturu - təşkilati vahid kimi.

Daxili işlər orqanlarının bilavasitə idarə olunması. Daxili İşlər Nazirliyinin fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar. Daxili İşlər Nazirliyinin fəaliyyətində rəhbər tutulan prinsiplər. DİN-in funksiyaları, vəzifələri və hüquqları.

Daxili İşlər Nazirliyinin kollegiyası - məşvərətçi orqan kimi. Kollegiyanın təşkili əsasları və fəaliyyəti. Kollegiyanın üzvlərinin seçilməsi və onların siyahısının təsdiq olunması qaydası.

Daxili İşlər Nazirliyi sisteminə daxil olan bütün orqan və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri.

Daxili işlər orqanlarında xidmət keçmə - Azərbaycan Respublikası vətəndaşlarının daxili işlər orqanlarının funksiya, vəzifə və hüquqlarının öz peşə fəaliyyətləri ilə həyata keçirmə forması kimi. Daxili işlər orqanında xidmət keçmə haqqında qanunvericilik. DİN-in təhsil müəssisələrində təhsil alan müdavimlərin xidmət keçmələri.

Daxili işlər orqanlarında xidmətə qəbulun şərtləri.

Müsabiqə və şəffaflıq - daxili işlər orqanlarına qəbul olunmanın əsasları kimi.

Daxili işlər orqanlarına xidmətə qəbul olunan şəxslərin müəyyən edilmiş qaydada and içmələri - bu sahədə dövlət qulluğuna başlamanın ilkin forması kimi.

Daxili işlər orqanları əməkdaşlarının sosial - təminat xərcləri. Daxili işlər orqanları əməkdaşlarının həyat və sağlamlığının dövlət büdcəsi hesabına sığortalanması.

Daxili işlər orqanlarında xidməti intizam. Daxili işlər orqanları əməkdaşlarına tətbiq olunan həvəsləndirmə və intizam tənbehləri tədbirləri. Daxili işlər orqanları əməkdaşlarının xidmətdən xaric edilmə əsasları.

## Əsas anlayış və terminlər

Daxili işlər sahəsində dövlət idarəetməsi. Daxili İşlər Nazirliyi. Daxili işlər orqanlarında xidmət keçmə. Daxili işlər orqanlarında xidməti intizam.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Sosial idarəetmə ilə dövlət idarəetməsinin oxşar və fərqli cəhətlərini xüsusi cədvəldə qeyd olunmaqla dəftərinizdə izah edin;
2. Daxili işlər sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyalarının hər birinə aid beş misal yazın.
3. Daxili işlər sahəsində dövlət siyasətinin əsas istiqa-mətlərini müəyyən edən dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərini sxem formasında dəftərinizdə qeyd edin.
4. DİN-in sistemi və strukturunu misallarla və normativ-hüquqi mənbələrə istinad etməklə dəftərinizdə fərqləndirin.
5. DİO-da xidmət keçmə ilə dövlət qulluğunun fərqli və oxşar cəhətlərini dəftərinizdə sxem şəklində izah edin.
6. Daxili işlər nazirinin idarəetmə qərarlarına aid beş misal yazın və cavabınızı qanunvericilik baxımından əsaslandırın.
7. Qüvvədə olan İnzibati Xətalar Məcəlləsindən daxili işlər orqanlarının səlahiyyətinə aid olan inzibati xətaları maddələr üzrə seçməklə qruplaşdırın.
8. Daxili işlər orqanlarında xidməti intizama riayət olunmamasına görə əməkdaşa tətbiq olunması nəzərdə tutulan hüquqi təsir tədbirləri ilə inzibati tənbehləri fərq-ləndirin. Cavablarınızı «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu və İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri əsasında formalaşdırın.
9. Fikri tamamlayın: Azərbaycan Respublikası DİN-in vahid… ……………….................................……təşkil edir.

**Mövzu üzrə yoxlama sualları:**

1. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı və onun təşkilati-hüquqi formaları.
2. Daxili işlər sahəsində idarəetmənin məzmunu və məqsədləri.
3. Daxili işlər sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları.
4. Daxili işlər sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri.
5. DİN-in anlayışı və fəaliyyətinin hüquqi əsasları.
6. DİN-in vəzifələri, fəaliyyət istiqamətləri və hüquqları.
7. DİN-in sistemi və strukturunun fərqi.
8. Daxili işlər nazirinin səlahiyyətləri.
9. DİN-in Kollegiyası məşvərətçi orqan kimi.
10. DİO-da xidmət keçmənin anlayışı və şərtləri.

**Referat mövzuları**

1. Daxili işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, məqsədləri və onun təşkilati-hüquqi formaları.
2. DİN-in anlayışı, sistemi, vəzifələri, fəaliyyət istiqamətləri və fəaliyyətinin hüquqi əsasları.

**Mövzu üzrə ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 93-94; 109;54-55).
2. “Polis haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2014 (maddə 3-4).
3. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 8-37).
4. “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” Əsasnamə, Bakı, Qanun-2014 (maddə 1.1-1.3; 2; 5).
5. “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”. Bakı, Qanun-2014 (maddə 1-2;9).

6. Dərslik. “İnzibati hüquq” Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008 (səh 435-441).

## Mövzu № 11. Ədliyyə sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati-hüquqi formaları.
2. Ədliyyə nazirliyi - ədliyyə sahəsində dövlət ida-rəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Ədliyyə orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

### Tədris olunan mövzünün qısa məzmunu

Ədliyyə sahəsində dövlət idarəetməsi - sosial idarəetmənin növlərindən biri kimi. Ədliyyə sahəsində dövlət idarəetməsi sosial-siyasi xarakterli təşkiletmə fəaliyyəti kimi. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, məqsədi və təşkilati-hüquqi formaları.

Ədliyyə sahəsində vahid dövlət siyasəti. Azərbaycan Respublikasının Prezidenti - müəyyən edən səlahiyyətli subyekt kimi. Qanunvericilik və icra hakimiyyəti orqanları ədliyyə sahəsində ümumi dövlət siyasətini müəyyən edən səlahiyyətli subyekt kimi.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi - ədliyyə sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən orqan kimi. Ədliyyə Nazirliyi - Azərbaycan Respublikasında ədliyyə orqanları sisteminə rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanı kimi.

Ədliyyə naziri - ədliyyə orqanlarına bilavasitə rəhbərliyi həyata keçirən vəzifəli şəxs kimi. Ədliyyə nazirinin və onun müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad olunması prosedu-

rası. Ədliyyə nazirinin səlahiyyətləri.

Ədliyyə Nazirliyinin vahid sistemi, onu təşkil edən elementlər. Ədliyyə Nazirliyinin strukturu - təşkilati vahid kimi.

Ədliyyə orqanlarının bilavasitə idarə olunması. Ədliyyə Nazirliyinin fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar. Ədliyyə Nazirliyinin fəaliyyətində rəhbər tutulan prin-siplər. Ədliyyə Nazirliyinin funksiyaları, vəzifələri və hüquqları.

Ədliyyə Nazirliyinin fəaliyyətində respublika ictimaiy-yətinin hüquqi maarifləndirmə işi.

Məhkəmə ekspertizaları keçirilməsinin təşkil edilməsi, həmçinin hakimlərin, ədliyyə işçilərinin, müxtəlif sahələrdə çalışan mütəxəssislərin hüquq peşəsi üzrə ixtisasının artırılması - Ədliyyə Nazirliyinin fəaliyyət istiqaməti kimi.

Qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin, habelə Azərbaycan Respublikası əhalisinin dövlət reyestrinin aparılması və qanunvericiliyə uyğun olaraq müvafiq məhkəmələrin fəaliyyətinin təşkilati təminatının həyata keçirilməsi - Ədliyyə Nazirliyinin sosial xarakterli fəaliyyəti kimi.

Ədliyyə Nazirliyinin kollegiyası - məşvərətçi orqan kimi. Kollegiyanın təşkili əsasları və fəaliyyəti. Kollegiyanın üzvlərinin seçilməsi və onların siyahısının təsdiq olunması qaydası.

Ədliyyə Nazirliyi sisteminə daxil olan bütün orqan, xidmət və hissələrdə xidmət keçmənin qaydaları və şərtləri.

Ədliyyə orqanlarında xidmət keçmə - Azərbaycan Respublikası vətəndaşlarının ədliyyə orqanlarının funksiya, vəzifə və hüquqlarının öz peşə fəaliyyətləri ilə həyata keçirmə forması kimi. Ədliyyə orqanlarında qulluq keçmə haqqında qanun. Ədliyyə orqanlarında xidmətə qəbulun şərtləri.

Müsabiqə və şəffaflıq ədliyyə orqanlarına qəbul olunmanın əsasları kimi.

Ədliyyə orqanlarına xidmətə qəbul olunan şəxslərin müəyyən edilmiş qaydada and içmələri - bu sahədə dövlət qulluğuna başlamanın ilkin forması kimi.

Ədliyyə orqanları əməkdaşlarının sosial-təminat xərcləri.

Ədliyyə orqanlarında xidməti intizam. Ədliyyə orqanları əməkdaşlarına tətbiq olunan həvəsləndirmə və intizam tənbehləri tədbirləri. Ədliyyə orqanları əməkdaşlarının xidmətdən xaric edilmə əsasları.

**Əsas anlayış və terminlər**

Ədliyyə sahəsində dövlət idarəetməsi. Ədliyyə Nazirliyinin kollegiyası. Ədliyyə orqanlarında xidməti intizam.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

**Yazılı tapşırıqlar:**

1. Ədliyyə sahəsində idarəetmənin sosial-siyasi xarakterliliyinə dəftərinizdə izah verin.
2. Ədliyyə sahəsində dövlət siyasətinin və tənzim-lənməsinin hər birinə aid 5-dən az olmayan misalları dəftərinizdə qeyd edin.
3. Qanunvericilik aktları layihələrinin hazırlanması, layihələr üzrə rəylərin verilməsi, normativ hüquqi aktların və normativ xarakterli aktların hüquqi ekspertizasının, habelə onların dövlət uçotunun və dövlət qeydiyyatının aparılması üzrə Ədliyyə Nazirliyinin fəaliyyətini digər səlahiyyətli hakimiyyət orqanlarına münasibətdə dəftərinizdə cədvəl formasında tərtibat aparmaqla fərqləndirin.
4. Ədliyyə Nazirliyinin sistemi və strukturunu nor-mativ-hüquqi mənbələrə istinad etməklə, misallarla dəftərinizdə fərqləndirin.
5. Ədliyyə Nazirliyində aparılan hüquqi şəxslərin dövlət qeydiyyatı ilə Vergi orqanlarında aparılan hüquqi şəxslərin dövlət qeydiyyatının oxşar və fərqli xüsusiyyətlərini seminar dəftərinizdə cədvəl tərtib etməklə izah edin.
6. Siyasi partiyaların fəaliyyətinə xitam verilməsi səlahiyyəti aşağıda sadalanan subyektlərdən kimə məxsusdur? Cavabınızı

normativ-hüquqi aktlara istinad etməklə əsaslandırın:

- Azərbaycan Respublikası Prezidentinin Administrasiyası;
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti;
- Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti və Ədliyyə Nazirliyi;
- Məhkəmə orqanları;
- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi.

7. Ədliyyə orqanlarında qulluq keçmə ilə dövlət qulluğunun fərqli və oxşar cəhətlərini sxemdə izah edin.

8. Ədliyyə Nazirliyinin sisteminə daxil olan notariat kontorlarında çalışan notariusların dövlət qulluqçusu statusunda olub-olmamağını normativ mənbələrə istinad etməklə izah edin.

9. Ədliyyə Nazirliyinin qanunyaratma fəaliyyətindəki səlahiyyətlərinə aid beş misal yazın.

**Mövzu üzrə yoxlama sualları**

1. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı və onun təşkilati-hüquqi formaları.
2. Ədliyyə sahəsində idarəetmənin məzmunu və məqsədləri.
3. Ədliyyə sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları.
4. Ədliyyə sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri.
5. Ədliyyə Nazirliyinin anlayışı və fəaliyyətinin hüquqi əsasları.
6. Ədliyyə Nazirliyinin vəzifələri, fəaliyyət istiqamətləri və hüquqları.
7. Ədliyyə Nazirliyinin sistemi və strukturunun fərqi.
8. Ədliyyə nazirinin səlahiyyətləri.
9. Ədliyyə Nazirliyinin Kollegiyası - məşvərətçi orqan kimi.
10. Ədliyyə orqanlarında qulluq keçmənin anlayışı və şərtləri.

**Referat mövzüları**

1. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, məqsədləri və onun təşkilati-hüquqi formaları.
2. Ədliyyə Nazirliyinin anlayışı, vəzifələri, hüquqları, fəaliyyət istiqamətləri və fəaliyyətinin hüquqi əsasları.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 7;12; 26;109).
2. Dərs vəsaiti. "İnzibati hüquq" xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 38-57).
1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında" Əsasnamə. Bakı, 2006 (maddə 1;3).
2. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2006 (maddə 1-3;20).
3. "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı. Bakı, 2006 (maddə 1-2;8).

## Mövzu № 12. Müdafiə sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati-hüquqi formaları.
2. Müdafiə Nazirliyi - müdafiə sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Silahlı Qüvvələrdə xidmət keçmənin anlayışı, hüquqi əsasları və şərtləri.

## Tədris olunan mövzünün qısa məzmunu

Müdafiə sahəsində dövlət idarəetməsi dövlətin siyasi-hüquqi suverenliyinin qarantı kimi. Müdafiə sahəsində dövlət idarəetməsi strateji fəaliyyət kimi.

Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, məqsədi və konstitusiya hüquqi əsasları.

Azərbaycan Respublikasının müdafiəsi və onun təşkili əsasları. Azərbaycan Respublikası müdafiəsinin məqsədi.

Azərbaycan Respublikası hərbi doktrinasının müəyyən etdiyi prinsiplər və əsaslar. Azərbaycan Respublikasının Silahlı Qüvvələri – dövlətin müdafiəsinin əsasını təşkil edən hərbi dövlət qurumu kimi.

Qanunçuluq, nizami ordu, qarışıq komplektləşdirmə, kadr, mərkəzləşdirilmiş və vahid rəhbərlik, yüksək hərbi intizam, daimi döyüş və səfərbərlik hazırlığı, hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təmin olunması - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuğunun və fəaliyyətinin prinsipləri kimi.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növləri. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təşkili formaları.

Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi. Azərbaycan Respublikası hökumətinin Silahlı Qüvvələrin idarəolunmasında rolu.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi - Silahlı Qüvvələrə və yerli hərbi idarəetmə orqanlarına rəhbərlik edən, həmçinin onların inkişafına və müdafiə vəzifələrinin yerinə yetirilməsinin hazırlığına görə tam məsuliyyət daşıyan mərkəzi icra hakimiyyəti orqanı kimi.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin səlahiyyətləri.

Müdafiənin idarəetmə orqanları sistemində hərbi komissarlıqların statusu və səlahiyyətləri.

Müdafiə naziri - müdafiə orqanlarına bilavasitə rəhbərliyi həyata keçirən vəzifəli şəxs kimi. Müdafiə nazirinin və onun müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad olunması proseduras. Müdafiə nazirinin səlahiyyətləri.

Müdafiə Nazirliyinin fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar.

Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları. Azərbaycan Respublikasının müdafiəsi və hərbi xidmət Azərbaycan Respublikası vətəndaşlarının müqəddəs borcu kimi. Alternativ xidmət - həqiqi hərbi xidmət forması kimi.

Mülki şəxslərin Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə vəzifələrə götürülmələri qaydası. Hərbi xidmətə münasibətdə vətəndaşların kateqoriyaları (çağırışaqədər yaşlılar, çağırışçılar, hərbi qulluqçular, hərbi vəzifəlilər, hərbi vəzifəli olmayanlar).

Həqiqi hərbi xidmətin növləri. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi üsullarına görə hərbi xidmətin növləri (Könüllü və çağırış üzrə).

Hərbi xidmətin üstünlüyü. Həqiqi hərbi xidmətə çağırılmış və ya daxil olmuş Azərbaycan Respublikası vətəndaşlarının andı.

Hərbi xidmətin maliyyə və maddi təminatı. Hərbi qulluqçuların və hərbi vəzifəlilərin hərbi rütbələri. Hərbi xidmətin müddətləri. Dinc dövrdə həqiqi hərbi xidmətdə olmağın son yaş hədləri. Hərbi qulluqçuların və hərbi vəzifəlilərin ehtiyata buraxılmaları.

## Əsas anlayış və terminlər

Müdafiə sahəsində dövlət idarəetməsi. Azərbaycan Respublikası hərbi doktrinası.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Müdafiə sahəsində idarəetmənin sosial-siyasi xarakterliliyinə dəftərinizdə izah verin.
2. Müdafiə sahəsində dövlət siyasətinin və tənzimlənməsinin

hər birinə aid beşdən az olmayan misalları dəftərinizdə qeyd edin.

3. Azərbaycan Respublikasının müdafiəsi ilə müdafiə sahəsində dövlət idarəetməsi anlayışlarını tərtib etdiyiniz sxemdə fərqləndirin.

4. Respublikanın müdafiəsi əsasına və təşkilinə beş misal yazmaqla, şərhini verin.

5. Müdafiə sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən müvafiq subyektlərin səlahiy-yətlərini sxem şəklində dəftərinizdə qeyd edin.

6. Respublika müdafiəsinin təşkili elementlərinin hər birinə aid beş misal yazın.

7. Hərbi xidmətin müqəddəs borc və üstünlüyünə dair normativ-hüquqi şərtləri fərqləndirin.

8. Silahlı Qüvvələrin quruculuq və fəaliyyət prinsip-lərinin hər birinə aid beş misal yazın.

9. Hərbi xidmətə münasibətdə vətəndaşların kateqo-riyalara bölünməsinin normativ mənbəyini qeyd etməklə, zəruriliyini izah edin.

**Mövzu üzrə yoxlama sualları:**

1.Müdafiə sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati-hüquqi formaları.

2.Azərbaycan Respublikasının müdafiəsi və onun təşkili əsasları. Azərbaycan Respublikası müdafiəsinin məqsədi.

3.Azərbaycan Respublikası hərbi doktrinasının müəyyən etdiyi prinsiplər və əsaslar.

4.Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin inzibati-hüquqi statusu.

5.Müdafiə Nazirliyi - müdafiə sahəsində dövlət ida-rəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

6.Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növləri. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təşkili formaları.

7.Müdafiənin idarəetmə orqanları sistemində hərbi komissarlıqların statusu və səlahiyyətləri.

8.Silahlı Qüvvələrdə xidmət keçmənin anlayışı, hüquqi əsasları və şərtləri.

9.Mülki şəxslərin Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə vəzifələrə götürülmə qaydası.

10. Hərbi xidmətin maliyyə və maddi təminatı.

**Referat mövzuları**

1. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təşkili formaları.
2. Azərbaycan Respublikasının müdafiəsinin məqsədi və onun təşkili əsasları.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 9; 55, 109).

2. "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, (maddə 1-2; 4-5).

3. Dərs vəsaiti. "İnzibati hüquq" xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 72-82).

1. "Hərbi vəzifə və hərbi xidmət" haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2011 (maddə 1-2;30).

2. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1991 (maddə 1-4).

3. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, (maddə 2; 16;19).

4. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Hərbi doktrinası". Bakı, 2011 (maddə 4;10;13-14).

## Mövzu № 13. Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati-hüquqi formaları.
2. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. "Asan xidmət" Mərkəzlərinin inzibati-hüquqi statusu.

### Tədris olunan mövzünün qısa məzmunu

Dövlət orqanlarının fəaliyyətində vətəndaşlara xidmətlərin göstərilməsi sahəsində yeni üslub və müasir innovasiyaların tətbiq edilməsi - müasir idarəçilik modeli kimi. Sosial innovasiyalar sahəsində idarəetmə vətəndaş məmnunluğunun təmin olunması sahəsində dövlətin təşkiletmə fəaliyyəti kimi. Sosial innovasiyalar sahəsində dövlət idarəetməsinin anlayışı və məqsədi. Sosial innovasiyalar sahəsində dövlət idarəetməsinin prinsipləri və təşkilati-hüquqi formaları. Dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi və elektron xidmətlərə keçidin təşkili - sosial innovasiyalar sahəsində idarəetmənin bir istiqaməti kimi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – sosial innovasiyalar sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri agentliyə bilavasitə rəhbərliyi həyata keçirən vəzifəli şəxs kimi. Agentliyin sədri və onun müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad olunması

proseduru. Agentlik sədrinin səlahiyyətləri.

"ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi və dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əsas fəaliyyət istiqaməti kimi. "ASAN xidmət" mərkəzləri - bir qapı prinsipi əsasında vahid və əlaqələndirilmiş formada müxtəlif dövlət orqanları tərəfindən vətəndaşlara dövlət xidmətlərini göstərən qurum kimi. "ASAN xidmət" mərkəzləri - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturu kimi. "ASAN xidmət" mərkəzlərin fəaliyyətinin təşkili. "ASAN xidmət" mərkəzlərində xidmətlərin istiqamətləri.

### Əsas anlayış və terminlər

Sosial innovasiyalar. Elektron xidmət. Dövlət agentliyi. "Asan xidmət".

### Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

### Yazılı tapşırıqlar:

1. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi müstəqil dövlət hakimiyyət orqanı sayılır? Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

2. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say tərkibini müəyyən edən subyekt kimdir? Cavablarınızı qanunvericilik baxımından əsaslandırın.

3. Terminlərin izahını dəftərinizdə qeyd edib, cavab verməyə hazır olun:

- elektron hökumət;

- innovasiya;
- dövlət idarəetməsi.
- dövlət qulluqçusu;

4. Vətəndaş "A"-nın 16 yaşı tamam olmuşdur. O, şəx-siyyət vəsiqəsi almaq üçün "Asan Xidmət" Mərkəzinə müraciət etmişdir. Lakin onun bu müraciətinə "Asan Xidmət" Mərkəzində baxılmamışdır. Vətəndaş "A"-nın müraciətinə "Asan Xidmət" Mərkəzində baxılmamasına dair qanunvericiliyin nəzərdə tutduğu şərtləri dəftərinizdə qeyd edib, izah etməyə hazır olun.

## Mövzu üzrə yoxlama sualları:

1. Əhaliyə xidmət və sosial innovasiyalar dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
2. Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
3. Azərbaycan Respublikasının Prezidenti - əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
4. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - mərkəzi icra hakimiyyəti orqanı kimi.
5. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyası – məşvərətçi orqan kimi.
6. "Asan xidmət" Mərkəzlərinin strukturu.

## Referat mövzüləri

1. Əhaliyə xidmət və sosial innovasiyalar dövlət idarəetməsinin anlayışı, məzmunu, prinsipləri, əsas məqsədləri və təşkilati - hüquqi formaları.
2. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyası – məşvərətçi orqan kimi.

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 12; 71).

2. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 99-109).

3. “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 68 nömrəli Fərmanı. Bakı, 2012.

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında” Əsasnamə. Bakı, 2012 (maddə 1-2).

## Mövzu № 14. Xarici işlər sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Xarici işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və konstitusiya-hüquqi əsasları.
2. Səfirlik və konsulluqlar xarici işlər sahəsində dövlət idarəetməsini həyata keçirən diplomatik orqanlar kimi.
3. Azərbaycan Respublikasına gəlmək və getməyin inzibati-hüquqi nizamlanması.

### Tədris olunan mövzunun qısa məzmunu:

Xarici işlər sahəsində dövlət idarəetməsi dövlət idarəetməsinin strateji sahəsi kimi. Xarici işlər sahəsində dövlət idarəetməsinin konstitusiya hüquqi əsası.

Xarici işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.

Xarici işlər sahəsində dövlət idarəetməsi - Azərbaycan Respub-

likasının qonşu və xarici ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrinin yaranması və inkişaf etdirilməsi perspektivi kimi.

Xarici işlər sahəsində idarəetmə - dövlət orqanlarının təşkiletmə fəaliyyəti kimi. Xarici işlər sahəsində idarəetmənin əsas məqsədləri.

Azərbaycan Respublikasının başqa dövlətlərlə münasi-bətlərinin qurulmasında rəhbər götürülən və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər.

Azərbaycan Respublikasının xarici fəaliyyətində dünyada sülhün möhkəmlənməsinə xidmət edən diplomatik təminatlar. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri.

Azərbaycan Respublikasının Prezidenti - ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edən səlahiyyətli subyekt kimi.

Dövlətin xarici siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində və xarici siyasətə rəhbərlik edilməsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin xarici siyasətin realizə olunmasında rolu.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi - xarici işlər sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

Səfirlik və konsulluqlar diplomatik təmsilçiliyin əsas təşkilati forması kimi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar. Xarici İşlər Nazirliyinin vəzifələri, hüquqları və fəaliyyət istiqamətləri.

Azərbaycan Respublikasının xarici işlər naziri - Xarici İşlər Nazirliyinə rəhbərlik edən vəzifəli şəxs kimi. Xarici işlər naziri və onun müavinlərinin vəzifəyə təyin və azad olunma proseduras. Azərbaycan Respublikası xarici işlər nazirinin səlahiyyətləri.

Xarici İşlər Nazirliyinin Kollegiyası - məşvərətçi orqan kimi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Attestasiya komissiyası. Xarici işlər sahəsində dövlət idarəetməsini həyata keçi-

rən orqanların sistemi.

Azərbaycan Respublikası vətəndaşının ölkədən getmək və ya ölkəyə gəlmək hüququ. Ölkədən getmək və ya ölkəyə gəlmək üçün müəyyən olunan hüquqi tələblər.

Azərbaycan Respublikası vətəndaşının pasportu - Azərbaycan Respublikasının ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən rəsmi sənəddir. Pasportun tipləri (ümumvətəndaş, xidməti və diplomatik).

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlib və getmələrinə qoyulan tələblər.

**Əsas anlayış və terminlər**

Xarici işlər sahəsində dövlət idarəetməsi. Xarici İşlər Nazirliyinin Kollegiyası. Səfirlik. Konsulluq. Pasport.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

**Yazılı tapşırıqlar:**

1. Azərbaycan Respublikasının qonşu və xarici ölkələrlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrinin yaranması və inkişaf etdirilməsi perspektivinə beş misal yazın.
2. Azərbaycan Respublikası Prezidentinin ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edən ali vəzifəli şəxs kimi səlahiyyətlərini dəftərinizdə sxem şəklində tərtib edin.
3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlib və getmələrinə qoyulan tələbləri müvafiq normativ-hüquqi aktlara istinad etməklə, dəftərinizdə yazın.
4. Ölkədən getmək və ya ölkəyə gəlmək üçün müəy-yən olunan hüquqi tələbləri misal gətirməklə dəftərinizdə qeyd edin.
5. Ümumvətəndaş, xidməti və diplomatik pasportların verilməsi

şərtlərini normativ-hüquqi aktlar əsasında dəftərinizdə izah edin.

6. Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getmək və ölkəyə gəlmək hüququnun məhdudlaşdırılması və dayandırılması halını qanunvericilik baxımından şərh edin.

7. Diplomatik orqanların fəaliyyətinə aid qanunvericiliyə əsaslanmaqla təcrübi beş misal yazın.

8. Xarici ölkələrdə olan misiyyalara başçılıq edən vəzifəli şəxsi qanunvericiliyə əsasən müəyyən etməklə, oxşar vəzifəli şəxsdən fərqləndirin.

9. Səfirlik və Konsulluqları təşkilati vahid olaraq inzibati-hüquqi status baxımından fərqləndirin.

**Mövzu üzrə yoxlama sualları:**

1. Xarici işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
2. Xarici işlər sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
3. Azərbaycan Respublikasının Prezidenti-ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edən səlahiyyətli subyekt kimi.
4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi xarici işlər sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
5. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin səlahiyyətləri.
6. Azərbaycan Respublikasının xarici işlər naziri Xarici İşlər Nazirliyinə rəhbərlik edən vəzifəli şəxs kimi.
7. Xarici İşlər Nazirliyinin Kollegiyası – məşvərətçi orqan kimi.
8. Azərbaycan Respublikasının Konsulluqlarının funksiyaları.
9. Diplomatik xidmət orqanları olan səfirlik və konsulluqların inzibati-hüquqi statusu.
10. Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrin depozitarisi.

**Referat mövzüları**

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi xarici işlər sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

2. Diplomatik xidmət orqanları olan səfirlik və konsulluqların inzibati-hüquqi statusu.

**Mövzu üzrə ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 2; 4; 7-8;11; 95-109).

2. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 1).

1. Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2004-cü il tarixli 16 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında" Əsasnamə. Bakı, 2004 (maddə 1;10).

2. Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 408 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfirliyi haqqında" Əsasnamə. Bakı, 2006 (maddə 1; 12).

3. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsulluğu haqqında" Əsasnamə. Bakı, 2007 (maddə 1; 2).

## Mövzu № 15. Təhsil sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və konstitusiya-hüquqi əsasları.

2. Təhsil Nazirliyi-təhsil sahəsində dövlət idarəetməsini bila-

vasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

3. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası - təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurum kimi.

**Tədris olunan mövzunun qısa məzmunu**

Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateji əhəmiyyətli fəaliyyət sahəsi kimi. Təhsil sahəsində dövlət siyasəti. Təhsil hüququ vətəndaşların əsas konstitusion hüquqları kimi.

Dövlətin təhsil siyasəti və onun prinsipləri. Azərbaycan Respublikasının təhsil qanunvericiliyi. Təhsil qanunvericiliyinin vəzifələri.

Fasiləsiz təhsil sistemi siyasəti. Azərbaycan Respubli-kasında həyata keçirilən təhsil proqramları. Təhsilin formaları.

Təhsil sahəsində dövlət idarəetməsi - qanunvericiliklə səlahiyyət verilmiş dövlət orqanlarının fəaliyyəti kimi. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və konstitusiya hüquqi əsasları. Təhsil sahəsində dövlət idarəe-tməsinin təşkilati-hüquqi formaları.

Təhsil strategiyasının müəyyən edilməsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri. Azərbaycan Respub-likası hökuməti, Təhsil Nazirliyi, habelə yerli təhsil orqanları təhsil sistemini idarə edən başlıca subyektlər kimi.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi - təhsil sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi. Təhsil Nazirliyinin fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar.

Təhsil Nazirliyinin Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları ilə, habelə beynəlxalq və ictimai təşkilatlarla qarşılıqlı fəaliyyəti.

Təhsil Nazirliyinin qanunvericiliklə nəzərdə tutulan vəzifə və hüquqları. Təhsil Nazirliyinin fəaliyyət istiqamətləri.

Azərbaycan Respublikasının təhsil naziri - Təhsil Nazirliyinin fəaliyyətinə rəhbərlik edən vəzifəli şəxs kimi. Azərbaycan Respublikasının təhsil nazirinin səlahiyyətləri. Azərbaycan Respublikasının təhsil naziri və onun müavinlərinin vəzifəyə təyin və azad

olunma prosedurası.

Təhsil Nazirliyinin Kollegiyası - məşvərətçi orqan kimi. Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibinin müəyyənləş-dirilməsi prosedurası.

Azərbaycan Respublikasının Prezidenti nəzdində fəaliyyət göstərən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası - müasir kompyuter texnologiyalarından istifadə etməklə tələbə qəbulunu aparan mərkəzi icra hakimiyyəti orqanı kimi. Komissiyanın fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktlar.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qanun-vericilikdə nəzərdə tutulan vəzifə və funksiyaları.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Komissiyaya həvalə olunmuş vəzifələrin həyata keçirilməsinə şəxsən məsuliyyət daşıyan vəzifəli şəxs kimi.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin birbaşa tabeçiliyində olan dövlət ali təhsil-elm müəssisəsi kimi.

Polis Akademiyasında tədrisin formaları. Akademiyanın qarşısında duran əsas vəzifələr.

Kafedralar Akademiyanın tədris-metodik, tərbiyə və elmi struktur bölməsi kimi.

Fakültə, kurs, kursant və dinləyicilərin tədris qrupu Akademiyanın tədris-sıra bölmələri kimi. Tədris məşğələlərinin əsas növləri.

**Əsas anlayış və terminlər**

Təhsil. Təhsil strategiyası. Təhsil sahəsində dövlət idarəetməsi. Dövlət imtahan mərkəzi. Dövlət imtahan mərkəzi Şurası

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

**Yazılı tapşırıqlar:**

1. 14 yaşlı vətəndaş «A»nın valideyni övladının təhsilini davam etdirməsi üçün yeni yaşayış yeri üzrə orta məktəbin rəhbərliyinə müraciət etmişdir. Müraciətə cavab olaraq bildirilmişdir ki, müvafiq siniflərdə şagirdlərin sayı çoxdur və təhsil ilinin yarısından çox vaxt keçmişdir. Həmin səbəblərdən onun övladı həmin məktəbə götürülə bilməz.

Sizin fikrinizcə vətəndaşın müraciətinə verilən cavab əsaslıdırmı? Cavabınızı normativ-hüquqi mənbələrə istinad etməklə, əsaslandırın.

2. Təhsilin pillələri və səviyyələrini sxemdə fərqlən-dirməklə, dəftərinizdə sadalayın.

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının səlahiyyətlərini tərtib etdiyiniz cədvəldə fərqləndirin.

4. AR DİN-in Polis Akademiyasının statusunu dəftərinizdə qeyd etməklə, hüquqi cəhətdən izah edin.

5. «Təhsil», «akademiya», «adyunktura», «attestasiya», «akkreditasiya», «kampus», «bakalavr», «magistr», «distant təhsil», «innovasiya», «formal təhsil», «lisenziya», «nostrifikasiya», «rezidentura», «təhsil krediti», «institut» və «eksternat təhsil» kimi sözlərin izahını yazın.

6. Təhsilin məzmunu və təşkilini tərtib etdiyiniz cədvəldə fərqləndirin.

7. Təhsil müəssisəsinin muxtariyyəti və özəl təhsil müəssisələrinin inzibati-hüquqi statusunu qanunvericilik baxımından fərqləndirin.

8. Təhsil proqramının mahiyyətini təcrübi cəhətdən izah edin və ona aid beş misal yazın. Verdiyiniz izahda digər dövlətlərin təcrübəsinə istinad edin.

9. İlk peşə-ixtisas təhsili ilə orta ixtisas təhsilini tərtib etdiyiniz sxemdə qanunvericilik baxımından fərqləndirin.

## Mövzu üzrə yoxlama sualları

1. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
2. Təhsil sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
3. Azərbaycan Respublikasının Prezidenti təhsil siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
4. Azərbaycan Respublikası Təhsil Nazirliyi-təhsil sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
5. Azərbaycan Respublikasının təhsil naziri Təhsil Nazirliyinə rəhbərlik edən vəzifəli şəxs kimi.
6. Təhsil Nazirliyinin Kollegiyası-məşvərətçi orqan kimi.
7. Azərbaycan Respublikası TQDK-nın inzibati-hüquqi statusu.
8. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri-Komissiyaya həvalə olunmuş vəzifələrin həyata keçirilməsinə şəxsən məsuliyyət daşıyan vəzifəli şəxs kimi.
9. Təhsilin pillələri və səviyyələri.
10. Azərbaycan Respublikası vətəndaşının təhsil almaq hüququ.

## Referat mövzüları

1. Təhsil sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu, prinsipləri, əsas məqsədləri və təşkilati - hüquqi formaları.
2. Azərbaycan Respublikası TQDK-nın inzibati-hüquqi statusu.

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 42; 109).
2. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 149-165).
3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 2009 (maddə 1;3).
4. Azərbaycan Respublikası Prezidentinin 1 mart 2005-ci il

tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında" Əsasnamə. Bakı, 2005 (maddə 1;10).

5. Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi" (maddə 1;4).

## Mövzu № 16. Vergi sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Vergi sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və konstitusiya-hüquqi əsasları.
2. Vergilər Nazirliyi - vergi sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Vergi orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

### Tədris olunan mövzunun qısa məzmunu

Vergi sahəsində dövlət idarəetməsi - sosial idarəetmənin növlərindən biri kimi. Vergi sahəsində dövlət idarəetməsi - dövlət büdcəsinə vergilərin və digər daxilolmaların yığılmasını təmin edən səlahiyyətli icra hakimiyyəti orqanının (orqanlarının) fəaliyyəti kimi.

Vergi sahəsində dövlət idarəetməsinin anlayışı və təşkilati-hüquqi formaları.

Vergilər - dövlət büdcəsinin formalaşmasında mühüm rola malik ödəniş forması kimi. Azərbaycan Respublikasında vergi sistemi:

- dövlət vergiləri;
- muxtar respublika vergiləri;
- yerli vergilər (bələdiyyə vergiləri).

Vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təmi-

natı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətindən dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz pul ödənişi kimi.

Vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları.

Vergilərin tam və vaxtında yığılmasının təmin edilməsi forması olan vergi nəzarətinin anlayışı və onu həyata keçirən subyektlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi respublikada vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi, yığılması və s. qaydaları müəyyən edən normativ-hüquqi akt kimi. Qanunvericiliklə vergilərin müəyyən edilməsinə yol verilməyən hallar. Vergi ödəyicisinin vergi uçotuna alınması prosedurası.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi - dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən mərkəzi icra hakimiyyəti orqanı kimi. Vergilər Nazirliyinin fəaliyyətinin hüquqi əsasları. Azərbaycan Respublikasında dövlət vergi orqanlarının sistemi.

Vergi orqanlarının hüquq-mühafizə fəaliyyəti.

Dövlət gömrük orqanlarının vergilərin tutulması sahəsindəki fəaliyyəti. Vergilər Nazirliyinin vəzifələri, hüquqları və fəaliyyət istiqamətləri.

Vergilər Nazirliyinin fəaliyyətinə rəhbərlik edən vergilər nazirinin və onun müavinlərinin vəzifəyə təyin olunma və vəzifədən azad olunması. Azərbaycan Respublikası vergilər nazirinin səlahiyyətləri.

Vergilər Nazirliyinin Kollegiyası - məşvərətçi orqan kimi. Nazirliyin kollegiyasının sayı və şəxsi tərkibinin müəyyənləşdirilməsi prosedurası.

Vergilər Nazirliyinin strukturu - təşkilati vahid kimi.

Vergi orqanlarında xidmət - vergi orqanlarının funksiya və məqsədlərini öz peşəkar fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növü

kimi.

Vergi orqanlarında xidmət haqqında qanunvericilik.

Vergi orqanlarının vəzifəli şəxsləri. Vergi orqanlarına xidmətə qəbulun şərtləri. Vergi orqanlarına xidmətə qəbul edilən şəxslər üçün qanunvericiliklə müəyyən edilən sınaq müddəti. Vergi orqanlarında xidmətə qəbul zamanı sınaq müddəti tətbiq olunmayan şəxslər.

Vergi orqanlarına xidmətə qəbul olunan vətəndaşlara və vergi orqanlarının vəzifəli şəxslərinə verilən xüsusi rütbələr.

**Əsas anlayış və terminlər**

Vergi. Vergilər. Vergi orqanlarında xidmət.

**Tapşırıq və məsələlər**

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

**Yazılı tapşırıqlar:**

1. Ərazi Vergilər İdarəsindən hüquqi şəxs yarat-madan sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi «A»-nın ünvanına daxil olan bildirişə əsasən, «A» 1200 (min iki yüz) manat cərimə olunmuşdur. «A» sahibkarlıq fəaliyyətində heç bir qayda pozmadığına əmindir. O, cərimə olunması barədə çıxarılmış qərardan hansı səlahiyyətli orqana və hansı qaydada şikayət edə bilər? Cavabınızı qanunvericilik baxımından əsaslandırın.
2. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün tələb olunan sənədlərin siyahısını sadalayın. Cavabınızı qanunvericilik baxımından əsaslandırın.
3. Hər bir dövlət vergilərinə aid beş misal yazın.
4. Vergilərin müəyyən edilməsi və əsaslandırılmasının izahını verin. Cavabınızda təcrübi misalların olması mütləqdir.
5. Sxem tərtib etməklə vergi ödəyicisi və vergi agentini fərq-

ləndirin.

6. Ərazi polis orqanına daxil olan məlumata əsasən, vətəndaş «D» mağazasında mənşəyi məlum olmayan istehlak mallarının alqı-satqısı ilə məşğuldur. O, habelə dövriyyəni gizlətmək məqsədilə axşam saat 20:00-dan sonra mağazasındakı nəzarət-kassa aparatını söndürür.

Tapşırıq:

- daxil olan məlumatı qiymətləndirin;
- məlumata dair hansı hərəkətlər edilməlidir;
- qəbul olunmalı qərarları qanunvericilik baxımından əsaslandırın.

7. Bakı şəhərində fəaliyyət göstərən «T» şirkətinin Xaçmaz rayonunda filialının açılması zərurəti yaranmışdır. Bunun üçün lazım olan sənədləri və müraciət olunacaq təşkilatı müəyyən edin. Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

8. Ədliyyə Nazirliyinin Vergilər Nazirliyi ilə formaca oxşar, lakin məzmunu (predmeti) baxımından fərqli olan dövlət fəaliyyətini müəyyən edib, sxemdə fərqləndirin.

9. Aşağıda sadalanan fəaliyyət istiqamətləri vergi orqanları sisteminə daxil olan hansı struktura (strukturlara) məxsusdur:

- Müvafiq sahədə vergi siyasətinin həyata keçirilməsini təmin edir;
- Müvafiq sahənin inkişafını təmin edir;
- Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

a) Vergilər Nazirliyi;
b) Vergi Departamenti;
c) Ərazi Vergilər İdarəsi;
d) Vergilər Nazirliyi və Ərazi Vergilər İdarəsi;
e) Daxili Audit Baş İdarəsi.

## Mövzu üzrə yoxlama sualları:

1. Vergi sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
2. Vergi sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas

məqsədləri.

3. Azərbaycan Respublikasının Prezidenti - vergi siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.

4. Azərbaycan Respublikası Vergilər Nazirliyi - vergi sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

5. Azərbaycan Respublikasının vergi naziri - Vergilər Nazirliyinə rəhbərlik edən vəzifəli şəxs kimi.

6. Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu və sistemi.

7. Azərbaycan Respublikası Vergilər Nazirliyinin səlahiyyətləri.

8. Vergilər Nazirliyinin Kollegiyası - məşvərətçi orqan kimi.

9. Vergi orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

10. Vergi orqanlarında xidmətə qəbul zamanı sınaq müddəti tətbiq olunmayan şəxslər.

## Referat mövzüları

1. Vergi sahəsində dövlət idarəetməsi sosial idarəetmənin növü kimi.

2. Azərbaycan Respublikası Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanı kimi.

## Mövzu üzrə ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun - 2009 (maddə 19; 55;73).

2. Dərs vəsaiti. "İnzibati hüquq" xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 166-184).

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2007 (maddə 2;4).

2. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001-ci il tarixli Fərmanı. Bakı, 2001 (mad-

də 1;5).

3. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyun tarixli 1654 nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu". Bakı, 2011 (maddə 1).

4. Azərbaycan Respublikasının 12 iyun 2001-ci il Qanunu ilə təsdiq edilən "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamə. Bakı, 2001 (maddə 1-2).

## Mövzu № 17. Gömrük sahəsində dövlət idarəetməsi

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

### Əsas suallar

1. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və konstitusiya-hüquqi əsasları.
2. Gömrük Komitəsi - gömrük sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
3. Gömrük orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

### Tədris olunan mövzünün qısa məzmunu

Gömrük siyasətinin strateji əhəmiyyəti, mahiyyəti və məqsədi. Azərbaycan Respublikasında gömrük işi və onun təşkili.

Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi - gömrük siyasətinin məqsədi kimi.

Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı və məzmunu. Gömrük sahəsində dövlət idarəetməsinin təşkilati-hüquqi formaları.

Azərbaycan Respublikasının gömrük ərazisi. Sərbəst gömrük zonaları və sərbəst anbarların əraziləri. Gömrük rejimlərinin növləri.

Azərbaycan Respublikası Prezidentinin gömrük sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsindəki səla-

hiyyətləri.

Qanunvericilik və icra hakimiyyəti orqanları gömrük sahəsində ümumi dövlət siyasətini müəyyən edən səlahiyyətli subyekt kimi.

Azərbaycan Respublikasının Gömrük Komitəsi - gömrük sahəsində dövlət idarəetməsini bilavasitə həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti. Azərbaycan Respublikası xarici ticarətinin gömrük və xüsusi gömrük statistikası. Xarici sərmayələrin cəlb edilməsi və ixracın stimullaşdırılması.

Gömrük Komitəsinin fəaliyyətinin hüquqi əsasları. Azərbaycan Respublikasında gömrük orqanlarının sistemi.

Dövlət gömrük orqanlarının vergilərin tutulması sahəsindəki fəaliyyəti. Gömrük Komitəsinin vəzifələri, hüquqları və fəaliyyət istiqamətləri.

Gömrük Komitəsinin sədri və onun müavinlərinin vəzifəyə təyin olunma və vəzifədən azad olunması. Azərbaycan Respublikası Gömrük Komitəsi sədrinin səlahiyyətləri.

Gömrük Komitəsinin kollegiyası - məşvərətçi orqan kimi. Gömrük Komitəsinin kollegiyası tərkibinin müəyyənləşdirilməsi proseduraşı.

Gömrük Komitəsinin strukturu təşkilati vahid kimi.

Gömrük orqanlarında xidmət - gömrük orqanlarının funksiya və məqsədlərini öz peşəkar fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növü kimi.

Gömrük orqanlarında xidmət keçmə haqqında qanunvericilik.

Gömrük orqanlarının vəzifəli şəxsləri. Gömrük orqanlarına xidmətə qəbulun şərtləri. Gömrük orqanlarına xidmətə qəbul edilən şəxslər üçün qanunvericiliklə müəyyən edilən sınaq müddəti. Gömrük orqanları əməkdaşlarının sosial müavinətləri. Gömrük orqanlarına xidmətə qəbul olunan vətəndaşlara və gömrük orqanlarının vəzifəli şəxslərinə verilən xüsusi rütbələr.

## Əsas anlayış və terminlər

Gömrük Komitəsi. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı Gömrük orqanlarında xidmət keçmə. Sərbəst gömrük zonaları.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Azərbaycan Respublikasının gömrük ərazisi dedikdə nə başa düşülür?. Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

2. Deklarant, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, iqtisadi siyasət tədbirləri, gömrük ödənişləri, gömrük brokeri, kvota, kontrafakt mallar, gömrük ərazisində emal, gömrük nəzarəti altında emal, sərbəst gömrük zonası sözlərinin qanunvericilik baxımından izahını verin.

2. Bakı şəhərində yerləşən mağazalarda gömrük məntəqələrindən kənar keçirilmiş (qaçaqmalçılıq yolu ilə) tütün və spirtli içkilərin satışı ilə əlaqədar kütləvi-informasiya vasitələrində tez-tez məlumatlar verilir. Hadisəni qanunvericilik baxımından qiymətləndirin və edilməli hərəkətləri sadalayın.

3. Sərbəst anbar sahibinin vəzifələrini qanunvericilik baxımından izah edin.

4. Dövlət Gömrük Komitəsi vergi siyasətinin həyata keçirilməsində iştirak edirmi? Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

5. Gömrük ərazisindən kənarda malların emalı gömrük rejimindən hansı hallarda istifadəni istisna edir. Cavabınızı əsaslandırın.

6. Gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün tələb olunan icazənin alınması prosedurasını qanunvericilik baxımından

şərh edin.

7. Dövlət Gömrük Komitəsinin sədri tərəfindən aşağıda sadalananlardan hansı qəbul oluna bilər:

- göstəriş, sərəncam, qətnamə;
- əmr, qərardad, akt;
- qərar, akt, sərəncam;
- göstəriş, əmr, təlimat
- təlimat, qətnamə, sərəncam.

8. Daxili İşlər Nazirliyi ilə Dövlət Gömrük Komitəsinin qarşılıqlı fəaliyyətinə aid beş misal yazın. Cavablarınızın sahəvi qanunvericilik aktları əsasında formalaşdırılması məqsədəmüvafiqdir.

## Mövzu üzrə yoxlama sualları

1. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
2. Gömrük sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
3. Azərbaycan Respublikasının Prezidenti gömrük siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
4. Azərbaycan Respublikası Gömrük Komitəsi - gömrük sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
5. Gömrük rejiminin növləri.
6. Dövlət Gömrük Komitəsinin sədri - Gömrük Komitəsinə rəhbərlik edən vəzifəli şəxs kimi.
7. Azərbaycan Respublikası Gömrük Komitəsinin strukturu və sistemi.
8. Azərbaycan Respublikası Gömrük Komitəsinin səlahiyyətləri.
9. Gömrük Komitəsinin Kollegiyası – məşvərətçi orqan kimi.
10. Gömrük orqanlarında dövlət qulluğunun anlayışı, hüquqi əsasları və şərtləri.

## Referat mövzuları

1. Gömrük komitəsinin fəaliyyətinin hüquqi əsasları.

2. Gömrük komitəsinin kollegiyası: məşvərətçi orqan kimi.

**Mövzu üzrə ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun - 2009 (maddə 55;73).
2. Dərs vəsaiti. "İnzibati hüquq" xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 185-212).
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2016 (maddə 1-3).
4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə və komitənin strukturu" Bakı, 2012 (Əlavə I; Əlavə II).
5. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamə. Bakı, 1999 (maddə 1;8).
6. Y. Kəlbiyev. Vergi nəzarətinin təşkilinin nəzəri və praktiki aspektləri. "Vergi xəbərləri".-2011.-№2.-S.37-62.

# VI BÖLMƏ. İnzibati hüquqda qanunçuluq və məsuliyyət

## Mövzu № 18. Dövlət idarəetməsində qanunçuluq və intizam

Vaxt - 4 saat:
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar**

1. Dövlət idarəetməsində qanunçuluğun və intizamın anlayışı və mahiyyəti.
2. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin üsulları və onların xarakteristikası.
3. DİO-nun fəaliyyətində qanunçuluq və intizam.

**Tədris olunan mövzunun qısa məzmunu**

Demokratik və vətəndaş cəmiyyətin mövcudluq, həmçinin inkişaf etməsinin vacib atributu olan qanunçuluğun və intizamın anlayışı və mahiyyəti.

Qanunçuluq və intizam Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunan ali dəyərlərin mühafizəsinin hüquqi təminatı kimi.

Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsinin məzmunu və əhəmiyyəti.

Dövlət idarəetməsində qanunçuluq rejimi. Dövlət idarəetməsində əsas prinsip kimi qanunçuluq.

İdarəetmə subyektlərinin təşkilatçılıq fəaliyyətlərində qanunçuluğun tələbləri.

Qanunçuluq - hüquqi vəziyyət kimi.

İdarəetmə subyektlərinin hərəkətlərinin yüksək səviyyədə təşkil edilməsi mexanizmi kimi intizamın xüsusiy-yətləri.

İntizamın və qanunçuluğun nisbəti. Dövlət idarəetməsində qanunçuluğun və intizamın təmin edilməsində dövlət intizamının ro-

lu və mahiyyəti.

Dövlətin vəzifə və funksiyalarının təcrübi cəhətdən həyata keçirilməsi kimi dövlət intizamının anlayışı və xarakterik əlamətləri. Dövlət intizamının növləri. Hərbi intizam dövlət intizamının sahəvi növü kimi.

İnzibati mülahizənin anlayışı və növləri.

Qanunçuluqla inzibati mülahizənin nisbəti. İnzibati mülahizənin dövlət idarəetməsində qanunçuluğa və intizama nail olunmasındakı yeri.

Qanunçuluq rejimi – hüquqi dövlətin vacib amillərindən biri kimi. Qanunçuluğun təmin edilməsindəki təminatlar.

Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi fəaliyyəti. Qanunçuluğun təmin edilməsi üsulları olan yoxlamanın, nəzarətin və şikayət vermənin anlayışı və tətbiqi xüsusiyyətləri.

Dövlət yoxlamasının məzmun və məqsədinə görə növləri (ümumi və xüsusi yoxlama). Dövlət yoxlamasının digər növləri.

Daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində qanunçuluğun və intizamın təmin edilməsi dövlət idarəetməsinin əsas prinsiplərindən biri kimi. Daxili işlər orqanlarının fəaliyyətində yüksək intizamın zəruriliyi.

Daxili işlər orqanlarının fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsinin üsulları (yoxlama, nəzarət, şikayət vermə). Polisin inzibati nəzarəti.

### Əsas anlayış və terminlər

Qanunçuluq və intizam. Hərbi intizam. Qanunçuluq. Qanunçuluq rejimi. Dövlət yoxlaması.

### Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrən-mək.
2. Seminar məşğələsinə çıxarılmış nəzəri suallara cavablar hazırlamaq.
3. Yazılı tapşırıqlar həll etmək.

### Yazılı tapşırıqlar:

1. «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» 09 avqust 1994-cü il tarixli və «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanlarını təhlil edib, hüquq-mühafizə orqanlarına bilavasitə aid olan hissələrini konspektləşdirin.

2. Qanunçuluq və intizamının anlayışlarını verməklə, sxemdə fərqləndirin.

3. Qüvvədə olan İnzibati Xətalar, Cinayət Məcəlləsinə və Polis haqqında qanuna istinad etməklə, qanunçuluq prinsipini izah edin. Adları çəkilən qanunvericilik aktlarına əsasən qanunçuluq prinsiplərinə aid beş misal yazın.

4. Polis əməkdaşı tərəfindən odlu silahın istifadə edilməsi şərtlərini qanunvericilik baxımından sadalayın. Sadalayacağınız şərtlər içərisində zəruri müdafiə və son zərurət vəziyyətində polis əməkdaşı tərəfindən odlu silahdan istifadəyə aid situativ iki misal yazın.

5. İdarəetmə subyektlərinin təşkilatçılıq fəaliyyətlərində qanunçuluğun tələblərinə aid beş misal yazın.

6. İntizamın və dövlət intizamının nisbətini izah edin. Cavabınızı qanunçuluq baxımından izah edin.

7. Dövlət intizamının sahəvi növlərinə aid beş misal yazın. Cavablarınızdakı misalların hüquq-mühafizə orqanlarına aid olmaması tələb olunur.

8. DİO-da intizam nizamnaməsinin normativ anlayışını təhlil edin. Cavabınızı qanunvericilik baxımından əsaslandırın.

9. Yoxlama, nəzarət, şikayət vermə anlayışlarını izah etməklə, hər birinə aid iki misal yazın.

## Mövzu üzrə yoxlama sualları

1. Dövlət idarəetməsində qanunçuluğun və dövlət intizamın anlayışı, məzmunu və əhəmiyyəti.

2. Dövlət idarəetməsində dövlət intizamının rolu, mahiyyəti

və növləri.

3. İnzibati mülahizənin anlayışı və növləri.
4. Qanunçuluq rejimi - hüquqi dövlətin vacib amillərindən biri kimi.
5. Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi fəaliyyəti.
6. Qanunçuluğun təmin edilməsi üsulları.
7. Qanunçuluğun təmin edilməsindəki təminatlar.
8. Daxili işlər orqanlarının fəaliyyətində qanunçuluğun və intizamın təmin edilməsi üsulları.
9. Dövlət yoxlamasının məzmun və məqsədinə görə növləri.
10. Polisin inzibati nəzarəti.

## Referat mövzüları

1. Dövlət idarəetməsində qanunçuluq rejimi.
2. Polisin inzibati nəzarəti.

## Mövzu üzrə ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 79;80).
2. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh. 213-238).
3. “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun-1999 (maddə 1-26;5).
4. “Polis haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun-2016 (maddə 21-26;33).
5. Dövlət idarəetməsində qanunçuluq və intizam / R. Nəcəfquliyev//Qanun. - 2005. - № 7. - S. 19-21.

## Mövzu № 19. Dövlət idarəetməsində intizam və maddi məsuliyyət

Vaxt - 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat

**Əsas suallar:**

1. İntizam məcburetməsinin anlayışı və onun əlamətləri.
2. İnzibati hüquqda intizam məsuliyyəti və intizam xətası.
3. İnzibati hüquqda maddi məsuliyyət.

**Tədris olunan mövzunun qısa məzmunu:**

Dövlət idarəetmə fəaliyyətinin növü kimi intizam məcburetməsinin anlayışı, mahiyyəti və əsas xüsusiyyətləri. İntizam məcburetməsi icraedici-sərəncamverici fəaliyyət prosesində tətbiq edilən məcburetmə tədbirləri kimi.

İntizam məcburetməsinin tətbiq edildiyi subyektlər, onun tətbiq edilməsinin əsası və qaydası.

İnzibati hüquqda intizam məsuliyyətinin anlayışı və əsas xüsusiyyətləri. İntizam məsuliyyətinin tətbiq edilməsinin normativ hüquqi əsasları.

İntizam xətasının anlayışı və hüquqi xarakteristikası. İntizam xətasının inzibati xətadan və digər hüquqpozmalardan fərqi.

İntizam tənbehlərinin sistemi və növləri. İntizam tənbehlərinin tətbiq edilməsinin əsasları və qaydası.

Polis əməkdaşına intizam məsuliyyətinin cəlb edilməsinin əsası və qaydası. Polis əməkdaşına tətbiq edilən intizam tənbehləri.

İntizam icraatının anlayışı, mərhələləri (xidməti araşdırma, icraat materiallarına baxılması, işin yenidən baxılması, verilmiş intizam tənbehinin icrası) və onların xarakteristikası.

İnzibati hüquqda maddi məsuliyyətin anlayışı və onun hüquqi xarakteristikası.

Maddi məsuliyyətin subyektləri və hüquqi əsasları. İnzibati hüquqda maddi məsuliyyətin növləri, onların tətbiq edilməsinin əsasları və qaydası. İntizam və maddi məsuliyyətin inzibati və başqa dövlət məcburetmə (ictimai təsir) tədbirlərindən fərqi.

**Əsas anlayış və terminlər:**

İntizam məcburetməsi. İnzibati hüquqda intizam məsuliyyəti. İntizam xətası. İnzibati hüquqda maddi məsuliyyət.

**Tapşırıq və məsələlər:**

1. Ərazi polis orqanının əməkdaşı barəsində şiddətli töhmət, xidmətdən xaric olunma kimi intizam tənbehlərini bu səlahiyyətli subyektlərdən hansı tətbiq edir?

- xidmət rəisi;
- polis orqanı rəis müavini;
- polis orqanı rəisi;
- polis orqanı rəisi, baş idarə rəisi;
- müvafiq rəis heyəti yığıncağının qərarı ilə birbaşa rəisi, nazir;
- nazir, nazir müavini;
- kollegiyanın sədri.

2. İntizam hakimiyyəti subyektlərini sadalayın. Cavabınızı normativ hüquqi akta əsasən əsaslandırın və formalaşdırın.

**Mövzu üzrə yoxlama sualları:**

1. İntizam məcburetməsinin anlayışı və onun əlamətləriş
2. İntizam məcburetməsinin tətbiq edildiyi subyektlər.
3. İntizam məcburetməsinin tətbiq edilməsi əsası və qaydası.
4. İntizam məsuliyyətinin anlayışı və əsas xüsusiyyətləri.
5. İntizam xətasının anlayışı və hüquqi xarakteristikası.
6. İntizam tənbehlərinin sistemi və növləri.
7. İntizam tənbehlərinin tətbiq edilməsinin əsasları və qaydası.
8. Polis əməkdaşına tətbiq edilən intizam tənbehləri.
9. İnzibati hüquqda maddi məsuliyyətin anlayışı və onun hüquqi xarakteristikası.

**Referat mövzuları:**

1. İntizam məcburetməsinin tətbiq edildiyi subyektlər.
2. İntizam tənbehlərinin tətbiq edilməsinin əsasları və qaydası.

**Mövzu üzrə ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 79;80).
2. Dərs vəsaiti. "İnzibati hüquq" xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh.239-255).
3. Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə. Bakı, 2016 (maddə 33;108).
4. DİN-in 08.04.2005-ci il tarixli 130 nömrəli əmri ilə təsdiq edilmiş "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi". Bakı, 2005 (maddə 1-4).
5. DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri ilə təsdiq edilmiş "Daxili işlər orqanlarının İntizam Nizamnaməsi". Bakı, 2009 (maddə 1;14).

## Mövzu № 20. Dövlət idarəetməsində inzibati məsuliyyət

Vaxt - 2 saat:
Mühazirə - 2 saat

**Əsas suallar**

1. Azərbaycan Respublikasının İnzibati xətalar qanunvericiliyi.
2. İnzibati məsuliyyətin anlayışı, əlamətləri və prinsipləri.
3. İnzibati xətanın anlayışı və tərkibi

**Tədris olunan mövzunun qısa məzmunu**

İnzibati deliktologiya hüququnun anlayışı. İnzibati hüquqi deliktologiyada hüququn tənzimləmə predmeti. İnzibati delikt münasibətlərinin elementləri (subyekt, obyekt və məzmunu).

İnzibati delikt münasibətlərinin subyektləri və onların əlamətləri (inzibati delikt hüquq qabiliyyəti və inzibati delikt fəaliyyəti).

İnzibati deliktologiyanın funksiyaları (tənzimləyici, xəbərdaredici, mühafizəedici, tərbiyəedici).

İnzibati delikt qanunu. İnzibati delikt normasının anlayışı və quruluşu (hipoteza, dispozisiya və sanksiya).

İnzibati deliktin hipoteza, dispozisiya və sanksiyasının növləri və onların xarakteristikası. İnzibati delikt normalarının şərhi (məzmun, sistemli, siyasi-tarixi, rəsmi və qeyri rəsmi).

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi. Azərbaycan Respublikası inzibati xətalar qanunvericiliyinin vəzifələri və onların məzmunu.

Azərbaycan Respublikası inzibati xətalar qanun-vericiliyinin prinsiplərinin növləri (insan və vətəndaş hüquqlarına və azadlıqların hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik, inzibati xətaların qarşısının alınması və s.) və xarakteristikası.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin qüvvəsi.

İnzibati məsuliyyətin anlayışı və əsas əlamətləri. İnzibati məsuliyyətin prinsipləri və onların xarakteristikası. İnzibati məsuliyyətin digər məsuliyyət növlərindən fərqi.

İnzibati xəta - inzibati məsuliyyətin əsası kimi. İnzibati xətanın anlayışı və hüquqi əlamətləri (hüquqazidd olması, təqsirli sayılması, əməlin inzibati məsuliyyətə səbəb olması, əməlin İXM ilə qorunan ictimai münasibətlərə qəsd etməsi) və onların məzmunu.

İnzibati xəta tərkibinin anlayışı, onun tərkib elementləri (obyekt, obyektiv tərəf, subyekt, subyektiv tərəf) və onların xarakteristikası.

İnzibati xətanın digər hüquqpozmalardan fərqi.

İnzibati xətalara qarşı mübarizədə DİO-nun rolu və bu fəaliyyət zamanı qanunçuluğun təmin edilməsi.

## Əsas anlayışlar və terminlər

İnzibati deliktologiya. İnzibati məsuliyyət. İnzibati delikt. İnzibati xəta.İnzibati xətanın tərkibi.

## Tapşırıq və məsələlər

1. Mövzu üzrə tövsiyə olunmuş materialları öyrənmək.
2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəllə-sində 12-ci və Cinayət Məcəlləsinin 14-cü maddələrində nəzərdə tutulmuş anlayışları təhlil etmək və onların fərqli xüsusiyyətlərini öyrənmək.
3. Yazılı tapşırıqlar həll etmək.

## Yazılı tapşırıqlar:

1. Vətəndaş Məmmədov xırda xuliqanlıq törətdiyinə görə rayon polis şöbəsinə gətirilmişdir. Sizin fikrinizcə ona hansı inzibati tənbehlər tətbiq edilə bilər.

Əgər o polis əməkdaşı, hərbi qulluqçu, Milli Məclisin deputatı, rayon (şəhər) məhkəməsinin hakimi, xarici ölkənin səfiri və ya əcnəbi olsa sizin cavabınız dəyişərmi? Cavabınızı konkret normativ hüquqi aktlara istinad etməklə əsaslandırın.

2. İnzibati hüququn subyekti, inzibati məsuliyyətin subyekti və inzibati xətanın subyekti anlayışlarını təhlil edib müstəqil tərtib etdiyiniz cədvəldə onların oxşar və fərqləndirici xüsusiyyətləri qeyd edin.

3. Yerli icra hakimiyyəti başçısı tərəfindən rayon ərazisində ictimai yerlərdə siqaret çəkmək qadağan edilmişdir. Bu qərara əsasən o, vətəndaş «A»nı inzibati cərimə etmişdir.

Sizin fikrinizcə çıxarılmış qərar düzgündürmü?

4. Vətəndaş «D» onun barəsində tətbiq edilmiş inzibati cərimə haqqında rayon məhkəməsinə şikayətlə müraciət etmişdir. «D» şikayətində bildirmişdir ki, işin icraatını aparan vəzifəli şəxs onu öz təqsirsizliyini sübut etməyə məc-bur etmişdir.

Tapşırıq üzrə öz fikrinizi bildirin.

5. Sizin fikrinizcə «inzibati xəta»nın anlayışı «inzibati məsuliyyət»in anlayışından nə ilə fərqlənir.

6. «İnzibati xəta»nın «intizam xətası»ndan fərqini müs-təqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

8. İnzibati məsuliyyətə cəlb etmə müddətlərini müstəqil tərtib etdiyiniz cədvəldə qeyd edin.

**Mövzu üzrə yoxlama sualları**

1. İnzibati deliktologiya hüququnun anlayışı.
2. İnzibati hüquqi deliktologiya hüququnun tənzimləmə predmeti.
3. İnzibati delikt münasibətlərinin elementləri (subyekt, obyekt və məzmunu).
4. İnzibati delikt münasibətlərin subyektləri və onların əlamətləri (inzibati delikt hüquq qabiliyyəti və inzibati delikt fəaliyyəti).
5. İnzibati deliktologiya hüququnun funksiyaları (tənzimləyici, xəbərdaredici, mühafizəedici, tərbiyəedici).
6. İnzibati delikt normasının anlayışı və quruluşu (hipoteza, dispozisiya və sanksiya); onların növləri və xarak-teristikası.
7. Azərbaycan Respublikasının inzibati xətalar qanun-vericiliyi.
8. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri və onların məzmunu.
9. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin prinsiplərinin növləri və onların xarak-teristikası.
10. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin qüvvəsi.
11. İnzibati məsuliyyətin anlayışı və əsas əlamətləri.
12. İnzibati məsuliyyətin prinsipləri və onların xarak-teristikası.
13. İnzibati məsuliyyətin digər məsuliyyət növlərindən fərqi.
14. İnzibati xəta - inzibati məsuliyyətin əsası kimi.
15. İnzibati xətanın anlayışı və hüquqi əlamətləri; onların məzmunu.
16. İnzibati xətanın tərkibi anlayışı, onun tərkib elementləri.

17. İnzibati xətanın, cinayətdən və intizam xətasından fərqi.

18. İnzibati xətalara qarşı mübarizədə DİO-nun rolu və bu işdə qanunçuluğun təmin edilməsi.

**Referat mövzüları**

1. İnzibati delikt münasibətlərin subyektləri.
2. Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi.

**Mövzu üzrə ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun-2009 (maddə 28;29;31-33;79-80).
2. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016 (səh.256-280).
3. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi”. Bakı, Qanun-2016.
4. “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2007-ci il tarixli 634 nömrəli Fərmanı (maddə 2).

## Referatın yazılması ilə bağlı tövsiyyələr

**Referat** elmi işin qısa şəkildə yazılı və ya şifahi təqdimatıdır.

İlk öncə referatın strukturu barəsində qeyd etmək istərdik. Refera titul vərəqəsindən, mündəricatdan, referatın giriş hissəsindən, referatın əsas hissəsi olan bir necə fəsil və onların tərkib hissəsi olan paraqraflardan ibarət məzmundan; nəticə hissəsindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

**Titul vərəqi** – referatın üz qabığıdır. Titul vərəqində; təhsil müəssisənin tam adı, (yuxarı hissədə); referatın mövzusu (orta hissədə); referatın müəllifin adı, soyadı, atasının adı, hüquqi vəziyyəti (ortadan aşağı sağ tərəfdə); referatın yazılmasına və tərtibatına rəhbərlik edən şəxsin adı, soyadı, atasının adı, hüquqi vəziyyəti ( ortadan aşağı sağ tərəfdə); referatın yazılması yeri və tarixi (tam aşağı hissədə).

**Mündəricat** – referatın tərkib və əsas hissəsidir. Mündəricatın birinci hissəsi girişdir.

Girişdə referatın müəllifi tərəfindən seçdiyi mövzunun məqsədi, aktuallığı, (referatın məqsədi, qarşıda duran vəzifələr, tədqiqatın obyekti və predmeti, tədqiqatın məlumat bazası, həmçinin qısa şəkildə referatın quruluşu xarakterizə edilir) nəticələr və ədəbiyyatlar barəsində məlumatlar qeyd olunur.

**Giriş hissəsində** 1) seçilmiş mövzunun əsaslandırılması, onun vacibliyi, aktuallığı; 2) təhqiqatın məqsəd və vəzifələri; 3) tədqiqatın obyekt və predmeti; 4) tədqiqatın metodları; 5) mövzunun nəzəri əsaslandırılması qeyd olunur; 6) hansı ədəbiyyatdan istifadə olunması bildirilir; 7) elmi işin strukturu izah olunur.

Əsasən giriş hissəsində ilk iki bənd acıqlanır; bu mövzunun aktuallığı referatın məqsəd və vəzifələridir.

**Aktuallığı ifadələrlə izah etmək olar:** Məsələn, Aktual mövzulardan biri ...., indiki zamanda...., Böyük əhəmiyyətə malik məsələlər....., Əsasən vacib olan məsələlər...., Problemlər sırasında

əlaqəli olan...., Son zamanda tədqiqatçıların xüsusi diqqətinə məruz qalan məsələlər...., Bununla bağlı....., Böyük əhəmiyyətə malik olan problemlər...., Problemə olan maraq ..... əsaslanıb....

**Sadəcə əsərin məqsədi seçdiyiniz mövzudur, vəzifələr isə bölmə** və paraqrafların, adlarıdır. Kömək məqsədilə təqdin olunan ifadələr: Referatın məqsədi...tədqiqatıdır (öyrənilməsi, baxılması, araşdırılması).

Təqdim olunan referatın məqsədi.... ibarətdir; Referatın vəzifələrinə daxildir...., Əsas vəzifələr...., Bununla bağlı məqsədi (vəzifələri) bunlardan ibarətdir.

Nəticə ardıcılıq olaraq məntiqə söykənərək referatın müəllifi tərəfindən yekunda gəldiyi əsaslandırılmış nəticələr qeyd olunur. Nəticə, referatın giriş hissəsində elmi əsərin məqsədinin nail olmasını və qarşıda duran vəzifələrin həllini xarakterizə etməlidir.

Referatın əsas hissəsi referatın, həlli prosesində qarşısında duran məqsədə və vəzifələrə catmaq üçün materialı daxil etməlidir.

Eytiyac olduqda referatın əsas hissəsinin mğzmununu hissələrə, bölmələrə, yarımbölmələr, əsas hissənin vacibliyi bölmələr arasında məntiqli əlaqə də elmi işin məzmun baxımdan materialın, əsərin müstəqil izahı nəticələrin əsaslandırılmasıdır. Həmşinin referatın əsas hissəsində mütləq qaydada istəfadə edilmiş mənbələrə istinadlar göztərilməlidir. Referatın məzmunu üçüncü şəxs tərəfindən aparılmalıdır.

## Təxmini imtahan sualları

1. Dövlət hakimiyyətinin mahiyyəti və strukturu.
2. Dövlət idarəetməsinin mahiyyəti.
3. İcraedici fəaliyyətin hüquqi məzmunu.
4. İnzibati hüququn predmetini təşkil edən idarəetmə xarakterli ictimai münasibətlərin növləri.
5. İnzibati hüququn məqsədləri hansılardır.
6. İnzibati hüquq Azərbaycan Respublikasının hüququ sisteminin hansı sahələri ilə əlaqəsi mövcuddur.
7. İnzibati hüquq normaların dispozisiyasının anlayışı və növləri.
8. İntizam məsuliyyətinin anlayışı və əsas xüsusiyyətləri.
9. İntizam xətasının anlayışı və hüquqi xarakteristikası.
10. İntizam tənbehlərinin sistemi və növləri.
11. İnzibati hüquq normaların sanksiyasının anlayışı və növləri.
12. İnzibati hüquq normaların təsnifatı və növləri.
13. İnzibati hüququn fərdi subyektlərinin anlayışı və növləri.
14. Vətəndaşların inzibati-hüquqi statusu anlayışı və onun elementləri.
15. Xüsusi inzibati-hüquqi statusa malik olan şəxslər.
16. Azərbaycan Respublikası Prezidentinin icra hakimiyyəti sahəsində səlahiyyətləri.
17. Azərbaycan Respublikası Prezidentinin hüquq yaradıcılıq səlahiyyətləri.
18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibi və səlahiyyətləri.
19. Dövlət qulluqçusu anlayışı və onların növləri.
20. Vəzifəli şəxslərin və hakimiyyət nümayəndələrinin oxşar və fərqli əlamətləri.
21. Dövlət qulluqçularının inzibati-hüquqi statusu.
22. Hüquqtətbiqetmə fəaliyyətinin anlayışı və onun həyata keçirilmə formaları.
23. Hüquq əhəmiyyətli hərəkətlərin həyata keçirilməsi icra haki-

miyyətinin realizəsinin forması kimi.

24. İcra hakimiyyətinin realizəsinin hüquqi formasının məqsədyönlüyünə görə növləri.
25. Normativ-hüquqi aktların anlayışı.
26. İdarəetmənin hüquqi aktlarının anlayışı və əhəmiyyəti.
27. İdarəetmə aktlarının qanunlardan fərqi.
28. Daxili işlər sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları.
29. Daxili işlər sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri.
30. DİN-in anlayışı və fəaliyyətinin hüquqi əsasları.
31. Ədliyyə sahəsində dövlət idarəetməsinin anlayışı və onun təşkilati-hüquqi formaları.
32. Ədliyyə sahəsində idarəetmənin məzmunu və məqsədləri.
33. Ədliyyə sahəsində idarəetmənin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları.
34. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun növləri. Azərbaycan Respublikası Silahlı qüvvələrinin təşkili formaları.
35. Vergi sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
36. Azərbaycan Respublikasının Prezidenti - vergi siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
37. Azərbaycan Respublikası Vergilər Nazirliyi - vergi sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
38. Müdafiənin idarəetmə orqanları sistemində hərbi komissarlıqların statusu və səlahiyyətləri.
39. Silahlı Qüvvələrdə xidmət keçmənin anlayışı, hüquqi əsasları və şərtləri.
40. Əhaliyə xidmət və sosial innovasiyalar dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
41. Əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət ida-

rəetməsinin prinsipləri və əsas məqsədləri.

42. Azərbaycan Respublikasının Prezidenti - əhaliyə xidmət və sosial innovasiyalar sahəsində dövlət siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
43. Xarici işlər sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
44. Xarici işlər sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
45. Azərbaycan Respublikasının Prezidenti-ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edən səlahiyyətli subyekt kimi.
46. Azərbaycan Respublikası Təhsil Nazirliyi-təhsil sahəsində dövlət idarəetməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi.
47. Azərbaycan Respublikasının təhsil naziri Təhsil Nazirliyinə rəhbərlik edən vəzifəli şəxs kimi.
48. Təhsil Nazirliyinin Kollegiyası-məşvərətçi orqan kimi.
49. Gömrük sahəsində dövlət idarəetməsinin anlayışı, məzmunu və təşkilati - hüquqi formaları.
50. Gömrük sahəsində dövlət idarəetməsinin prinsipləri və əsas məqsədləri.
51. Azərbaycan Respublikasının Prezidenti gömrük siyasətinin həyata keçirilməsində səlahiyyətli subyekt kimi.
52. Dövlət idarəetməsində qanunçuluğun təmin edilməsi fəaliyyəti.
53. Qanunçuluğun təmin edilməsi üsulları.
54. Qanunçuluğun təmin edilməsindəki təminatlar.
55. İnzibati deliktologiya hüququnun anlayışı.
56. İnzibati hüquqi deliktologiya hüququnun tənzimləmə predmeti.
57. İnzibati delikt münasibətlərinin elementləri (subyekt, obyekt və məzmunu).

## Mövzu üzrə tövsiyyə edilən ədəbiyyat siyahısı

### Əsas ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2016.
2. Naxçıvan Muxtar Respublikasınının Konstitusiyası. Bakı. Qanunu 2009.
3. V.Abışov. A.İsmayılov, R.Nəcəfquliyev. İnzibati hüquq. Dərs vəsaiti. Ümumi hissə. "MBM" mətbəəsi. Bakı 2014. Səh.368.
4. Dr.Fərhad Mehtiyev.İnzibati hüquq (Administrative law). Ali təhsil müəssisələri üçün dərs vəsaiti.Bakı, 2010, 511 səh.
5. "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. Qanun 2016.
6. Dərs vəsaiti. Hüquq nəzəriyyəsi. C.Süleymanov, B.Nəsirov, M.Xalıqov, İ.Əliyev. Bakı 2015 (səh.298-302).
7. Dərslik. "İnzibati hüquq". Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008 səh.5-14).
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı 2016.
9. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli Fərmanı. Bakı 2016.
10. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, II cild səh. 862. Qanun – 2001.
11. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, 2016.
12. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbay-

can Respublikası Prezidentinin Fərmanı, 30 iyun 2001-ci il. Polis haqqında sənədlər toplusu. Bakı, Qanun – 2015.
13. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”.
14. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının 21 iyul 2000-ci il tarixli Qanunu.
15. “Azərbaycan Respublikasının Cinayət Məcəlləsi”. Bakı, Qanun - 2016.
16. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu. Bakı, Qanun – 2016.
17. “DİN-in normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi qaydalarına dair Təlimat”ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası DİN-in 10 avqust 2012-ci il tarixli Q18-001-12 nömrəli Qərarı .
18. “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun – 2015 .
19. “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” Əsasnamə, Bakı, Qanun-2014.
20. “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”. Bakı, Qanun-2014.
21. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında” Əsasnamə. Bakı, 2006.
22. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2006 .
23. “Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı. Bakı, 2006.
24. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1991.
25. “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respub-

likasının Qanunu. Bakı, .
26. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Hərbi doktrinası”. Bakı, 2011.
27. “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 68 nömrəli Fərmanı. Bakı, 2012/
28. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında” Əsasnamə. Bakı, 2012.
29. Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2004-cü il tarixli 16 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında” Əsasnamə. Bakı, 2004.
30. Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 408 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səfirliyi haqqında” Əsasnamə. Bakı, 2006.
31. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 fevral tarixli 532 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsulluğu haqqında” Əsasnamə. Bakı, 2007.
32. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 2009.
33. Azərbaycan Respublikası Prezidentinin 1 mart 2005-ci il tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında” Əsasnamə. Bakı, 2005.
34. Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikası-

nın Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi” .
35. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2007.
36. “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001-ci il tarixli Fərmanı. Bakı, 2001.
37. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyun tarixli 1654 nömrəli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturu”. Bakı, 2011.
38. Azərbaycan Respublikasının 12 iyun 2001-ci il Qanunu ilə təsdiq edilən “Dövlət vergi orqanlarında xidmət haqqında” Əsasnamə. Bakı, 2001.
39. Dərs vəsaiti. “İnzibati hüquq” xüsusi hissə. V. Abışov, A. İsmayılov, R. Nəcəfquliyev. Bakı - 2016.
40. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2016.
41. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə və komitənin strukturu” Bakı, 2012 (Əlavə I; Əlavə II).
42. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamə. Bakı, 1999.
43. Y. Kəlbiyev. Vergi nəzarətinin təşkilinin nəzəri və praktiki aspektləri. “Vergi xəbərləri”.-2011.-№2.-S.37-62.
44. “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun-1999.
45. Dövlət idarəetməsində qanunçuluq və intizam / R. Nəcəfquliyev//Qanun. - 2005. - № 7. - S. 19-21.
46. Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respubli-

kasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə. Bakı, 2016 .

47. DİN-in 08.04.2005-ci il tarixli 130 nömrəli əmri ilə təsdiq edilmiş "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi". Bakı, 2005.
48. DİN-in 16.06.2009-cu il tarixli 330 nömrəli əmri ilə təsdiq edilmiş "Daxili işlər orqanlarının İntizam Nizamnaməsi". Bakı, 2009 .

## Əlavə tövsiyyə edilən ədəbiyyat siyahısı

1. Практикум по административному праву: учебное пособие / М. В. Ожиганова. Екатеринбург: Изд-во Рос. гос. проф.-пед. ун-та, 2014. 111 с.
2. Административное право. Практикум : учебно-практич. пособие для бакалавров / под общ. ред. Н. М. Конина, Е. И. Маториной. — М. : Издательство Юрайт, 2014. — 446 с. — Серия : Бакалавр. Базовый курс.
3. Административное право. Практикум для студентов квалификации (степени) бакалавр очной, очно-заочной и заочной форм обучения. – М.: Московский государственный юридический университет имени О.Е. Кутафина (МГЮА), 2015. Авторский коллектив: Кандидат юридических наук, доцент Петров М.П., кандидат юридических наук, доцент Поляков М.М., кандидат юридических наук, доцент Стандзонь Л.В. Ответственный редактор: доктор юридических наук, профессор Л.Л. Попов.
4. «Административное право: практикум. О.Н.Ковалева, И.И.Мах, И.Н.Мах; М-во внутренних дел Республики Беларусь учреждения образования «Могилевский институт МВД Республики Беларусь. Могилев: Могилев институт МВД, 2016-88 с .

# Əlavələr (çıxarışlar):

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir.

1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.

2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklərlə.

2009-cu il martın 18-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə.

2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək;

- ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

# BİRİNCİ BÖLMƏ
# ÜMUMİ MÜDDƏALAR

## I fəsil
## XALQ HAKİMİYYƏTİ

Maddə 1. Hakimiyyətin mənbəyi

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

Maddə 2. Xalqın suverenliyi

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir.

Maddə 3. Ümumxalq səsverməsi-referendum yolu ilə həll edilən məsələlər

I. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

II. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər:

1) Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

1) vergilər və dövlət büdcəsi;

2) amnistiya və əfv etmə;

3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

Maddə 4. Xalqı təmsil etmək hüququ

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Maddə 5. Xalqın vahidliyi

I. Azərbaycan xalqı vahiddir.

II. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.

Maddə 6. Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi

I. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

## II fəsil
## DÖVLƏTİN ƏSASLARI

Maddə 7. Azərbaycan dövləti

I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

II. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Maddə 8. Azərbaycan dövlətinin başçısı

I. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.

II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

IV. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Maddə 9. Silahlı Qüvvələr

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.[1]

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır.

Maddə 10. Beynəlxalq münasibətlərin prinsipləri

Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Maddə 11. Ərazi

I. Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

II. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

III. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Maddə 12. Dövlətin ali məqsədi

I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.[2]

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Maddə 13. Mülkiyyət

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və

dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

Maddə 14. Təbii ehtiyatlar

Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

Maddə 15. İqtisadi inkişaf və dövlət

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.[3]

Maddə 16. Sosial inkişaf və dövlət

I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

II. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Maddə 17. Ailə, uşaqlar və dövlət[4]

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

Maddə 18. Din və dövlət

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.[5]

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Maddə 19. Pul vahidi

I. Azərbaycan Respublikasının pul vahidi manatdır.

II. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. Azərbaycan Respublikasının Mərkəzi Bankı

dövlətin müstəsna mülkiyyətindədir.[6]

III. Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.

Maddə 20. Dövlətin borclarına qoyulan məhdudiyyətlər

Azərbaycan dövlətinə qarşı qiyama və dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.

Maddə 21. Dövlət dili

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Maddə 22. Paytaxt

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KON STİTUSİYASI

Naxçıvamn muxtariyyatınm əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanm Azərbaycanm tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvamn ərazi hüdudları dəqiqləşdirilmişdir. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonar Naxçıvan diyarı, 1924-cü il fevralm 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə

üçüncü Konstitusiyası qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasmı Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində — referendumda qəbul edilən Konstitusiyası təşkil edir. Naxçıvan Muxtar Respublikasımn Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən təntənəli surətdə aşağıdakı niyyətlər bəyan edilir:

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəramnı yaxşılaşdırmaq;

Naxçıvan Muxtar Respublikasmda Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq. Yuxarıda göstərilən ülvi niyyətlərlə bu Konstitusiya qəbul edilir.

## I f ə s i 1
## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. Naxçıvan Muxtar Respublikasınm statusu

I. Naxçıvan Muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.

II. Naxçıvan Muxtar Respublikasmın statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir.

M a d d ə 2 . Muxtariyyatın əsasları

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

II. Naxçıvan Muxtar Respublikasmın mənafeləri ilə bağlı olan bütün digər məsələlər Naxçıvan Muxtar Respublikası tərəfindən həll edilir, o şərtlə ki, bu məsələlərin həlli Azərbaycan Respublikasının dövlət orqanlarınm səlahiyyətlərinə aid edilməyib.

III. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır.

M a d d ə 3 . Hakimiyyətlərin bölünməsi

I. Naxçıvan Muxtar Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasmda təşkil edilir: qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir;

icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasımn məhkəmələri

həyata keçirir.

II. Bu Konstitusiyanm müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərirlər.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasınm Konstitusiyası, qanunları və bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikası məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

M a d d ə 4 . Dövlət hakimiyyətinin mənimsənilməsinə yol verilməməsi

I. Naxçıvan Muxtar Respublikasmda vətəndaşlarm heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

M a d d ə 5 . Naxçıvan Muxtar Respublikasınm ali vəzifəli şəxsi

I. Naxçıvan Muxtar Respublikasınm ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

II. Bu Konstitusiya ilə müəyyən olunan hallarda və qaydada Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi həm qanunvericilik, həm icra hakimiyyəti sahələrində aşağıdakı səlahiyyətləri həyata keçirir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkiləri təyin edir;

2) Naxçıvan Muxtar Respublikası dövlət hakimiyyət orqanlarınm qarşılıqlı fəaliyyətini təmin edir;

3) Naxçıvan Muxtar Respublikasının qanunlarım imzalayır və dərc edir;

4) Naxçıvan Muxtar Respublikasmın dövlət və ictimai siyasi həyatmm mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefası haqqmda qərar qəbul edir;

6) Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarını yaradır;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları arasmdakı dövrdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin fəaliyyətini təmin edir;

8) Naxçıvan Muxtar Respublikasım xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;

9) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasınm İqtisad Məhkəməsi, Naxçxvan Muxtar Respublikası ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair təkliflər verir;

10) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdimat verir;

11) Naxçıvan Muxtar Respublikası prokurorunun, rayon, şəhər və ixtisaslaşdırılmış prokurorlarınm vəzifəyə təyin və vəzifədən azad olunmasma dair təkliflər verir;

12) Naxçıvan Muxtar Respublikasmda Azərbaycan Respublikasının hərbi doktrinasmı həyata keçirir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşm iş birləşmələrinin komandan heyətləri haqqmda təklif Verir;

13) vətəndaşlıq məsələlərinə dair təklif verir;

14) əfv edilmə məsələlərinə dair təklif verir;

15) Təhlükəsizlik Şurasmı təsis edir və ona rəhbərlik edir;

16) ümumi və qismən səfərbərliyin həyata keçirilməsini təmin edir;

17) vətəndaşlarm müddətli hərbi xidmətə çağırılmasmın və müddətli hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçuların sosial müdafiəsinin təmin olunması tədbirlərinin həyata keçirilməsinə yardım edir;

18) Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilmiş fövqəladə və hərbi vəziyyət rejiminin həyata keçirilməsinə yardım edir, Naxçıvan Muxtar Respublikasmda fövqəladə və hərbi vəziyyət elan olunması məsələsinə dair təklif verir;

19) fəxri adları təsis edir və fəxri adlarla təltif edir;

20) Azərbaycan Respublikasımn Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri icra qaydasmda həll edir.

III. Naxçıvan Muxtar Respublikasımn ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasımn mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasımn Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasımn qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasımn beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasmı təmsil edir.

IV. Naxçıvan Muxtar Respublikasınm ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasmın dövlətçiliyinin varisliyini təmin edir.

V. Bu Konstitusiya ilə onun səlahiyyətinə aid edilən məsələlər üzrə Naxçıvan Muxtar Respublikasınm ali vəzifəli şəxsi fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasınm döv-

lət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

M a d d ə 7 . Əsas insan və vətəndaş hüquqlanmn və azadlıqlarmm təmin edilməsi Azərbaycan Respublikasının Konstitusiyasmda təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarınm qorunması, gözlənilməsi və Azərbaycan Respublikası vətəndaşlarınm vəzifələrinin icrasmı təmin etmək Naxçıvan Muxtar Respublikasımn dövlət orqanlarımn əsas vəzifəsidir.

M a d d ə 8 . Naxçıvan Muxtar Respublikasmda vətəndaşlarm səsvermə hüququ Naxçıvan Muxtar Respublikasımn ərazisində daimi yaşayan Azərbaycan Respublikasımn vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur. Hərbi qulluqçularm, hakimlərin, dövlət məmurlarımn, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

M a d d ə 9 . Paytaxt Naxçıvan Muxtar Respublikasınm paytaxtı Naxçıvan şəhəridir.

M a d d ə 1 0 . Naxçıvan muxtar dövlətinin rəmzləri Naxçıvan Muxtar Respublikasının dövlət rəmzl’əri Azərbaycan Respublikasmın dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının dövlət himnidir.

## Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu

Maddə 1. Müraciət etmək hüququ

1.1. Azərbaycan Respublikası vətəndaşlarının dövlət və bələdiyyə orqanlarına, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və büdcə təşkilatlarına və ya onların vəzifəli şəxslərinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır.

1.2. Vətəndaşlar müraciət etmək hüququnu sərbəst və könüllü həyata keçirirlər. Vətəndaşın öz müraciət hüququnu həyata keçirməsi digər şəxslərin hüquqlarını və azadlıqlarını pozmamalıdır.

1.3. İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır.

Maddə 2. Vətəndaşların müraciətləri haqqında qanunvericilik

Vətəndaşların müraciətləri haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

Maddə 3. Əsas anlayışlar

3.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

3.0.1. müraciət edən şəxs - fiziki və ya hüquqi şəxs;

3.0.2. müraciət - müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayət;

3.0.3. təklif - qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm, təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət;

3.0.4. ərizə - hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.5. şikayət - pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.6. müraciətə baxan subyekt - fiziki və hüquqi şəxslərin müraciətlərinə baxmaq və qərar qəbul etmək səlahiyyəti olan dövlət və bələdiyyə orqanları, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları;

3.0.7. müraciətə baxan subyektin canlı yayımlanan teleradio proqramındakı nümayəndəsi - müraciətə baxan subyektin razılığı ilə onu həmin proqramda təmsil edən vəzifəli şəxs;

3.0.8. müraciətə baxan subyektin vəzifəli şəxsi - müraciətə baxan subyektin rəhbəri, dövlət orqanında inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri olan şəxs, digər müraciətə baxan subyektlərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər;

3.0.9. şifahi müraciət - vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət;

3.0.10. telefon müraciət xidməti - müraciət edənin şifahi müraciətinin qəbulunu, texniki vasitələrin köməyi ilə qeydiyyatını və cavablandırılmasını həyata

keçirmək üçün yaradılmış rabitə xidməti;

3.0.11. yazılı müraciət - kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciət;

3.0.12. elektron müraciət - müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət;

3.0.13. kollektiv müraciət - eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər;

3.0.14. təkrar müraciət - müraciətin bu Qanunla müəyyən edilmiş baxılması müddəti ötdükdə və ya həmin müraciət cavablandırıldıqda eyni şəxsin eyni məsələ ilə bağlı eyni müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə göndərdiyi növbəti müraciət;

3.0.15. anonim müraciət - müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət.

Maddə 4. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri

4.0. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri aşağıdakılardır:

4.0.1. qanunçuluq;

4.0.2. vətəndaşların müraciət hüququnun sərbəst və könüllü həyata keçirməsinə şərait yaradılması;

4.0.3. müraciətlərə dair tələblərin vahidliyi;

4.0.4. fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması;

4.0.5. müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi;

4.0.6. müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi;

4.0.7. vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılması.

Maddə 5. Bu Qanunun tətbiq dairəsi

5.1. Azərbaycan Respublikasının Konstitusiya qanunlarında, başqa qanunlarda, onların əsasında qəbul edilmiş digər normativ hüquqi aktlarda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları vətəndaşların bütün müraciətlərinə şamil edilir.

5.2. Bu Qanunun müddəaları vətəndaşların məhkəmə icraatı və ya inzibati

icraat çərçivəsində etdikləri müraciətlərə şamil edilmir.

5.3. Hərbi qulluqçuların xidmətlə əlaqədar bilavasitə rəislərinə və ya böyük rəislərinə müraciət etmə və onlara baxılması qaydası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi və İntizam Nizamnaməsi ilə tənzimlənir.

5.4. Referendumun və seçkilərin bilavasitə təşkili və keçirilməsi ilə əlaqədar müraciətlərin edilməsi və onlara baxılması qaydası Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

5.5. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) insan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi və bu şikayətlərə baxılması qaydası "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir.

5.6. İnformasiya əldə edilməsi üçün sorğunun verilməsi və informasiya əldə edilməsi haqqında sorğuya baxılması qaydası "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.7. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılması qaydası "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.8. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərə, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslərə və fərdi sahibkarlara müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydası bu Qanunla tənzimlənir.

5.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə şamil edilir.

Maddə 6. Vətəndaşların müraciətlərinə dair tələblər

6.1. Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər.

6.2. Yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, yaxud bu Qanunun 6.7-ci maddəsində göstərilən qaydada göndərilir.

6.3. Yazılı müraciətdə aşağıdakılar göstərilir:

6.3.1. müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla);

6.3.2. müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı;

6.3.3. müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı.

6.4. Müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, bu Qanunun 6.3-cü maddəsinin tələblərinə cavab vermədikdə anonim sayılır. Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır.

6.5. Kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır.

6.6. Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalıdır.

6.7. Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir. Müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və ya poçt ünvanı göstərilməlidir.

6.8. Elektron sənəd formasında göndərilən müraciət elektron imza ilə təsdiq olunmalıdır.

6.9. Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir.

Maddə 7. Vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası

7.1. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri bu Qanunla müəyyən edilmiş qaydada verilən yazılı müraciətləri mütləq qəbul etməli, qeydiyyata almalı və onlara baxılmasını təmin etməlidirlər. Bu Qanunun tələblərinə uyğun olaraq verilən müraciəti qəbul etməkdən imtina qadağandır.

7.2. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır və müraciətə baxan subyektin rəhbəri tərəfindən təmin edilir.

7.3. Müraciətə baxan subyektlərin müraciətlərin qəbul edilməsi və cavablandırılması işini habelə elektron formada həyata keçirmək hüququ vardır.

7.4. Vətəndaşın müraciətinə onun daxilolma tarixi və qeydiyyat nömrəsi qoyulur. Müraciət edən şəxsin tələbi ilə ona müraciətin qeydiyyat nömrəsi, tarixi və onun icraçısına dair məlumat bildirilir.

7.5. Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa (kollektiv müraciətlərdə - müraciət edən şəxslərdən birinə) əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Müraciətə dövlət dilində cavab verilir.

7.6. Elektron müraciətlərə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron

qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə müraciət edənin elektron ünvanı göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilir.

7.7. Vətəndaşın müraciətinə baxılmasına dair cavab məktubunda müraciətdə göstərilən məsələlərin araşdırılması və görülən tədbirlər və ya həmin məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edilməli subyekt göstərilməlidir.

7.8. Müraciətin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda, müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilir.

7.9. Müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciətdə göstərilən məsələnin həlli ilə əlaqədar əlavə məlumatların öyrənilməsi üçün aidiyyəti üzrə sorğu göndərdikdə həmin sorğuya yeddi iş günündən gec olmayaraq cavab verilməlidir.

7.10. Müraciətə baxan subyektlər və ya onların vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli onların səlahiyyətinə aid olmadıqda, müraciəti üç iş günündən gec olmayaraq aidiyyəti üzrə göndərir və müraciət edənə bu barədə məlumat verir. Müraciətdə göstərilən məsələ bir neçə müraciətə baxan subyektin səlahiyyətinə aid edildikdə müraciətin surəti üç iş günündən gec olmayaraq həmin subyektlərə göndərilir.

7.11. Yuxarı dövlət orqanı vətəndaşların müraciətlərini baxılmaq üçün aidiyyəti dövlət və bələdiyyə orqanlarına və ya digər müraciətə baxan subyektə göndərdikdə həmin müraciətə baxılmanın nəticəsi barədə yuxarı dövlət orqanının tələbi ilə müraciətə baxan subyektin rəhbəri tərəfindən ona məlumat verilməlidir.

7.12. Vətəndaşın müraciətində göstərilən məsələlər “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilir.

7.13. Vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır.

7.14. Bu Qanunun 7.13-cü maddəsi ilə müəyyən edilmiş qadağaya görə vətəndaşın müraciətini aidiyyəti üzrə göndərmək mümkün olmadıqda vətəndaşa qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunur.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2015-ci il.**

**Dövlət qulluğu haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

I fəsil
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Qanunun məqsədi

Bu Qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir.

Maddə 2. Dövlət qulluğu

2.1. Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

2.2. Bu Qanun icra, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir.[1]

2.3. Prokurorluq, ədliyyə, milli təhlükəsizlik, müdafiə, fövqəladə hallar, dövlət təhlükəsizliyi xidməti, xarici kəşfiyyat xidməti, sərhəd xidməti, səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidməti, xüsusi dövlət mühafizə xidməti, miqrasiya xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər və feldyeger rabitəsi orqanlarında, Azərbaycan Respublikasının Mərkəzi Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi bu Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları, həmçinin bu Qanunun 15-1-ci maddəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının başqa qanunları ilə tənzimlənir və bu orqanlarda qulluq dövlət qulluğunun xüsusi növüdür.[2]

Bu orqanların (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) aparatlarında çalışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan işçilər – xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) bu Qanun şamil edilir.[3]

2.4. Bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanun Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müa-

vinlərinə, katibinə və üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə hərbi qulluqçulara şamil olunmur.[4]

2.5. Bu Qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Bu işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.[5]

2.6. Bu Qanunun 2.3-cü maddəsində göstərilən orqanlarda dövlət qulluğunda çalışan şəxslərə müvafiq qanunlarla nəzərdə tutulmuş təminatlar "dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlardan az olduqda, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlar şamil edilir.[6]

Maddə 3. Dövlət qulluğunun əsas vəzifələri

3.1. Dövlət qulluğunun əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;

3.0.2. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi;

3.0.3. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi.

Maddə 4. Dövlət qulluğunun prinsipləri

4.1. Dövlət qulluğu aşağıdakı prinsiplərə əsaslanır:

4.1.1. qanunçuluq;

4.1.2. Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;

4.1.3. dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi;

4.1.4. yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi;

4.1.5. bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;

4.1.6. dövlət qulluğuna qəbulun şəffaflığı;[7]

4.1.7. vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi;[8]

4.1.8. vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi;

4.1.9. irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə dəxli olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi;[9]

4.1.10. dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası;[10]

4.1.11. dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi;

4.1.12. qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması.

4.2. Dövlət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturları yaradılmır.

4.3. Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur.[11]

Maddə 5. Dövlət qulluğunu idarəetmə orqanları

5.1. Azərbaycan Respublikasında bu Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası həyata keçirir (bundan sonra—Şura). Şura 18 nəfər üzvdən ibarətdir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir. Şuranın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən edilir.

5.2. Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirirlər.

5.3. Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

Maddə 6. Dövlət qulluğu haqqında qanunvericilik

Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiy-

yətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir.

## II fəsil
## DÖVLƏT ORQANLARI

Maddə 7. Dövlət orqanı anlayışı

7.1. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu dövlət orqanıdır.[12]

7.2. Dövlət orqanının bölməsi bu orqanın qanunvericilik aktlarında nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş qaydada təsis olunan elə struktur hissəsidir ki, özünə həvalə edilmiş funksiyalar çərçivəsində həmin orqanın səlahiyyətlərinin bir hissəsini həyata keçirir.

Maddə 8. Dövlət orqanlarının təsnifatı[13]

8.1. Dövlət orqanları onların statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, regional və yerli səviyyədə) nəzərə alınmaqla aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır:

8.1.1. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlar və icra səlahiyyətlərini həyata keçirən orqan,, Azərbaycan Respublikasının Milli Məclisi, Ali konstitusiya ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən işlər üzrə ali məhkəmə orqanı olan Azərbaycan Respublikasının Ali Məhkəməsi (Ali kateqoriya dövlət orqanları);[14]

8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən dövlət orqanları – Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Hesablama Palatası, Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı (1-ci kateqoriya dövlət orqanları);[15]

8.1.3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları – Naxçıvan Muxtar Respublikasının Ali

Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, müvafiq icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurasının Aparatı (2-ci kateqoriya dövlət orqanları);[16]

8.1.4. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatı, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı, ağır cinayətlər məhkəmələri, inzibati-iqtisadi məhkəmələr, hərbi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Bakı şəhər prokurorluğu (3-cü kateqoriya dövlət orqanları);[17]

8.1.5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, rayon (şəhər) məhkəmələri, rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqları (4-cü kateqoriya dövlət orqanları);[18]

8.1.6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanlar və inzibati ərazi dairələri üzrə nümayəndəlikləri (5-ci kateqoriya dövlət orqanları). [19]

8.2. Dövlət orqanlarının bölmələri onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrə bölünür (1-ci — 7-ci kateqoriya dövlət orqanlarının bölmələri).[20]

8.3. Konkret dövlət orqanlarının və onların bölmələrinin müvafiq kateqoriyalara aidiyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu Qanun əsasında müəyyən edilir.[21]

## III fəsil
## DÖVLƏT QULLUĞU VƏZİFƏSİ

Maddə 9. Dövlət qulluğu vəzifəsinin anlayışı

Dövlət qulluğu vəzifəsi dövlət orqanının normativ aktlarla ilə müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.[22]

Maddə 10. Dövlət orqanlarında vəzifələrin təsnifatı [23]

10.1. Dövlət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq inzibati və yardımçı vəzifələrə bölünür.

10.2. Siyasi vəzifələr 1-ci kateqoriya dövlət orqanları rəhbərlərinin, rəhbərlərin birinci müavinlərinin və müavinlərinin, 2-ci kateqoriya dövlət orqanları rəhbərlərinin vəzifələridir. Siyasi vəzifəyə dövlət qulluqçuları Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada və müddətə qanunvericilik və icra hakimiyyəti orqanlarının qərarı ilə təyin edilir və ya seçilirlər.[24]

10.4. Siyasi vəzifələri tutan şəxslərin hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunun qüvvəsi onlara şamil edilmir.[25]

10.5. İnzibati vəzifələr Ali - 5-ci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir. İnzibati vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.

10.6. Yardımçı vəzifələr Ali - 5-ci kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən dövlət qulluqçularının (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilərin) vəzifələridir. Yardımçı vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.[26]

Maddə 11. İnzibati və yardımçı vəzifələrin təsnifatı [27]

11.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatları vardır: [28]

11.1.1. inzibati vəzifələrin ali təsnifatı:

11.1.1.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiya rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmənin rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini

həyata keçirən orqanın Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin vəzifəsi, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi.[29]

11.1.2. inzibati vəzifələrin birinci təsnifatı:

11.1.2.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiya rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölmənin rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə rəhbərinin vəzifəsi, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisinin vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparat rəhbərlərinin müavinləri vəzifələri, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparat rəhbərinin müavini vəzifəsi, habelə həmin dövlət orqanlarında bölmə rəhbərlərinin vəzifələri;[30]

11.1.2.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin birinci müavinləri və müavinləri, habelə həmin orqanlarda bölmə rəhbərlərinin vəzifələri;[31]

11.1.2.3. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri.

11.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:

11.1.3.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında bölmə rəhbərinin müavini vəzifəsi;[32]

11.1.3.3. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;[33]

11.1.3.4. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin, bölmə rəhbərlərinin vəzifələri;

11.1.3.5. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

11.1.3.6. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin, Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələrinin vəzifələri;[34]

11.1.3.7. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

11.1.4.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında mütəxəs-

sislərin vəzifələri;[35]

11.1.4.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların bölmə rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri;[36]

11.1.4.3. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında mütəxəssislərin vəzifələri;

11.1.4.4. 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.4.5. 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.4.6. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin və bölmə rəhbərlərinin vəzifələri;

11.1.4.7. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinlərinin vəzifələri.

11.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

11.1.5.1. 1-ci kateqoriya dövlət orqanlarının aparatlarında mütəxəssislərin vəzifələri;

11.1.5.2. 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.5.3. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.5.4. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

11.1.6.1. 2-ci kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.6.2. Naxçıvan Muxtar Respublikasında 3-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanlarının aparat rəhbərlərinin vəzifələri;

11.1.6.3. 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.6.4. 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin vəzifələri;

11.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

11.1.7.1. 3-cü kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.7.2. 4-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanının bölmə rəhbərinin və onun müavininin vəzifələri;

11.1.7.3. 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.7.4. 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların

yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinlərinin vəzifələri.

11.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

11.1.8.1. 4-cü və 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanının, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, rayon (şəhər) prokurorluqlarının və hərbi prokurorluqlarının, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin mütəxəssislərinin vəzifələri; [37]

11.1.8.2. müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, onların müavinlərinin və mütəxəssislərin vəzifələri.[38]

11.2. Yardımçı vəzifələrin aşağıdakı təsnifatları vardır:[39]

11.2.1. yardımçı vəzifələrin birinci təsnifatı – Ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.2. yardımçı vəzifələrin ikinci təsnifatı – 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.3. yardımçı vəzifələrin üçüncü təsnifatı – 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.4. yardımçı vəzifələrin dördüncü təsnifatı – 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr.

11.3. Bu Qanunun 11.1-ci maddəsində göstərilən inzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, ikinci-üçüncü təsnifat vəzifələri tutan şəxslərin müvafiq ixtisas dərəcəsi (o cümlədən həmin vəzifə üçün nəzərdə tutulmuş daha yüksək ixtisas dərəcəsi) alması üçün dövlət orqanında azı yeddi illik qulluq stajı və müvafiq vəzifədə azı üç illik fasiləsiz əmək stajı olmalı, dördüncü-yeddinci təsnifat vəzifələri tutan şəxslərin isə bundan ötrü dövlət orqanında azı beş illik qulluq stajı olmalıdır. Bu halda həmçinin vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır. Bu maddənin birinci cümləsində müəyyən edilmiş hər hansı tələbə cavab verməyən vəzifəli şəxsə tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir. Üçüncü təsnifat vəzifələrində çalışan dövlət qulluqçularına 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi o halda verilə bilər ki, həmin şəxslərin uyğun dövlət orqanlarında azı on illik qulluq stajı , müvafiq vəzifədə isə azı beş illik qulluq stajı olsun. Bu halda həmçinin vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır.[40]

11.4. Dövlət orqanlarının aparatları (və ya onların fəaliyyətini təmin edən qurumlar) və onların bölmələri Ali - 5-ci kateqoriya dövlət orqanlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funk-

siya və səlahiyyətləri, habelə onların həyata keçirilməsi xüsusiyyətləri nəzərə alınaraq, təminedici və yardımçı kimi təsnifləşdirilir.

Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[41]

**Qeyd:**

11-ci maddədə "dövlət orqanlarının aparatı (və ya onların fəaliyyətini təmin edən qurumlar)" dedikdə, dövlət orqanının vəzifə, funksiya və səlahiyyətlərinin həyata keçirilməsini təmin edən dövlət qulluqçularından ibarət ixtisaslaşdırılmış bölmələrini özündə birləşdirən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.

Maddə 12. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu [42]

12.1. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna vəzifələrin təsnifatları və adları, ixtisas dərəcələri və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar daxil edilir.[43]

12.2. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu dövlət orqanlarının ştat cədvəllərinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri [44]

13.1. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri vəzifə iddiasında olan şəxsin həmin vəzifənin öhdəsindən gəlməsi üçün kifayət qədər səriştəsinin olmasını təmin edir.

13.2. İnzibati vəzifə iddiasında olan şəxsin müvafiq ali təhsili olmalıdır. Həmin şəxsin başqa ali təhsili olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin profilini öyrənməlidir.

13.3. Yardımçı vəzifə iddiasında olan şəxsin tam orta təhsili olmalıdır.[45]

13.4. İnzibati və yardımçı vəzifələri tutmaq üçün əlavə tələblər qanunvericiliklə və vəzifə təlimatları ilə müəyyən edilir.

Maddə 35. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.[169]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**
**Bakı şəhəri, 21 iyul 2000-ci il**
**№ 926-IQ**

## Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Bu Qanunun məqsədi

1.1. bu Qanun ictimai birliklərin və fondların, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin yaradılması və fəaliyyət göstərilməsi ilə bağlı münasibətləri tənzimləyir. [1]

1.2. Bu Qanunda "qeyri-hökumət təşkilatı" anlayışına ictimai birliklər və fondlar daxildir.

1.3. Bu Qanun hüquqi şəxslər kimi qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.

1.4. Bu Qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə orqanlarına, habelə bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara və başqa qanunlarla tənzimlənən digər qeyri-kommersiya təşkilatlarına şamil edilmir.[2]

Maddə 2. Qeyri-hökumət təşkilatı

2.1. İctimai birlik - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatdır.

2.2. Fond - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatdır. [3]

2.2-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri - Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış qeyri-kommersiya hüquqi şəxsin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumlarıdır.[4]

2.3. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər. Məqsədi və ya fəaliyyəti Azərbaycan Respublikasının konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməyə, irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında filial və ya nümayəndəliklərinin yaradılmasına və fəaliyyətinə yol verilmir. [5]

2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azər-

baycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və exit-poll həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər. [6]

Maddə 3. Qeyri-hökumət təşkilatının adı və olduğu yer

3.1. Qeyri-hökumət təşkilatının onun təşkilati-hüquqi formasını və fəaliyyətinin xarakterini göstərən adı olmalıdır. Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.[7]

3.2. Qeyri-hökumət təşkilatının olduğu yer onun nizamnaməsində göstərilmiş hüquqi ünvanı ilə müəyyən edilir.

3.3. Qeyri-hökumət təşkilatının hüquqi ünvanı dəyişdikdə müvafiq icra hakimiyyəti orqanına bu barədə 7 gün müddətindən az olmamaq şərti ilə yazılı məlumat verilməlidir.

Maddə 3-1. Qeyri-hökumət təşkilatının rəmzləri[8]

Qeyri-hökumət təşkilatı bayraq, emblem və sair rəmzlərə malik ola bilər. Təşkilatın rəmzləri Azərbaycan Respublikasının və xarici dövlətlərin dövlət rəmzləri, habelə dövlət orqanlarının, beynəlxalq təşkilatların və digər qurumların rəmzləri ilə eyni olmamalı, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.

## II fəsil
## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ TƏŞKİLATİ-HÜQUQİ FORMALARI, NÖVLƏRİ VƏ İŞTİRAKÇILARI

Maddə 4. Qeyri-hökumət təşkilatlarının təşkilati-hüquqi formaları

Qeyri-hökumət təşkilatları bu Qanunla müəyyən edilmiş təşkilati-hüquqi formalarda təsis oluna bilərlər. [9]

Maddə 5. Qeyri-hökumət təşkilatlarının növləri

Qeyri-hökumət təşkilatları daimi əsaslarla və ya konkret məqsədlərə nail olmaq üçün təsis oluna bilərlər.

Maddə 6. Qeyri-hökumət təşkilatlarının fəaliyyət ərazisi

6.1. Qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında ümumazərbaycan, regional və yerli statusla təsis oluna və fəaliyyət göstərə bilərlər. Qeyri-hökumət təşkilatının fəaliyyət ərazisi təşkilat tərəfindən müstəqil müəyyən olunur.

6.2. Ümumazərbaycan qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Regional qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının iki və ya artıq inzibati ərazi vahidini əhatə etməlidir. Yerli qeyri-hökumət təşkilatları bir inzibati ərazi vahidinin çərçivəsində fəaliyyət göstərirlər.

6.3. Beynəlxalq qeyri-hökumət təşkilatları - öz fəaliyyət dairəsi ilə Azərbaycan Respublikasının və ən azı başqa bir xarici dövlətinin ərazilərini əhatə edən ictimai birliklərdir.

Maddə 7. Qeyri-hökumət təşkilatının filial və nümayəndəlikləri

7.1. Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.[10]

7.1-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər. [11]

7.2. Qeyri-hökumət təşkilatının filialı həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilə və onun fəaliyyətini və ya fəaliyyətinin bir hissəsini həyata keçirə bilər.

7.3. Qeyri-hökumət təşkilatının nümayəndəliyi həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilir, onun maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.

7.4. Qeyri-hökumət təşkilatının filialı və nümayəndəliyi hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından, təsdiq etdiyi Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun, fəaliyyət göstərir. Filial və nümayəndəliklərin fəaliyyətinə görə onları yaradan qeyri-hökumət təşkilatı məsuliyyət daşıyır. [12]

7.4-1. Qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində onu yaratmış təşkilatın adı, dövlət qeydiyyatı haqqında məlumatlar (qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, onun qeydiyyatını aparmış qurumun adı), filial və ya nümayəndəliyin hüquqi ünvanı, idarə edilməsi qaydası, rəhbərinin səlahiyyətləri, ləğv olunması qaydası göstərilməlidir.[13]

7.5. Filial və nümayəndəliyin rəhbərləri qeyri-hökumət təşkilatı tərəfindən təyin edilir və qeyri-hökumət təşkilatı tərəfindən verilən səlahiyyət dairəsində

fəaliyyət göstərir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər, habelə xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş qeyri-hökumət təşkilatlarının, eləcə də xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar. Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir. [14]

Maddə 8. Qeyri-hökumət təşkilatlarının iştirakçıları

8.1. İctimai birliklərin iştirakçılarına təsisçilər, üzvlər və köməkçilər aiddir. Fondların iştirakçılarına təsisçilər və köməkçilər aiddir.

8.2. İctimai birliyin yetkinlik yaşına çatmamış üzvləri Azərbaycan Respublikasının mülki qanunvericiliyə əsasən hüquqlar əldə edir və vəzifələr daşıyır.

8.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının iştirakçıları ola bilər.

8.4. Qeyri-hökumət təşkilatlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.

8.5. Bu Qanunun 8.4-cü maddəsində göstərilən tələb hər hansı cinsin xüsusi maraqlarının müdafiəsi ilə yaradılan qeyri-hökumət təşkilatlarına şamil edilmir.[15]

Maddə 9. Qeyri-hökumət təşkilatlarının təsisçiləri

9.1. Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

9.1-1. Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.[16]

Maddə 10. İctimai birliklərin üzvləri

10.1. Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər.

10.4. İctimai birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməlidir. [17]

10.5. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol verilməməlidir. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatının fəaliyyəti məhkəmə qərarı ilə bu Qanunun 31.3-cü maddəsində nəzərdə tutulmuş müddətə da-

yandırıla bilər.[18]

Maddə 11. Qeyri-hökumət təşkilatlarının köməkçiləri

Qeyri-hökumət təşkilatlarının köməkçilərinə nizamnamələrinə müvafiq olaraq qeyri-hökumət təşkilatının fəaliyyətində iştirak etməklə, öz münasibətlərini qeyri-hökumət təşkilatı ilə təşkilatı cəhətdən rəsmiləşdirmədən ona müxtəlif kömək və ya xidmətlər göstərməklə qeyri-hökumət təşkilatını dəstəkləyən fiziki və hüquqi (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) şəxslər aiddir. Köməkçilərin mövcudluğu və onların hüquqi statusu qeyri-hökumət təşkilatının təsis sənədləri və "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.[19]

## III fəsil
## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ YARADILMASI, YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ

Maddə 12. Qeyri-hökumət təşkilatının yaradılması

12.1. Qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə mövcud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər.

12.1-1. Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır. [20]

12.3. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir. [21]

Maddə 13. Qeyri-hökumət təşkilatının nizamnaməsi

13.1. Qeyri-hökumət təşkilatının nizamnaməsində qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri, daimi və ya konkret məqsədlə təsis edildiyi, idarə olunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası, qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakından istifadə qaydası müəyyən edilməlidir. [22]

13.3. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir. [23]

Maddə 14. Qeyri-hökumət təşkilatının nizamnaməsinə dəyişikliklərin edilməsi

14.1. İctimai birliyin nizamnaməsinə dəyişikliklər onun ali idarəetmə orqa-

nının qərarı ilə edilə bilər. Fondun nizamnaməsinə dəyişikliklərin edilməsi fondun Himayəçilik Şurası tərəfindən və yalnız fondun məqsədləri istiqamətində edilə bilər.

14.3. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklər onların dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

Maddə 15. İctimai birliyin təsis edilməsi haqqında bildiriş

15.1. İctimai birliyin təsis edilməsi haqqında bildiriş onun təsis edilməsi haqqında qərarın qəbul olunduğu andan 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına yazılı müraciət vasitəsi ilə həyata keçirilir. İctimai birliyin rəhbəri tərəfindən imzalanmış müraciətə təsis protokolu da əlavə olunmalıdır.

15.2. Müvafiq icra hakimiyyəti orqanı ictimai birliyin təsis edilməsi haqqında bildirişi alan gün bildirişin daxil olmasını təsdiq edən sənədi ictimai birliyin nümayəndəsinə verir və ya poçt vasitəsilə göndərir.

Maddə 16. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı

16.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi şəxslərin qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

16.4. Qeyri-hökumət təşkilatları və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri fəaliyyətini müvəqqəti olaraq dayandırması ilə bağlı müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər.[24]

Maddə 17. Dövlət qeydiyyatına alınmasından imtina

17.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatına alınmasından yalnız "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda imtina edilə bilər. [25]

17.2. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından, imtinanın əsasları və təsis sənədlərin hazırlanmasında qanunvericiliyin pozulmuş müddəaları və maddələrini göstərilməklə, yazılı surətdə məlumat qeyri-hökumət təşkilatının nümayəndəsinə təqdim olunur. [26]

17.4. Qeyri-hökumət təşkilatın dövlət qeydiyyatına alınmasından imtinadan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər. [27]

Maddə 18. Qeyri-hökumət təşkilatının fəaliyyətinə xitam verilməsi

Qeyri-hökumət təşkilatının fəaliyyətinə qeyri-hökumət təşkilatın yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ya qeyri-hökumət təşkilatının ləğv edilməsi yolları ilə xitam verilir.

Maddə 19. Qeyri-hökumət təşkilatının yenidən təşkil edilməsi

19.1. Qeyri-hökumət təşkilatı bu Qanunda nəzərdə tutulan qaydada yenidən təşkil edilə bilər. Qeyri-hökumət təşkilatının yenidən təşkili onun təsisçilərinin və ya təşkilatın nizamnamə ilə vəkil edilmiş orqanın qərarı ilə həyata keçirilə bilər.

19.2. Qeyri-hökumət təşkilatının yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formalarında həyata keçirilə bilər.

19.3. Qeyri-hökumət təşkilatının başqa təşkilatın ona qoşulma formasında yenidən təklif edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır. [28]

19.4. Qeyri-hökumət təşkilatının ayrılma və bölünmə formalarında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin ayrılması haqqında və ya bölünən təşkilatın fəaliyyətinə xitam verilməsi haqqında və yeni qeyri-hökumət təşkilatlarının təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.7. Xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.[29]

Maddə 20. Qeyri-hökumət təşkilatının ləğvi

Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Mülki Məcəlləsində və hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ləğv edilə bilər. Qeyri-hökumət təşkilatı ləğv edildikdə həmin qurum tərəfindən əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması barədə məlumatlar və bu məlumatları təsdiq edən sənədlər hüquqi şəxslərin dövlət reyestrinə daxil olunması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edilir. [30]

Maddə 21. Ləğv edilən qeyri-hökumət təşkilatının əmlakı

Qeyri-hökumət təşkilatının ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

IV fəsil

QEYRİ-HÖKUMƏT TƏŞKİLATIN FƏALİYYƏTİ

Maddə 22. Qeyri-hökumət təşkilatının fəaliyyət növləri

22.1. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirə bilər.

22.2. Qeyri-hökumət təşkilatı əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölüşdürməyərək, yalnız təşkilatın yaradılması məqsədlərinə nail olmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirilə bilər. Belə fəaliyyət kimi qeyri-hökumət təşkilatının yaranma məqsədlərinə cavab verən, mənfəət gətirən mal və xidmət istehsalı və satışı, habelə qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi, əmanətçi kimi təsərrüfat cəmiyyətlərində, ortaqlıqlarda iştirakı qəbul edilir.

22.3. Qeyri-hökumət təşkilatı sahibkarlıq fəaliyyəti üzrə gəlir və xərclərin uçotunu aparır. Qeyri-hökumət təşkilatının məşğul ola bilən fəaliyyət növləri üçün hər bir məhdudiyyət yalnız qanunla müəyyən olunur.

22.4. Qeyri-hökumət təşkilatı peşəkar dini fəaliyyətlə məşğul ola bilməz.[31]

Maddə 23. Qeyri-hökumət təşkilatının əmlakı

23.1. Qeyri-hökumət təşkilatının mülkiyyətində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər. [32]

23.2. Qeyri-hökumət təşkilatı öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

23.3. Fondun əmlakını onun təsisçiləri (təsisçisi) tərəfindən verilən əmlak təşkil edir. Fond təsis olunduqdan sonra ona əmlak vermiş şəxs təsisçi hüququ qazanmır. Təsisçilər onların yaratdığı fondun öhdəlikləri üçün, fondlar isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

Maddə 24. Qeyri-hökumət təşkilatının əmlakının formalaşdırılma mənbələri

24.0. Qeyri-hökumət təşkilatının əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:

24.0.1. təsisçilərin və ya ictimai birliklərin üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

24.0.2. əmlak haqları və könüllü ianələri;[33]

24.0.3. malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;

24.0.4. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

24.0.5. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;

24.0.6. qrantlar;

24.0.7. qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

Maddə 24-1. İanələr və qrantlar[34]

24-1.1. İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hö-

kumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi (bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi) tərəfindən bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.[35]

24-1.2. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz.

24-1.3. Qeyri-hökumət təşkilatına, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə ianə verən şəxs verdiyi və ya verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa, yaxud dolayı yola maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz.

24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə qəbul edilir. Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri iki yüz manatadək ianəni nağd şəkildə qəbul edə bilər.

24-1.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.[36]

24-1.6. Qrantların verilməsi, alınması və istifadəsi ilə bağlı iqtisadi və hüquqi münasibətlər "Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Maddə 24-2. Qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi[37]

24-2.1. Qeyri-hökumət təşkilatı tərəfindən bu Qanunun 24.0.3-cü maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsi və işlərin görülməsi müqavilə əsasında həyata keçirilir. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.

24-2.2. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xid-

mətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.

Maddə 33. Bu Qanunun qüvvəyə minməsi
Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 13 iyun 2000-ci il**
**№ 894-IQ**

## Dini etiqad azadlığı haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Dini etiqad azadlığı [2]
Hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

Dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın və ya mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər.

Dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.[3]

Valideynlər və ya onları əvəz edən şəxslər, qarşılıqlı razılıq əsasında, uşaqlarını özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə

bilərlər.

Maddə 2. Dini etiqad azadlığı haqqında qanunvericilik

Dini etiqad azadlığı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.[4]

Maddə 3. Dini etiqad azadlığı haqqında Qanunun Vəzifələri[5]

Bu Qanun:

Azərbaycan Respublikasında hər bir şəxsin dinə öz münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır;

Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının qəbul etdiyi beynəlxalq hüquq normalarına müvafiq surətdə sosial ədaləti, bərabərliyi, vətəndaşların dinə münasibətindən asılı olmayaraq onların hüquqlarının və qanuni mənafelərinin müdafiəsini təmin edir;

dini qurumlara münasibətdə dövlətin vəzifələrini müəyyənləşdirir;

dini qurumların dövlət və. cəmiyyət qarşısında vəzifələrini müəyyən edir;

adamların dünyagörüşündən və dini əqidəsindən asılı olmayaraq milli əxlaqın və humanizmin təzahürü, vətəndaşların əmin-amanlığı və əməkdaşlığı üçün əlverişli şəraiti himayə edir;

dini qurumların fəaliyyəti ilə əlaqədar münasibətləri nizama salır.

Maddə 4. Dini mənsubiyyətindən asılı olmayaraq şəxslərin hüquq bərabərliyi [6]

Hər kəs dini mənsubiyyətindən asılı olmayaraq qanun və məhkəmə qarşısında bərabərdir. Şəxsin dini mənsubiyyətinin rəsmi sənədlərdə göstərilməsinə yalnız onun arzusu ilə yol verilir.

Öz dini əqidəsinə görə heç kəs qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edə və ya boyun qaçıra bilməz. Bir vəzifənin icrasının dini əqidəyə görə digər vəzifənin icrası ilə əvəz edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yol verilir.

Maddə 4-1. Peşəkar dini fəaliyyət və din xadimi[7]

4-1.1. Peşəkar dini fəaliyyət dini tərbiyəyə və dini təhsilə, dindarların dini tələbatının ödənilməsinə, dinlərin yayılmasına, dini ayinlərin icrasına, moizələrin (xütbələrin) oxunmasına, dini qurumun inzibati və təşkilati idarəetməsinə yönəlmiş fəaliyyətdir.

4-1.2. Din xadimi peşəkar dini fəaliyyətlə məşğul olan dini ali və orta ixtisas təhsilli şəxsdir.

Maddə 5. Dövlət və dini qurumlar

Azərbaycan Respublikasında din və dini qurumlar dövlətdən ayrıdır.

Dövlət ona aid olan hər hansı işin yerinə yetirilməsini dini qurumlara tapşırmır və onların fəaliyyətinə qarışmır.

Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.[8]

Dini qurumlar ictimai həyatda iştirak etmək, habelə ictimai birliklərlə yanaşı kütləvi məlumat vasitələrindən istifadə etmək hüququna malikdirlər.

Dini qurumlar siyasi partiyaların fəaliyyətində iştirak etmir və onlara maliyyə yardımı göstərmirlər.

Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların peşəkar dini fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.[9]

Din xadimləri dövlət orqanlarına seçildikdə və ya təyin olunduqda onların din xadimi kimi fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır.[10]

Dini qurumlar cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onlar üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.[11]

Maddə 6. Dinin məktəblə münasibəti

Azərbaycan Respublikasında dövlət təhsil sistemi dindən ayrıdır.

Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə bilər.

Vətəndaşlar istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə ilahiyyəti öyrənə və dini təhsil ala bilərlər.

Dini qurumlar öz nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada gənclərin və yaşlıların dini təhsili üçün təhsil müəssisələri yaratmaqla müəyyən olunmuş formada təlim-tərbiyə prosesini həyata keçirə bilərlər.[12]

Dini qurumlar tərəfindən gənclərin və yaşlıların müqəddəs kitabları öyrənmə kursları (qrupları) həmin dini qurumların nizamnamələrinə uyğun olaraq, tabe olduqları dini mərkəz və idarələrin razılığı ilə yaradılır.[13]

## II f ə s i l
## AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ QURUMLAR

Maddə 7. Dini qurumlar

Dini mərkəz və idarələr, dini təhsil müəssisələri və dini icmalar, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar.[14]

Dini qurumlar yetkinlik yaşına çatmış şəxslərin dini etiqad azadlığı hüququ-

nun birgə həyata keçirilməsi, həmçinin dini etiqadı və dini yaymaq üçün yaradılmış könüllü təşkilatlardır.[15]

Dini qurumlar bu Qanuna və təsdiq olunmuş nizamnamələrinə (əsasnamələrinə) müvafiq surətdə fəaliyyət göstərirlər.[16]

Azərbaycan Respublikasında fəaliyyət göstərən islam dini qurumları Qafqaz Müsəlmanları İdarəsinə öz fəaliyyətləri haqqında hesabat təqdim edirlər.[17]

Maddə 8. Dini icma

Dini icma dinə birlikdə ibadət etmək və digər dini tələbatı ödəmək məqsədilə könüllülük əsasında birləşmiş yetkinlik yaşına çatmış dindar şəxslərin yerli dini qurumudur.[18]

Azərbaycan Respublikasında təşkilat məsələlərində islam dini icmaları Qafqaz Müsəlmanları idarəsinə tabedirlər, qeyri-müsəlman dini icmalarının Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən dini mərkəzlərə (idarələrə) tabe olmaq və tabeliyini dəyişdirmək hüququ vardır.[19]

İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verilməklə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir.[20]

İslam dini icmaları məscidlərdə Azərbaycan Respublikasının vətəndaşları tərəfindən yaradılır.[21]

Maddə 9. Dini mərkəzlər və idarələr

Azərbaycan Respublikasında islam dini qurumları öz tarixi islam dini mərkəzində — Qafqaz Müsəlmanları İdarəsində birləşirlər.

Təşkilati mərkəzlərin xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər.

Dövlətin dini mərkəzlə və idarələrlə, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda olan dini mərkəzlərlə və idarələrlə qanunla tənzimlənməyən münasibətləri onların öz aralarında və dövlət orqanları ilə razılaşmalara müvafiq surətdə nizamlanır.

Dini mərkəz və idarələr öz nizamnamələrində (əsasnamələrində) nəzərdə tutulmuş qaydada ibadətgahlar və dini təhsil müəssisələri yarada bilərlər.[22]

Maddə 10. Dini-təhsil müəssisələri

Din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün dini təhsil müəssisələri yalnız dini mərkəz və idarələr yarada bilərlər. Dini mərkəz və idarələr birdən çox ali dini tədris müəssisəsi yarada bilməz. Dini tədris müəssisələri ilə dini mərkəz və ya idarələr arasında münasibətlər təsis sənədləri ilə müəyyən edilir.[23]

Dini tədris müəssisələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xü-

susi razılıq (lisenziya) əsasında fəaliyyət göstərirlər.

Dini tədris müəssisələrinlə təhsil alanlar dövlət tədris müəssisələrində təhsil alanlar üçün müəyyən olunmuş hüquq və güzəştlərdən istifadə edirlər.[24]

Maddə 11. Dini qurumların nizamnamələri (əsasnamələri)[25]

Dini qurumun hüquq qabiliyyətini mülki qanunvericiliyə müvafiq surətdə müəyyən edən nizamnaməsi (əsasnaməsi) olur.

Dini qurumun nizamnaməsi (əsasnaməsi) dindar şəxslərin ümumi yığıncağında və ya dini qurultaylarda, konfranslarda qəbul olunur.

Dini qurumun nizamnaməsində (əsasnaməsində) aşağıdakılar göstərilməlidir:

1) adı, növü, dini mənsubiyyəti və yeri;[26]

2) dini qurumun dini birliyin təşkilat quruluşunda yeri;

3) dini qurumun məqsəd və vəzifələri, habelə fəaliyyətinin əsas formaları;

4) dini qurumun strukturu, idarəetmə orqanları və onların təşkili qaydası, habelə həmin orqanların səlahiyyətləri;

5) dini qurumun əmlak əziyyəti;

6) dini qurumun müəssisələr, kütləvi informasiya vasitələri, digər dini qurumlar, təhsil müəssisələri təsis etmək hüquqları;

7) dini qurumun nizamnaməsinə (əsasnaməsinə) dəyişikliklər və əlavələr etmək qaydası;

8) dini qurumun ləğvi qaydası;

9) dini qurumun fəaliyyətinə xitam verildikdə əmlak məsələlərinin və başqa məsələlərin həlli qaydası.

Dini qurumun adı onun hansı dinə mənsub olduğunu özündə əks etdirməlidir.[27]

Nizamnamədə (əsasnamədə) həmin dini qurumun fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədar digər məsələlər də əhatə oluna bilər.

Dini qurumun dini etiqad fəaliyyətini müəyyən edən, digər daxili məsələlərini həll edən sənədlər dövlət orqanlarında qeydə alınmalı deyildir.

Dini qurum dövlət qeydiyyatına alındığı andan hüquqi şəxsdir.[28]

Dini qurumun nizamnaməsi (əsasnaməsi) öz dini mərkəzinin (idarəsinin) nizamnaməsinə uyğun olmalıdır.[29]

Maddə 12. Dini qurumların dövlət qeydiyyatına alınması[30]

Bütün dini qurumlar yalnız müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alındıqdan və dini qurumların dövlət reyestrinə daxil edildikdən sonra fəaliyyət göstərə bilərlər. Dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara dini mərkəz və idarələr tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər.[31]

Dini icmanın dövlət qeydiyyatına alınması üçün onu yaratmış azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri icmanın

təsis protokolu və nizamnaməsi (əsasnaməsi) əlavə olunmuş ərizə ilə dini mərkəzə və ya idarəyə müraciət edir. Ərizəyə habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar, habelə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə edilir. Dini mərkəz və ya idarə 30 gün ərzində həmin sənədləri öz təqdimatı ilə birlikdə dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanına göndərir.[32]

Dini mərkəzin, dini idarələrin, dini təhsil müəssisələrinin , dini qardaşlıqların dövlət qeydiyyatına alınması üçün dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanına təsis sənədi və nizamnamə (əsasnamə) təqdim edilir.[33]

Dini işlər üzrə müvafiq icra hakimiyyəti orqanı 15 gün ərzində həmin sənədləri öz rəyi ilə birlikdə hüquqi şəxslərin dövlət qeydiyyatı orqanına göndərir.[34]

Dövlət qeydiyyatına alınmış dini qurum onun dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə hər hansı dəyişiklik olduqda, bu barədə 20 gün müddətində dini mərkəz və idarələrin vasitəsi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və müvafiq dəyişikliyi təsdiq edən sənədləri həmin qaydada təqdim etməlidir.[35]

Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurumun dövlət qeydiyyatına alınmasından aşağıdakı hallarda imtina edilə bilər:

1) dini qurumun fəaliyyəti və ya qarşısına qoyduğu məqsədlər, yaxud təbliğ etdiyi dini təlimin mahiyyəti və əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olduqda;

2) yaradılan qurum dini qurum qismində tanınmadıqda

3) təqdim olunmuş nizamnamə (əsasnamə) və digər sənədlər Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olduqda və ya onlarda əks olunmuş məlumatlar yanlış olduqda.[36]

Dövlət qeydiyyatına alınmasından imtina barədə dini quruma imtinaya əsas olmuş qanunvericiliyin müddəaları göstərilməklə məlumat verilir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslardan başqa hər hansı digər əsasa görə dini qurumun dövlət qeydiyyatına alınmasından imtinaya yol verilmir.[37]

Maddə 12-1. Dini qurumun ləğv edilməsi [38]

Dini qurumlar aşağıdakı hallarda ləğv edilə bilər:

1) təsisçilərin və ya nizamnamə (əsasnamə) ilə buna vəkil edilmiş orqanın qərarı ilə;[39]

2) müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qə-

rarı ilə.

Bu Qanunun 1-ci maddəsinin üçüncü hissəsi nəzərə alınmaqla, dini qurum məhkəmə qaydasında aşağıdakı əsaslarla ləğv edilə bilər:

1) dini qurum tərəfindən onun yaranma məqsədlərinə zidd olan fəaliyyətin həyata keçirilməsi;[40]

2) dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və ya düşmənçilik yaratmaq məqsədi ilə təbliğ edilməsi, dini etiqadı ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur etmə, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinin (dini cərəyanın) yayılması və təbliğ edilməsi;

3) ictimai təhlükəsizliyin və ya ictimai qaydanın pozulması;

3-1) dini ekstremist fəaliyyətlə məşğul olma;[41]

4) terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə, təxribata və ya zorakı cinayət əməllərinə yönəlmiş hərəkətlərin edilməsi;

5) dünyəvi təhsil alınmasına mane olma;

6) dini qurumun üzvlərinin və digər şəxslərin dini qurumun xeyrinə öz əmlakından imtina edilməsinə təhrik və ya məcbur etmə;

7) zor tətbiq etməklə və ya digər qanunsuz əməllərlə şəxsin dini qurumdan çıxmasına mane olma;

8) şəxsləri qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtina edilməsinə və digər qanunsuz hərəkətlərin edilməsinə təhrik etmə;

9) dövlət qeydiyyatına alınması üçün tələb olunan məlumatlarda və ya sənədlərdə edilmiş dəyişikliklər barədə məlumatın müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsinə dair həmin orqanın bir il ərzində iki yazılı tələbinə əməl olunmaması.[42]

Dini mərkəz və idarələr dini icmalar barədə bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş məlumatlara malik olduqda, həmin dini icmaların təsisçilərinin tərkibinin dəyişdirilməsinin və ya icmanın ləğvinin zəruriliyi barədə müvafiq icra hakimiyyəti orqanının qarşısında vəsatət qaldırırlar.[43]

Dini ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir.[44]

Maddə 15. Dini qurumların qeydə alınması və fəaliyyətinə xitam verilməsi barədə şikayətlərə baxılması

Dini qurumun qeydə alınması, qeydə alınmasından imtina edilməsi, dini qurumun fəaliyyətinə xitam verilməsi barədə qərarlardan, qərar qəbul edilməsi üçün bu Qanunda nəzərdə tutulmuş müddətlərin uzadılmasından Azərbaycan Respublikasının Mülki-Prosessual qanunvericiliyində müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.[45]

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

**Bakı şəhəri, 20 avqust 1992-ci il**
**№ 281**

## Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Bu Qanunda istifadə edilən əsas anlayışlar

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları daşıyır:

qaçqın - Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir;

məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) - Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxsdir.

Başqa ölkədəki daimi yaşayış yerini bu maddənin birinci hissəsində göstərilən əsaslara görə tərk etməyə məcbur olub Azərbaycan Respublikasına gəlmiş Azərbaycan Respublikası vətəndaşına müvafiq icra hakimiyyəti orqanının qərarı ilə məcburi köçkün statusu verilə bilər.

Maddə 2. Qaçqın statusunun verilmədiyi hallar

Aşağıdakılara qaçqın statusu verilmir:

beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, hərbi cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyənləşdirilmiş şəxsə;

Azərbaycan Respublikasının ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsə;[1]

Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllər törət-

məkdə müqəssir olan şəxsə.

Maddə 3. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında siyasi sığınacaq verilməsi

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsinin birinci hissəsinə və 109-cu maddəsinin 21-ci bəndinə uyğun olaraq verilir.

Maddə 5. Qanunsuz gəlməyə görə məsuliyyətin tətbiq edilməməsi. Qaçqınların gəldikləri ölkəyə göndərilməməsi və ya məcburi qaytarılmaması

Bu Qanunun 1-ci maddəsinin birinci hissəsində göstərilmiş səbəblərə görə başqa dövlətdən qanunsuz olaraq Azərbaycan Respublikasına gəlmiş və mümkün qədər tez müvafiq səlahiyyətli orqana müraciət etmiş şəxs həmin orqanın əsaslandırılmış qərarı ilə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan məsuliyyətdən azad edilir.

Qaçqın bu Qanunun 1-ci maddəsinin birinci hissəsində göstərilmiş səbəblərə görə onun həyat və ya azadlığını təhlükə gözləyən ölkəyə heç bir halda göndərilmir və ya məcburi qaytarılmır.

## II fəsil
## QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN (ÖLKƏ DAXİLİNDƏ KÖÇÜRÜLMÜŞ ŞƏXSLƏRİN) HÜQUQİ STATUSU

Maddə 6. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) hüquq və vəzifələri

Azərbaycan Respublikasının Konstitusiyasında, bu Qanunda və digər qanunvericilik aktlarında başqa hal nəzərdə tutulmayıbsa, qaçqınlar Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edir, onlarla eyni vəzifələri daşıyırlar.

Qaçqın və ya məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış şəxsə müəyyən edilmiş qaydada aşağıdakı təminatlar verilir:

iş və ya yaşayış yeri əldə edənədək xüsusi ayrılmış yerlərdə, lakin ən çoxu üç ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada yaşamaq;[2]

haqq ödəmədən müvəqqəti yaşayış yerinə getmək və əmlakını aparmaq;

müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada lazımi pulsuz dərman və tibb yardımı almaq;[3]

uşaqların məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində təhsil almaq;

yaşayış məntəqələrində daimi yaşayan vətəndaşlarla eyni əsaslar üzrə ərzaq

və sənaye malları almaq;

dövlətin təyin etdiyi birdəfəlik və digər yardım almaq;

tək pensiyaçıların və əmək qabiliyyəti olmayan əlillərin xüsusi sosial təminat müəssisələrində ilk növbədə yerləşdirilməsi;

Bu Qanunla müəyyənləşdirilmiş müddətdə qaçqın və ya məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almaq;

dəymiş maddi və digər ziyanın ödənilməsi məsələsini qaldırmaq;

pozulmuş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək;

əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ.

Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına gələ bilərlər.[4]

Qaçqın statusu almış şəxs Azərbaycan Respublikasının qanunvericiliyində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulan hüquqlarından istifadə edir və vəzifələri daşıyır.

Qaçqın statusu almış şəxs iş və ya yaşayış yeri əldə edənədək, lakin 3 aydan artıq olmayan müddətə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərində könüllü yerləşdirilə bilər.[5]

Maddə 8. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə göndərilməsi

Bu Qanuna müvafiq surətdə qaçqın statusu və sığınacaq verilə bilməyən şəxs "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasından başqa ölkəyə göndərilə bilər. [6]

## III fəsil
## QAÇQIN VƏ YA MƏCBURİ KÖÇKÜN (ÖLKƏ DAXİLİNDƏ KÖÇÜRÜLMÜŞ ŞƏXSİN) STATUSUNUN ƏLDƏ EDİLMƏSİ. QAÇQIN STATUSUNUN İTİRİLMƏSİ

Maddə 9. Qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusu vermə və qaçqın statusundan məhrum etmə məsələsini həll edən orqanlar

Qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusu vermə və qaçqın statusundan məhrum etmə məsələlərinə dair qərarları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları qəbul edirlər.

Maddə 10. Qaçqın və məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin)

statusu verilməsi haqqında vəsatətin qaldırılması qaydası

Qaçqın statusu almaq niyyətində olan şəxslər onlara qaçqın statusu verilməsi haqqında ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət etməli, məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusu verilməsi üçün isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçməlidirlər.

Qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması qaydasını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

Maddə 11. Qaçqın statusu verilməsi haqqında vəsatətlə müraciət etmiş şəxsin hüquq və vəzifələri

Qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş şəxsə aşağıdakı hüquqlar verilir:

Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq;

tərcüməçinin xidmətlərindən pulsuz istifadə etmək;

müvəqqəti işə düzəlmək;

tibb yardımı almaq;

qaçqın statusu verilməsi məsələsi həll edilənədək onunla gələn ailə üzvləri ilə birlikdə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərində könüllü yerləşdirilmək və saxlanılmaq;[7]

öz dininə sərbəst etiqad etmək;

BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının nümayəndəsi ilə əlaqə saxlamaq.

Qaçqın statusu verilməsi haqqında ərizə təqdim etmiş şəxs;

qaçqın statusu verilməsi məsələsinin həlli üçün zəruri məlumatı Azərbaycan Respublikasının müvafiq orqanına təqdim etməli;

Azərbaycan Respublikasının ərazisində olmağın mövcud qanunvericiliklə müəyyənləşdirilmiş qaydasını gözləməli;

məcburi dövlət daktiloskopik qeydiyyatından keçməli;[8]

səhiyyə orqanlarının tələbi ilə tibbi müayinədən keçməlidir.

Qaçqın statusu verilməsi haqqında ərizə təqdim edən, lakin özü barəsində məlumat verməkdən imtina edən və ya qaçqın statusu verilməsi xahişinin səbəblərinə dair bilərəkdən yanlış məlumat verən şəxsə qaçqın statusu verməkdə imtina edilir.

Maddə 12. Şəxsin qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusu verilməsi haqqında vəsatətə baxılması qaydası

Qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu verilməsi haqqında qərarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı qaçqın statusu verilməsi haqqında vəsatətin qeydə alındığı gündən üç ay ərzində və məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) Azərbaycan Res-

publikasının müvafiq icra hakimiyyəti orqanında qeydiyyatdan keçdiyi gündən bir ay ərzində qəbul edir.

Qaçqın statusu almış şəxsə və onun ailə üzvlərinə nümunələri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qaçqın vəsiqəsi, habelə Qaçqınların statusu haqqında 1951-ci il tarixli Konvensiyaya uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda hərəkət etmək hüququ verən yol sənədi verilir. Qaçqın vəsiqəsinin və Yol sənədinin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.[9]

Müəyyənləşdirilmiş qaydada verilən qaçqın vəsiqəsi qaçqının şəxsiyyətini, yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən və ona Azərbaycan Respublikasının ərazisində qanuni qalmaq hüququ verən sənəddir. [10]

Maddə 13. Qaçqın statusu verməkdən imtina edilməsi

Şəxsə qaçqın statusu verməkdən imtina edildikdə bu barədə ona qərarın qəbul edildiyi vaxtdan beş gün müddətində imtinanın səbəbləri və qəbul edilmiş qərardan şikayət verilməsi qaydası göstərilməklə yazılı məlumat verilir.

Barəsində qaçqın statusu verməkdən imtina edilməsi haqqında qərar qəbul edilmiş şəxsin Azərbaycan Respublikasının ərazisindən göndərilməsinin təşkili müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.[11]

Qaçqın statusu verməkdən imtina edilməsi barədə qərardan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.[12]

Qanunvericiliklə ayrı qayda müəyyən edilməmişdirsə, şəxsin şikayət verilməsi onun Azərbaycan Respublikası ərazisindən göndərilməsinin təşkili ilə bağlı hərəkətləri dayandırır.[13]

Maddə 14. Qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusunun itirilməsi

Qaçqın statusunu şəxs aşağıdakı hallarda itirir:

vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin himayəsindən könüllü surətdə yenidən istifadə etdikdə;

öz vətəndaşlığından məhrum olub onu könüllü surətdə yenidən əldə etdikdə;

Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və yeni vətəndaşı olduğu dövlətin himayəsindən istifadə etdikdə;

təqiblərdən ehtiyat etdiyinə görə tərk etdiyi və ya hüdudlarından kənarda qaldığı dövlətdə könüllü surətdə yenidən məskunlaşdıqda;

qaçqın kimi tanınmasına əsas vermiş hallar aradan qalxdığına görə vətəndaşı olduğu dövlətin himayəsindən daha imtina edə bilmədikdə (vətəndaşı olduqları dövlətin himayəsindən imtina etmək üçün əvvəlki təqiblərdən irəli gələn kifayət qədər əsaslar gətirə bilən qaçqınlar istisna olmaqla);

müəyyən vətəndaşlığı olmayan şəxs onun qaçqın kimi tanınmasına əsas vermiş hallar aradan qalxdığına görə əvvəl adətən yaşadığı ölkəyə qayıda bildikdə

(əvvəl adətən yaşadıqları ölkəyə qayıtmaqdan imtina etmək üçün əvvəlki təqiblərdən irəli gələn kifayət qədər əsaslar gətirə bilən qaçqınlar istisna olmaqla).

Qaçqın daimi yaşayış üçün Azərbaycan Respublikasının hüdudlarından kənara getdikdə Azərbaycan Respublikasının həmin qaçqın barəsində öhdəlikləri onun Azərbaycan Respublikasının dövlət sərhədini keçdiyi andan itirilir.

Məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu vətəndaş aşağıdakı hallarda itirir:

əvvəl adətən yaşadığı yerə qayıtdıqda və ya həmin regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edildikdə;

bu mümkün olmadıqda, dövlətin xüsusi qərarı ilə müəyyənləşdirilmiş səviyyədə yaşayış yeri ilə təmin edildikdə.

Maddə 15. Qaçqın statusundan məhrum etmə və qaçqınların başqa ölkəyə göndərilməsinin, verilməsinin və ya məcburən qaytarılmasının qadağan edilməsi

Qaçqın statusundan şəxs aşağıdakı hallarda məhrum edilir:

dövlət təhlükəsizliyi və ya ictimai qayda üçün qorxu törətdikdə;

Qaçqın statusunu biləkdən yalan məlumat və ya saxta sənədlər təqdim etmək nəticəsində əldə etmiş olduqda;

ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyən edilmiş müddətə azadlıqdan məhrum edildikdə və ya ömürlük azadlıqdan məhrum edildikdə. [14]

Qaçqın statusu almaq üçün ərizə vermiş şəxs onun məsələsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll edilənədək başqa ölkəyə göndərilə bilməz, verilə və ya məcburən qaytarıla bilməz.

Qaçqın statusundan məhrum etmək, qaçqını, eləcə də qaçqın statusu istəyən şəxsi başqa ölkəyə göndərmək, vermək və ya məcburən qaytarmaq barəsində qərarı məhkəmə müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında qəbul edir. Qaçqın statusu verilmiş, habelə Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir.[15]

Maddə 16. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) işə düzəlməsi

Müvafiq icra hakimiyyəti orqanları qaçqınlara və məcburi köçkünlərə (ölkə daxilində köçürülmüş şəxslərə) iş yeri seçməkdə kömək göstərirlər.

Fasiləsiz iş stajının bərpası qanunvericilikdə nəzərdə tutulmuş qaydada yeni iş yerində həyata keçirilir.

Qaçqının və məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) ixtisasını artırması və ya yeni peşə öyrənilməsi ilə əlaqədar istehsalatdan ayrıldığı dövrdə ona yeni iş yerində yeni ixtisası üzrə orta əmək haqqı ödənilir. İstehsa-

latdan ayrılmadan ixtisasını dəyişməklə əlaqədar bütün istehsal dövrü üçün əmək haqqındakı fərqi qaçqına və ya məcburi köçkünə (ölkə daxilində köçürülmüş şəxsə) onunla əmək müqaviləsi bağlamış idarə, müəssisə və təşkilat ödəyir.

Qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin alınması tələb olunmur.[16]

Maddə 17. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) yaşayış sahəsi ilə təmin edilməsi

Qaçqının və məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) müvəqqəti və ya daimi yaşayış sahəsi ilə təmin edilməsi mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Müvəqqəti yaşayış yerindən daimi yaşayış və iş yerinə köçməsi ilə əlaqədar qaçqının və məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) çəkdiyi xərclər ona müəyyənləşdirilmiş qaydada və məbləğdə ödənilir.

Qaçqının və məcburi köçkünün (ölkə daxilində köçürülmüş şəxsin) arzusu ilə ona on il müddətinə məqsədli faizsiz ssuda, habelə yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə və qaydada istifadəsi üçün torpaq sahəsi verilir.

Qaçqın və məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) mənzil və ya ev satın-alarkən əməliyyatlar notarial rüsumlar ödənilmədən icra edilir.

Maddə 21. Bu Qanunun qüvvəyə minməsi qaydası

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 21 may 1999-cu il**
**№ 668-IQ**

## “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, mərkəzi icra hakimiyyəti orqanları haqqında əsasnamələrin layihələri hazırlanarkən bu Fərmanın 1-ci bəndi ilə təsdiq edilən Nümunəvi Əsasnamə nəzərə alınsın.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 fevral 2006-cı il**
**№ 363**

**Mərkəzi icra hakimiyyəti orqanlarının**

## NÜMUNƏVİ ƏSASNAMƏSİ

### I. ÜMUMİ MÜDDƏALAR

1. Mərkəzi icra hakimiyyəti orqanı (bundan sonra - Orqan) qanunvericiliklə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun sahələrdə (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirir.

2. Orqan öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və həmin Orqan haqqında Əsasnaməni rəhbər tutur.

3. Orqan öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Orqan müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, kargüzarlıq xidmətinin gerbsiz möhürünə, müvafiq ştamplara və blanklara malikdir.[1]

5. Orqanın saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.[2]

6. Orqan Bakı şəhərində yerləşir.

### II. ORQANIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Orqanın fəaliyyət istiqamətləri aşağıdakılardır:
7.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;
7.2. müvafiq sahənin inkişafını təmin edir;
7.2-1. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir; [3]
7.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. ORQANIN VƏZİFƏLƏRİ

8. Orqan həmin Orqan haqqında Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:
8.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;[4]
8.2. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;
8.3. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;
8.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;
8.5. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;
8.6. qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada lisenziya, icazə və ya digər hüquqmüəyyənedici sənədlər vermək;[5]
8.7. öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;
8.8. müvafiq sahədə tələbatın ödənilməsini təmin etmək;
8.9. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiq edilməsini təmin etmək;
8.10. müvafiq sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;
8.11. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini görmək;
8.12. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;[6]
8.13. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;[7]
8.14. Orqanın strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.15. Orqanın fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. ORQANIN HÜQUQLARI

9. Orqan öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;[8]

9.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

9.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

9.4. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

9.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

9.6. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək;

9.7. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

9.8. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, internet saytı yaratmaq və ondan istifadə etmək;[9]

9.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. ORQANIN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Orqanın mərkəzi aparatı və onun strukturuna daxil olan qurumlar (regional orqanlar, ikili tabelikdə olan yerli bölmələr və sair) və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Orqanın vahid sistemini təşkil edir. Orqan öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.[10]

11. Orqanın işçilərinin ümumi say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Orqanın strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azər-

baycan Respublikası Prezidentinin tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti və ya Orqan tərəfindən müəyyən edilir. Orqanın strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.[11]

12. Orqanın fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (nazir, sədr və s.) rəhbərlik edir. Orqanın rəhbəri Orqana həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

13. Orqanın rəhbərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır.

Orqanın rəhbərinin müavini ona Orqanın rəhbəri tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

14. Orqanın rəhbəri:

14.1. Orqanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

14.2. Orqanın aparatının struktur bölmələrinin, tabeliyində olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumları istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 17-1-ci bəndində Orqanın kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;[12]

14.2-1. Orqanın tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini təsdiq edilmək üçün qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim edir;[13]

14.3. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Orqanın aparatının, yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;[14]

14.3-1. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurasının sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir.[15]

14.4. Orqanın mərkəzi aparatının işçilərini, yerli və digər orqanlarının rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, ikili tabelikdə olan yerli bölmələrin rəhbərlərini isə qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edilməsi üçün təqdimatlar verir, həmçinin digər işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;[16]

14.5. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Orqanda qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;[17]

14.6. Orqanın vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv

edir;

14.7. Orqanı təmsil edir.

15. Orqanda Orqanın rəhbərindən (kollegiyanın sədri), onun müavinindən (müavinlərindən), Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının (əgər vardırsa) rəhbərindən və Orqanın rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Orqanın kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.

16. Orqanın kollegiyasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

17. Orqanın kollegiyası öz iclaslarında Orqanın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

17-1. Orqanın kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

17-1.1. Orqanla digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

17-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Orqana tapşırılmış konkret normativ hüquqi aktlar;

17-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

17-1.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

17-1.5. Orqanın rəhbərinin təşəbbüsü ilə Orqanın kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

17-1.6. bu Əsasnamənin 17-1.1–17-1.5-ci yarımbəndlərinə uyğun olaraq Orqanın kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi.[18]

18. Orqanın kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Orqanın kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Orqanın kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

19. Orqanın kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və Orqanın rəhbəri tərəfindən təsdiq edilir.[19]

20. Orqanın kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Orqanın rəhbəri bu barədə bu Əsasnamənin 16-cı bəndinə əsasən müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Orqanın kollegiyasının üzvləri şəxsi fikirlərini bu Əsasnamənin 16-cı bəndinə əsasən müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan

Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

21. Orqanın kollegiyasının iclaslarına, zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.[20]

22. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün orqanda ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər. Elmi-texniki şura haqqında əsasnamə orqanın rəhbəri tərəfindən təsdiq edilir.[21]

23. Orqanda, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı orqanın və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.[22]

## Yerli icra hakimiyyətləri haqqında

## ƏSASNAMƏ

**Azərbaycan Respublikası**
**Prezidentinin**
**2012-ci il 6 iyun tarixli 648 nömrəli**
**Fərmanı ilə**
**TƏSDİQ EDİLMİŞDİR**

1. Ümumi müddəalar

1.1 Yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılır.

1.2. Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin I hissəsinə uyğun olaraq, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər.

1.3. Yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını (Naxçıvan Muxtar Respublikasında

həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını), Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tuturlar.

1.4. Yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətini vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, müvafiq ərazinin əhalisinin rifahını yaxşılaşdırmaq naminə iqtisadiyyatın, sosial və mədəni sahələrin inkişafının təmin edilməsi, qanunçuluq, aşkarlıq və ictimai rəyin nəzərə alınması prinsipləri əsasında qururlar.

1.5. Yerli icra hakimiyyətinin başçısı, müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat, inzibati ərazi dairələri üzrə nümayəndəliklər, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, yerli icra hakimiyyəti başçısının yanında olan dövlət büdcəsindən maliyyələşən qurumlar (bundan sonra - yanında olan qurumlar), tabeliyində olan dövlətə məxsus hüquqi şəxslər (bundan sonra - tabeliyində olan hüquqi şəxslər) və mərkəzi icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti istisna olmaqla) və onların yanında dövlət xidmətlərinin və dövlət agentliklərinin şəhər, rayon və şəhər rayonu qurumları, habelə mərkəzi icra hakimiyyəti orqanlarının sisteminə daxil olan və fəaliyyəti yalnız müvafiq inzibati ərazi vahidinin hüdudları ilə məhdudlaşan qurumlar (bundan sonra - mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları) yerli icra hakimiyyəti sisteminə daxildir və müvafiq ərazidə dövlət idarəçiliyini həyata keçirirlər. Bu bənddə nəzərdə tutulan mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları ikili tabelikdədir - onlar həm müvafiq mərkəzi icra hakimiyyəti orqanına, həm də yerli icra hakimiyyətinin başçısına tabedirlər. [1]

1.6 Müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat, inzibati ərazi dairələri üzrə nümayəndəliklər, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, yerli icra hakimiyyəti başçısının yanında olan qurumlar, habelə tabeliyində olan hüquqi şəxslər bilavasitə yerli icra hakimiyyətinin başçısına tabedirlər.

Rayon bölgüsü olan şəhərin icra hakimiyyəti başçısının yanında olan qurumların və tabeliyində olan hüquqi şəxslərin müvafiq şəhər rayonunun ərazisində mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən struktur bölmələri (mənzil-kommunal istismarı və mənzil istismarı sahələri də daxil olmaqla) ikili tabelikdədir – onlar həm şəhər icra hakimiyyətinin başçısına, həm də müvafiq şəhər

rayonunun icra hakimiyyətinin başçısına tabedirlər.

Yerli icra hakimiyyətinin başçısı müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarına ümumi rəhbərliyi həyata keçirir.

1.7. Yerli icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yerli icra hakimiyyəti başçısının yanında olan qurumların və yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxslərin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri (yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxslərin möhürləri istisna olmaqla) və müvafiq yerli icra hakimiyyətinin adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.8. Yerli icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi (Naxçıvan Muxtar Respublikasında – Naxçıvan Muxtar Respublikasının büdcəsi) və mövcud qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

2. Yerli icra hakimiyyətlərinin fəaliyyətinin təşkili

2.1. Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsinə uyğun olaraq, yerli icra hakimiyyətlərinin başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

2.2. Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.

2.3. Yerli icra hakimiyyətinin başçısı təyin edilən şəxsin ali təhsili olmalıdır. Yerli icra hakimiyyətlərinin başçıları eyni zamanda heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola, vəzifə maaşından və ona olan əlavələrdən və əmsallardan başqa məvacib ala bilməzlər. Yerli icra hakimiyyəti başçısının ikili vətəndaşlığına, başqa dövlətlər qarşısında öhdəliyinə yol verilmir, habelə o, din xadimi ola bilməz.

2.4. Yerli icra hakimiyyəti başçısının müavinini (müavinlərini) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə, Naxçıvan Muxtar Respublikasında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla, müvafiq yerli icra hakimiyyətinin başçısı vəzifəyə təyin və vəzifədən azad edir.

2.5. Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinini (müavinlərini) Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

2.6. Yerli icra hakimiyyəti başçısının müavinləri vəzifə bölgüsünə əsasən şəhərin, rayonun və şəhər rayonunun ərazisində icra-idarəetmə fəaliyyətini həyata keçirir, icra hakimiyyəti başçısının tapşırıqlarını yerinə yetirirlər.

2.7. Yerli icra hakimiyyətinin başçısı olmadıqda, məzuniyyətdə və ya ezamiyyətdə olduqda, xəstəliyi və ya digər səbəblərlə əlaqədar öz səlahiyyətlərini icra edə bilmədikdə, onun səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə, Naxçıvan Muxtar Respublikasında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla icra hakimiyyəti başçısının müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

2.8. Yerli icra hakimiyyəti başçısının aparatının, inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin strukturunu və ştat vahidlərinin sayını, yerli icra hakimiyyəti başçısının yanında olan qurumları və onların işçilərinin say həddini Azərbaycan Respublikasının Prezidenti, yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxsləri və onların işçilərinin say həddini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

2.9. Yerli icra hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə razılaşdırmaqla, öz aparatının struktur bölmələrinin ştat vahidlərini icra hakimiyyəti başçısı aparatının təsdiq olunmuş nümunəvi strukturu və ştat vahidlərinin sayı çərçivəsində bir bölmədən digərinə keçirə bilər.

2.10. Yerli icra hakimiyyəti başçısının aparatında, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və yerli icra hakimiyyəti başçısının yanında olan qurumlarda işləyən dövlət qulluqçularının qulluqkeçmə qaydası "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

2.10-1. Yerli icra hakimiyyətində, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı orqanın və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

2.10-2. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurasının sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini yerli icra hakimiyyətinin başçısı təsdiq edir.[2]

2.11. Yerli icra hakimiyyətinin başçısı şəhərin, rayonun və şəhər rayonunun iqtisadi, sosial-mədəni və digər yerli məsələlərinə baxılması və onların həllinə dair təkliflərin hazırlanması məqsədi ilə öz yanında daimi məşvərətçi orqan olan Şura yaradır. Şuranın tərkibi 15 nəfərədək, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı yanında Şuranın tərkibi isə 25 nəfərədək müəyyən edilir.

2.12. Yerli icra hakimiyyətinin başçısı yanında Şuranın tərkibinə yerli icra

hakimiyyətinin başçısı, yerli icra hakimiyyəti başçısının müavinləri, Bakı və Gəncə şəhər icra hakimiyyətləri başçılarının yanında şuraların tərkibinə isə həm də şəhər rayonları icra hakimiyyətlərinin başçıları daxildirlər. Şuranın tərkibinə həmçinin yerli icra hakimiyyəti başçısının aparatının şöbə müdirləri, yanında olan qurumların və mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarının (bu Əsasnamənin 1.5-ci bəndində istisna edilən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumları da daxil olmaqla) rəhbərləri, habelə şəhərin, rayonun və şəhər rayonunun ərazisində yerləşən idarələrin, təşkilatların və müəssisələrin rəhbərləri daxil edilə bilərlər. Şuranın fərdi tərkibini yerli icra hakimiyyətinin başçısı təsdiq edir.

2.13. Yerli icra hakimiyyəti başçısının yanında Şuranın iclasları ayda iki dəfədən az olmayaraq keçirilir. Şuranın iclaslarını yerli icra hakimiyyətinin başçısı, yerli icra hakimiyyətinin başçısı olmadıqda, onu əvəz edən müavini çağırır və iclasa sədrlik edir. Şuranın iclasları onun üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qəbul edilmiş qərarlar tövsiyə xarakteri daşıyır və protokolla rəsmiləşdirilir.

2.14. Şuranın iclaslarında qəbul edilmiş qərarların icrasını təmin etmək üçün yerli icra hakimiyyətinin başçısı müvafiq sərəncam və ya əmr verə bilər.

2.15. Yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və yerli icra hakimiyyəti başçısının yanında olan qurumlarda inzibati vəzifə tutan işçiləri, müvafiq nümayəndələrin və qurum rəhbərlərinin təqdimatı ilə, yerli icra hakimiyyətinin başçısı "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vəzifəyə təyin və vəzifədən azad edir.

2.16. Yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və yerli icra hakimiyyəti başçısının yanında olan qurumlarda işləyən dövlət qulluqçularına dövlət qulluğunun ixtisas dərəcələri müvafiq olaraq nümayəndələrin və qurum rəhbərlərinin təqdimatı ilə yerli icra hakimiyyətinin başçısı tərəfindən verilir.

2.17. Yerli icra hakimiyyəti başçısının tabeliyində olan hüquqi şəxslərin işçilərini həmin qurumların rəhbərləri vəzifəyə təyin və vəzifədən azad edirlər.

## Normativ hüquqi aktlar haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Bu Konstitusiya Qanununda istifadə olunan əsas anlayışlar

1.0. Bu Konstitusiya Qanununda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. normativ hüquqi akt – tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd;

1.0.2. qanunvericilik aktları – Azərbaycan Respublikasının qanunvericilik sistemini təşkil edən normativ hüquqi aktlar;

1.0.3. normativ xarakterli akt – bu Konstitusiya Qanununun 4.1-ci maddəsində müəyyən edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd;[1]

1.0.4. hüquqi akt – normativ hüquqi akt, normativ xarakterli akt və ya qeyri-normativ hüquqi akt;

1.0.5. qanunvericiliyin sistemləşdirilməsi – normativ hüquqi aktların nizama salınması, onların daxili uzlaşdırılmış vahid sistemə çevrilməsi üzrə fəaliyyət;

1.0.6. inkorporasiya – normativ hüquqi aktların məzmunu dəyişdirilmədən müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilməsi;

1.0.7. məcəlləşdirmə – normativ hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ hüquqi aktlarda birləşdirilməsi;

1.0.8. qanunlar külliyyatı – Azərbaycan Respublikasının qanunvericiliyini özündə birləşdirən sistemləşdirilmiş toplu;

1.0.9. qanunvericilikdə boşluqlar – konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının olmaması;

1.0.10. qanunun analogiyası – konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının tətbiq edilməsi;

1.0.11. hüququn analogiyası – yalnız konkret ictimai münasibətləri deyil, həm də oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə qanunvericiliyin məğzinin, hüququn ümumi prinsiplərinin və ya hüququn konkret sahələrinə aid prinsiplərin tətbiq edilməsi;

1.0.12. normativ hüquqi aktların kolliziyası – eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların ziddiyyəti (uyğunsuzluğu);

1.0.13. normayaratma fəaliyyəti – normativ hüquqi aktların hazırlanması, ekspertizası, qəbul olunması, onlarda dəyişikliklər edilməsi, onların şərh edil-

məsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi üzrə fəaliyyət;

1.0.14. normayaratma fəaliyyətinin subyekti – normayaratma fəaliyyətində iştirak edən orqanlar (şəxslər);

1.0.15. qanunvericilik təşəbbüsü – Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsi ilə müəyyən edilmiş subyekt tərəfindən qanun layihəsinin Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə rəsmən təqdim edilməsi;

1.0.16. normativ hüquqi aktın rəsmiləşdirilməsi – normativ hüquqi aktın səlahiyyətli şəxs tərəfindən imzalanması və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi;

1.0.17. normayaratma orqanı – normativ hüquqi aktları qəbul etmək səlahiyyətinə malik olan dövlət orqanı;

1.0.18. normayaratma prosesi – dövlət orqanının normativ hüquqi aktların hazırlanması, qəbul olunması və qüvvəyə minməsi üzrə normayaratma fəaliyyəti;

1.0.19. normayaratma texnikası – normativ hüquqi aktların layihələrinin hazırlanması qaydalarının sistemi;

1.0.20. normativ hüquqi aktın açıqlanması – normativ hüquqi aktın rəsmi dövri mətbu nəşrdə dərc edilməsi, digər kütləvi informasiya vasitələrinin və ya başqa mümkün kommunikasiya vasitələrinin köməyi ilə rəsmi yayılması yolu ilə ümumi diqqətə çatdırılması;

1.0.21. lokal normativ hüquqi akt – qüvvəsi bir və ya bir neçə dövlət orqanının çərçivəsi ilə məhdudlaşan normativ hüquqi akt;

1.0.22. texniki normativ hüquqi aktlar – texniki reqlamentlər, bərqərar olmuş təcrübəni əks etdirən texniki məcəllələr, standartlar, o cümlədən Azərbaycan Respublikasının dövlət standartları, sahə standartları, texniki şərtlər, aviasiya qaydaları, zoogigiyena, baytarlıq, baytarlıq-sanitariya normaları və qaydaları, sanitariya normaları və qaydaları, gigiyena normativləri, farmakopeya məqalələri və normaları, yanğın təhlükəsizliyi qaydaları, texniki, sənaye, nüvə və radiasiya təhlükəsizliyinin təmin edilməsi normaları və qaydaları, təhlükəli yüklərin təhlükəsiz daşınması normaları və qaydaları, yerin təkinin qorunması və səmərəli istifadəsi normaları və qaydaları, ixtisaslaşdırılmış məlumat kitabçaları, texniki-iqtisadi məlumatların dövlət təsnifatı, dövlət statistika müşahidələrinin formaları və onların doldurulmasına dair göstərişlər, statistik göstəricilərin formalaşdırılması və hesablanması qaydaları, dövlət statistika müşahidələrinin təşkil edilməsinə və aparılmasına dair təlimatlar, idarə hesabat formaları və onların doldurulmasına dair göstərişlər, daşınmaz maddi tarixi-mədəni dəyərlərin qorunması zonalarının layihələri, Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə texniki normativ hüquqi aktlara aid edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada təsdiq edilmiş (qüvvəyə minmiş) digər normativ hüquqi aktlar;

1.0.23. normativ hüquqi aktda dəyişikliklərin edilməsi – normativ hüquqi akta onun müddəalarının mətnini dəyişən və ya əlavə normaların daxil edilməsi;

1.0.24. normativ hüquqi aktdan sui-istifadə imkanı – normativ hüquqi aktda korrupsiya təzahürləri üçün şəraitin yaranmasına kömək edən müddəaların mövcudluğu;

1.0.25. diskresion səlahiyyətlər – orqanın (şəxsin) öz mülahizəsinə görə tətbiq edə biləcəyi səlahiyyətləri;

1.0.26. dispozitiv imkan – orqanın (şəxsin) öz seçimi ilə davranış imkanı;

1.0.27. normativ hüquqi aktın hüquqi qüvvəsi – normativ hüquqi aktın müvafiq ictimai münasibətlərə tətbiqinin məcburiliyini, habelə onun digər normativ hüquqi aktlar barəsində üstünlüyünü və ya tabeliyini müəyyən edən xarakteristika.

Maddə 2. Normativ hüquqi aktlar və onların hüquqi qüvvəsi

2.1. Normativ hüquqi aktların növləri Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi ilə müəyyən edilir.

2.2. Normativ hüquqi aktların hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin II, III, IV, V, VI hissələri və 151-ci maddəsi ilə müəyyən edilir.

2.3. Referendumla qəbul edilmiş akt (bundan sonra – referendum aktı), qanun, fərman və ya digər normativ hüquqi akt Azərbaycan Respublikasının Konstitusiyası ilə ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikasının Konstitusiyası tətbiq edilir.

2.4. Qanun, fərman və ya digər normativ hüquqi akt referendum aktı ilə ziddiyyət təşkil etdikdə referendum aktı tətbiq edilir.

2.5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülki hüquq normalarını əks etdirən digər məcəllə və qanunlarla ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikasının Mülki Məcəlləsi tətbiq edilir.

2.6. Fərman və ya digər normativ hüquqi akt qanunla ziddiyyət təşkil etdikdə qanun tətbiq edilir.

2.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları fərmanla ziddiyyət təşkil etdikdə fərman tətbiq edilir.

2.8. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı tətbiq edilir.

2.9. Nizamnamələrin, əsasnamələrin, təlimatların, reqlamentlərin və qaydaların hüquqi qüvvəsi onları təsdiq edən normativ hüquqi aktın hüquqi qüvvəsi ilə müəyyən edilir.

2.10. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüqu-

qi aktlarının hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin V hissəsi və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 49-cu maddəsinin II, III, IV və V hissələri ilə müəyyən edilir.

Maddə 3. Qeyri-normativ hüquqi aktlar və onların hüquqi qüvvəsi

3.1. Konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan hüquqi aktlar qeyri-normativ hüquqi aktlar sayılır.

3.2. Qeyri-normativ hüquqi aktlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.

3.3. Qeyri-normativ hüquqi aktlara aşağıdakılar aiddir:

3.3.1. Azərbaycan Respublikası Milli Məclisinin qərarları;

3.3.2. Azərbaycan Respublikası Prezidentinin sərəncamları;

3.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları;

3.3.4. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların aktları;

3.3.5. bu maddənin birinci hissəsinə uyğun olaraq qeyri-normativ hesab edilən digər hüquqi aktlar.

Maddə 4. Normativ xarakterli aktlar və onların hüquqi qüvvəsi

4.1. Azərbaycan Respublikasının normativ xarakterli aktları aşağıdakılardır:

4.1.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları;

4.1.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları;

4.1.3. maliyyə bazarları tənzimləyicisinin qərarları;[2]

4.1.4. Məhkəmə-Hüquq Şurasının qərarları;

4.1.5. Milli Televiziya və Radio Şurasının qərarları;

4.1.6. yerli özünüidarə orqanlarının qərarları;

4.1.7. yerli icra hakimiyyəti orqanlarının qərarları.

4.2. Normativ xarakterli aktlar onların icra olunmamasına görə məsuliyyət müəyyən edə bilməz.

4.3. Normativ xarakterli aktlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.

4.4. Bu Konstitusiya Qanununun 4.1.1-ci maddəsində nəzərdə tutulan normativ xarakterli aktlar istisna olmaqla, digər normativ xarakterli aktlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə ziddiyyət təşkil edə bilməz.

Maddə 5. Bu Konstitusiya Qanununun tətbiq dairəsi

5.1. Bu Konstitusiya Qanunu Azərbaycan Respublikasının, o cümlədən Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüquqi aktları-

nın hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edir.

5.2. Bu Konstitusiya Qanunu referendum aktlarının hazırlanması, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarına şamil edilir.

5.3. Bu Konstitusiya Qanunu aşağıdakı aktların rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarına şamil edilir:

5.3.1. beynəlxalq müqavilələr;

5.3.2. texniki normativ hüquqi aktlar;

5.3.3. lokal normativ hüquqi aktlar;

5.3.4. normativ xarakterli aktlar.

Maddə 6. Normativ hüquqi aktlar sistemi

Normativ hüquqi aktlar onların iyerarxiyasının müəyyən edilməsi, qarşılıqlı uzlaşdırılması, habelə daxili uzlaşdırma ilə səciyyələnən və ictimai münasibətlərin hüquqi tənzimlənməsini təmin edən Azərbaycan Respublikasının müvafiq qanunlar külliyyatının hazırlanması yolu ilə vahid sistemə salınır.

Maddə 7. Dövlət orqanlarının qəbul etdikləri normativ hüquqi aktlar barəsində hüquq varisliyi

7.1. Normativ hüquqi aktlar qəbul etmək hüququna malik olan dövlət orqanı yenidən təşkil edildikdə onun hüquq varisinə normativ hüquqi aktları qəbul etmək hüququ ilə yanaşı, səlahiyyətləri daxilində, əvvəllər qəbul edilmiş normativ hüquqi aktlarda dəyişikliklər etmək, həmin aktların qüvvəsini dayandırmaq və ləğv edilməsi səlahiyyəti verilir.

7.2. Dövlət orqanı ləğv edildikdə və ya onun hüquq varisi müvafiq normativ hüquqi aktları qəbul etmək hüququna malik olmamaqla yenidən təşkil edildikdə, əvvəllər qəbul edilmiş normativ hüquqi aktlarda dəyişikliklər etmək, həmin aktların qüvvəsini dayandırmaq və ləğv edilməsi səlahiyyəti yuxarı və ya digər dövlət orqanına verilir.

7.3. Müvafiq normativ hüquqi aktları qəbul edən dövlət orqanının statusunun dəyişdirilməsi əvvəllər qəbul edilmiş normativ hüquqi aktların qüvvəsinin itirilməsinə səbəb olmur.

7.4. Dövlət orqanının adı dəyişdirildikdə və ya bu orqan adının dəyişdirilməsinə səbəb olan birləşmə, qoşulma, çevrilmə yolu ilə yenidən təşkil edildikdə, əvvəlki adı əks etdirən normativ hüquqi aktlarda addəyişmə hissəsində dəyişikliklər edilməlidir. Belə dəyişikliklər edilənədək əvvəlki adı əks etdirən normativ hüquqi aktlar adı dəyişdirilmiş (yeni yaradılmış) orqana tam həcmdə şamil olunur.

7.5. Dövlət orqanı bölündükdə və ya ayrıldıqda onun yenidən təşkili haqqında qərarda səlahiyyətlərin aydın bölgüsü nəzərdə tutulmalıdır və həmin qərar

hansı normativ hüquqi aktların yeni yaradılmış hansı dövlət orqanlarına hansı həcmdə şamil edilməsini müəyyənləşdirməyə imkan verməlidir. Bu zaman bölünmə və ya ayrılma haqqında qərarı qəbul etmiş dövlət orqanı üç ay müddətində müvafiq normativ hüquqi aktlarda bütün zəruri dəyişikliklər edilməsini təmin etməlidir.

Maddə 8. Normayaratma fəaliyyətinin əsas prinsipləri

8.0. Normayaratma fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsində göstərilən prinsiplərlə yanaşı, aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

8.0.1. Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluq və qanunların üstünlüyü;

8.0.2. aşağı dövlət orqanlarının aktlarının yuxarı dövlət orqanlarının aktlarına uyğunluğu;

8.0.3. beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyü;

8.0.4. mütənasiblik;

8.0.5. dövlət orqanlarının vətəndaşlar qarşısında cavabdehliyi;

8.0.6. normayaratma fəaliyyətinin demokratikliyi və şəffaflığı;

8.0.7. normativ hüquqi aktların ziddiyyətsizliyi;

8.0.8. insanların hüquq və azadlıqlarının, onların qanuni maraqlarının müdafiəsi və sosial ədalət;

8.0.9. ictimai münasibətlərin hüquqi tənzimlənməsinin sistemliliyi və kompleksliyi.

Maddə 9. Normayaratma orqanlarının fəaliyyətində aşkarlıq

9.1. Normayaratma orqanlarının fəaliyyətində aşkarlıq aşağıdakı vasitələrlə təmin edilir:

9.1.1. normayaratma orqanlarının fəaliyyəti və onların qəbul etdikləri normativ hüquqi aktlar haqqında fiziki və hüquqi şəxslərin məlumatlandırılması;

9.1.2. normativ hüquqi aktların rəsmi nəşrlərdə, digər kütləvi informasiya vasitələrində dərc edilməsi və ya onların digər üsullarla açıqlanması;

9.1.3. normativ hüquqi aktların layihələrinin normayaratma orqanlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsi.

9.2. Normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsi açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla bilər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 dekabr 2010-cu il**

**№ 21-IVKQ**

# Polis haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Əsas anlayışlar

Bu qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

polis – Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş, hüquq-mühafizə orqanıdır;

polis əməkdaşı – polis orqanlarında müəyyən vəzifə tutan və bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur;

tutulma – Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılmasıdır;

həbs – inzibati xətanın törədilməsinə görə inzibati tənbeh kimi və ya qətimkan tədbiri qismində Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığım müvəqqəti məhdudlaşdırmaqla müvafiq həbsdə saxlanılma yerində saxlanılmasıdır;[1]

fiziki qüvvə – insan əzələlərinin gərilməsi nəticəsində yaranan güc vasitəsi ilə mexaniki təsir göstərmək qabiliyyətidir;

xüsusi vasitələr – dəyənəklər, əl-qolu bağlama və elektroşok vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatın məcburi dayandırma vasitələri və Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş digər xüsusi vasitələrdir;[2]

yaşayış yeri – bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutu və ya uzaq səfərdə olan qatarın kupesidir (bunlardan əlavə bu Qanunun məqsədləri üçün yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, çay və dəniz gəmisini əhatə edir).[3]

Maddə 2. Polis haqqında qanunvericilik

Polis haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiya-

sından, bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 3. Polis təyinatı və əsas vəzifələri

I. Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd əməllərdən qorumaqdan ibarətdir.

II. Polisin əsas vəzifələri aşağıdakılardır:

1) ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək;

2) cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək;

2-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində fəaliyyət göstərmək;[4]

3) şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mülkiyyəti hüquqa zidd əməllərdən qorumaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda dövlət idarələrini və digər obyektləri mühafizə etmək;

5) törədilmiş cinayətləri açmaq;

6) cinayətlərin qeydiyyatını və uçotunu aparmaq;

7) cinayətkarları aşkara çıxarmaq və tutmaq;

8) səlahiyyətlərinə aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparmaq;

9) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati tənbeh və ya başqa təsir tədbirləri tətbiq etmək, tutulmuş və inzibati xətaya görə həbsə alınmış şəxsləri saxlamaq;[5]

10) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

11) kriminalistik və başqa tədqiqatların aparılmasını təmin etmək;

12) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətini müvafiq icra hakimiyyəti orqanı ilə birgə həyata keçirmək;[6]

13) hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq məqsədi ilə müqavilələr bağlamaq;

14) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş icazə-qeydiyyat işlərini aparmaq;

15) yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət etmək;

16) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;

17) yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotu sistemini təşkil etmək.

III. Polisi bu Qanunla müəyyən edilməmiş vəzifələrin icrasına cəlb etmək qadağandır.

Maddə 4. Polisin fəaliyyət prinsipləri və istiqamətləri

I. Polis insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq prinsipləri əsasında fəaliyyət göstərir.

II. Polisin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

1) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;

2) cinayətlərin və digər xətaların qarşısının alınması və açılması;[7]

3) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi

Maddə 5. İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti

I. Polis öz vəzifələrini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyur.

II. Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələnilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır.

III. Şəxsin hüquq və azadlıqlarına qarşı polis tərəfindən bu Qanunla nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə yalnız Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş əsaslarla və qaydada yol verilir.

IV. Hər hansı şəxsin hüquq və azadlıqları məhdudlaşdırıldıqda polis əməkdaşı məhdudlaşdırmanın əsaslarını və səbəblərini, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrini ona izah etməlidir.

V. Polis tutulan və ya həbsə alınan şəxsin hüquqlarının həyata keçirilməsini təmin edir.

VI. Şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər görməyə, vurulan ziyanı ödəməyə borcludur.

VII. Polis əməkdaşlarının qanuna zidd hərəkətləri nəticəsində vurulmuş ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir.

Maddə 6. Polisin fəaliyyətində aşkarlıq

I. Polis öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada dövlət orqanlarına və əhaliyə məlumat verir.

II. Polisə dövlət, ailə, peşə və kommersiya sirrini, prokurorun, müstəntiqin və ya məhkəmənin müvafiq icazəsi olmadan ibtidai və məhkəmə istintaq materiallarını, habelə insanların şəxsi həyatına, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə toxunan, onların ləyaqətini alçalda bilən məlumatları açıqlamaq qadağandır.[8]

III. Fiziki və hüquqi şəxslər haqqında polisin yaydığı məlumatların həqiqətə uyğun olmadığı müəyyənləşdirildikdə polis bir ay müddətində həmin məlumatları onların yayıldığı formada təkzib etməlidir.

Maddə 7. Polisin qanuni tələblərinin icrasının məcburiliyi

I. Polis əməkdaşı bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri yerinə yetirərkən dövlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edir.

II. Azərbaycan Respublikasının ərazisində olan bütün hüquqi və fiziki şəxslər polis əməkdaşının qanuni tələblərini icra etməlidirlər.

III. Polis əməkdaşının qanuni tələblərinə tabe olmamaq, ona müqavimət göstərmək və zor işlətmək və ya onu təhqir etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Maddə 8. Polisin fəaliyyətinə müdaxilənin yolverilməzliyi

Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, hər hansı şəxsin istənilən səbəbdən polisin qanuni fəaliyyətinə məhdudiyyət qoyması, təsir və müdaxilə etməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə səbəb olur.

Maddə 9. Polisin tərkib hissələri və tabeliyi

Polis xidmətlərinin yaradılması, yenidən qurulması və ləğvi, polisin fəaliyyətinə rəhbərlik, polis orqanlarında vəzifəyə təyin və vəzifədən azad etmə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

Maddə 10. Polisin vəzifələrinin yerinə yetirilməsində dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirakı[9]

I. Dövlət hakimiyyəti orqanları və yerli özünüidarətmə orqanları polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərməlidirlər.

II. Hər bir şəxs polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərə bilər. Polis, üzərinə düşən vəzifələri yerinə yetirmək üçün, heç kəsi əməkdaşlığa məcburi cəlb edə bilməz.

III. Hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində xəbəri olan hər bir şəxs bu barədə polisə məlumat verməlidir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda bu məlumatların verilməməsi cinayət məsuliyyətinə səbəb olur.

IV. Polis əməkdaşı olmayan dövlət hakimiyyəti orqanlarının əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə bu sahədə polisin vəzifələri onların da üzərinə qoyulur. Belə olduğu halda polis əməkdaşları üçün nəzərdə tutulan hüquqi, maddi və sosial təminatlar onlara da şamil edilir.

V. Yaşayış yeri üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan sosial problemlərin birgə həlli üçün ayrı-ayrı şəxslər könüllülük əsasında polis orqanları tərəfindən ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilə bilərlər. İctimai asayişin və təhlükəsizliyin təmin olunmasında könüllü olaraq iştirak edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi üçün yerli polis orqanlarının yanında ictimai şuralar yaradıla bilər.

İctimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyət aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1) hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə və təbliğat işinin aparılması;

2) narkomaniyanın və alkoqolizmin, həmçinin yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;

3) cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək məqsədilə zəruri məlumatların polis orqanlarına verilməsi.

Cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, psixi xəstəliklə, narkomanlıqla, alkoqolizmlə bağlı müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyətə cəlb edilə bilməzlər.

Maddə 11. Polisin beynəlxalq əlaqələri

Azərbaycan Respublikasının polis orqanlarının xarici ölkələrin polis orqanları və beynəlxalq polis təşkilatları ilə əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, xarici ölkələrin polis orqanları ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanın bağladığı müqavilələr, habelə Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq polis təşkilatlarının nizamnamələri və əsasnamələri ilə tənzimlənir.

Maddə 12. Polisin fəaliyyətinə nəzarət

I. Bu qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

II. Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində müvafiq icra hakimiyyəti orqanı, idarədənkənar nəzarəti isə müvafiq icra hakimiyyəti həyata

keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirir.

## II fəsil
## POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ

Maddə 13. Polis əməkdaşının ümumi vəzifələri

I. Polis əməkdaşının ümumi vəzifələri aşağıdakılardır:

1) Hazırlanan cinayət və ya digər hüquqpozmaların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görmək;

2) cinayət və ya digər hüquqpozmalar törətmiş şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlər görmək;

3) cinayətin baş verdiyi hadisə yerinin mühafizəsini təşkil etmək və şahidlərin müəyyənləşdirilməsi üçün tədbirlər görmək;

4) cinayətdən və digər hüquqpozmalardan, bədbəxt hadisədən zərərçəkmişlərə, həmçinin köməksiz, həyatı və sağlamlığı üçün təhlükəli vəziyyətə düşmüş şəxsə kömək və ilk tibbi yardımın göstərilməsini təmin etmək;

5) tutulmuş və ya həbsə alınmış şəxsin hüquqlarının və qanuni mənafelərinin pozulmamasını təmin etmək;

6) təbii fəlakətlər, qəzalar və digər fövqəladə hallar baş verdikdə insanların və əmlakın xilasetmə tədbirlərində iştirak etmək;

6-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınmasına yönəldilmiş tədbirlər həyata keçirmək;[10]

7) səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət etmək.

II. Polis əməkdaşları öz vəzifələrini həyata keçirərkən ayrıca əmr və ya göstəriş gözləmədən əməkdaşlıq etməyə, qarşılıqlı fəaliyyət göstərməyə və bir-birinə hərtərəfli kömək etməyə borcludurlar.

III. Hər hansı şəxsə müraciət edərkən polis əməkdaşı adını, soyadını, rütbəsini bildirməli və xidməti vəsiqəsini göstərməklə özünü təqdim etməlidir.

IV. Polis əməkdaşı öz səlahiyyətlərini həyata keçirərkən bilavasitə və birbaşa rəisinə tabedir.

V. Polis əməkdaşı həmçinin tabeçilik üzrə yuxarı rəisin əmr və göstərişlərini icra etməyə borcludur.

VI. Hər hansı vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə, polis əməkdaşı xidmət üzrə tabeliyi olmayan polisin yuxarı rütbəli şəxsinin əmr və göstərişlərini icra etməyə borcludur.

VII. Polis əməkdaşı açıq-aşkar qanuna zidd əmr və ya göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu barədə polisin rəhbərliyinə məlumat verməlidir.

VIII. Açıq-aşkar qanunsuz əmri və ya göstərişi icra etməmək məsuliyyətə səbəb olmur. Belə əmri və ya göstərişi icra edən polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

**Azərbaycan Respublikasının prezidenti**
**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 28 oktyabr 1999-cu il**
**№ 727-IQ**

**Ədliyyə orqanlarının inkişafı haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını zəruri edir.

Son illər ərzində hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha optimal şəkildə təşkil edilməsini, əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirir. Bütün bunlar ədliyyə sisteminin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir.

Vətəndaşların ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturunda aşağıdakı yeni qurumlar yaradılsın:

1.1. normativ hüquqi aktların hüquqi ekspertizalarının yaxşılaşdırılması və layihələrinin hazırlanması işinin təkmilləşdirilməsi məqsədilə Qanunvericilik

və hüquqi təbliğat və Normativ hüquqi aktların hüquqi ekspertizası, uçotu və qeydiyyatı idarələrinin əsasında Qanunvericilik baş idarəsi;

1.2. dövlət qeydiyyatı işinin sadələşdirilməsi, fiziki və hüquqi şəxslərə göstərilən notariat xidmətinin səmərəliliyinin artırılması məqsədilə Hüquqi şəxslərin dövlət qeydiyyatı və Notariat və vətəndaşlıq vəziyyəti aktları idarələrinin əsasında Qeydiyyat və notariat baş idarəsi;

1.3. ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilmələri üçün peşə səviyyəsinin yüksəldilməsi, habelə ədliyyə orqanları işçilərinin, müvafiq hakimlərin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Hüquq Tədris Mərkəzi əsasında Ədliyyə Akademiyası;

1.4. hüquqi maarifləndirmə və informasiya təminatı işinin yaxşılaşdırılması, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi, qeyri-hökumət təşkilatları ilə əlaqələrin genişləndirilməsi məqsədilə İnsan hüquqları və ictimaiyyətlə əlaqədar idarəsi;

1.5. yerlərdə ədliyyə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara nəzarətin gücləndirilməsi, əhalinin ədliyyə orqanlarına müraciət etmə imkanlarının asanlaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəsinin artırılması məqsədilə regional ədliyyə şöbələri;

1.6. hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə şöbələri və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanları əsasında hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatı işinin sadələşdirilməsi məqsədilə yerlərdə rayon (şəhər) qeydiyyat şöbələri.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturuna daxil olan Məhkəmə Qərarlarının İcrası Baş İdarəsi və Məhkəmə Ekspertizası Elmi Tədqiqat, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu müvafiq olaraq Penitensiar xidmət və Məhkəmə Ekspertizası Mərkəzi adlandırılsınlar.

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturu təsdiq edilsin (Əlavə № 1).

4. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mərkəzi aparatının işçilərinin say həddi 420 ştat vahidi müəyyən edilsin.[1]

5. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollegiyasının tərkibi təsdiq edilsin (Əlavə № 2).

6. Azərbaycan Respublikasının ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı təsdiq edilsin (Əlavə № 3).

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki:

7.1. qanunvericilik layihələrinin hazırlanması işinin təkmilləşdirilməsini, normativ hüquqi aktların və normativ xarakterli aktların internet informasiya resursunun yaradılmasını, onun sistematik yeniləşdirilməsini təmin etsin;

7.2. notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmət işinin müasir tələblər səviyyəsində qurulmasını təmin etsin;

7.3. Ədliyyə Akademiyasının Nizamnaməsinin layihəsini hazırlayıb təsdiq olunması üçün üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. ədliyyə sistemində yüksək peşəkar kadr korpusunun formalaşdırılmasını, ədliyyə orqanları işçilərinin peşə təhsili və hazırlanması sisteminin təkmilləşdirilməsini, işçilərin fəaliyyətinin qiymətləndirilməsini, ədliyyə orqanlarına qəbulun şəffaf prosedurlarla həyata keçirilməsini təmin etsin;

7.5. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun .7-ci maddəsində nəzərdə tutulmuş ədliyyə orqanlarına qulluğa qəbul edilmə ilə bağlı müsabiqənin və müsahibənin keçirilməsi qaydaları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[2]

7.6. insan hüquqlarının müdafiəsi mexanizmlərin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.7. qəbul olunan normativ hüquqi aktların izahı və əhalinin hüquq maarifləndirilməsi işinin müasir tələblər səviyyəsində qurulması üçün tədbirlər görsün;

7.8. regional ədliyyə şöbələrinin fəaliyyət istiqamətlərini və səlahiyyətlərini müəyyən etsin;

7.9. Azərbaycan Respublikası Əhalisinin dövlət reyestrinin formalaşdırılması və inkişafı üçün müvafiq tədbirlər görsün;

7.10. regionlarda yeni penitensiar müəssisələrin yaradılması məsələsini həll etsin;

7.11. elm və texnikanın son nailiyyətlərindən istifadə etməklə məhkəmə ekspertizası növlərinin genişləndirilməsi və Məhkəmə Ekspertizası Mərkəzində elmi tədqiqat işinin səmərəliliyinin artırılması üçün tədbirlər görsün;

7.12. penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, məhkumların hüquqlarına riayət olunması, onların cəmiyyətə reinteqrasiya olunması prosesinə kömək göstərilməsi üçün tədbirlər görsün;

7.13. məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması üçün təsirli tədbirlər görsün;

7.14. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrlə tənzimlənən və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 17 avqust 2006-cı il**
**№ 446**

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əsasnamə"si təsdiq edilsin (Əlavə 1).

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Strukturu" təsdiq edilsin (Əlavə 2).

3. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları" təsdiq edilsin (Əlavə 3).

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 655 ştat vahidi müəyyən edilsin.[1]

5. "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən aşağıdakı xidmətlərin həyata keçirilməsi təmin edilsin:

5.1. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı:

5.1.1. doğumun qeydə alınması;

5.1.2. ölümün qeydə alınması;

5.1.3. nikahın qeydə alınması;

5.1.4. nikahın pozulmasının qeydə alınması;

5.1.5. övladlığa götürmənin qeydə alınması;

5.1.6. atalığın müəyyən edilməsinin qeydə alınması;

5.1.7. adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması;

5.1.8. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin (təkrar şəhadətnamələrin) verilməsi;

5.2. notariat fəaliyyəti;

5.3. şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi;

5.4. ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi;

5.5. sürücülük vəsiqələrinin dəyişdirilməsi;

5.6. məhkumluq barədə arayışların verilməsi;

5.6-1. yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilmə-

si;[2]

5.7. daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı:

5.7.1. mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi;[3]

5.7.2. daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi;[4]

5.7.3. fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi;[5]

5.8. kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı;

5.9. hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi;

5.10. gömrük bəyannamələrinin, gömrük rəsmiləşdirilmələri üçün sənədlərin qəbulu;

5.11. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri üçün iş icazələrinin verilməsi;[6]

5.11-1. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması;[7]

5.12. torpaq kadastrı məlumatları barədə arayışların verilməsi;

5.13. əmək pensiyalarının təyin edilməsi;

5.14. dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi;

5.15. yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması;

5.16. xaricdə istifadə üçün nəzərdə tutulan sənədlərə dair Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən apostil verilməsi üçün sənədlərin qəbulu;[8]

5.17. taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi, taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə "Fərqlənmə nişanı"nın verilməsi;[9]

5.18. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi.[10]

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, Vergilər Nazirliyinə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, Dövlət Gömrük Komitəsinə, Dövlət Miqrasiya Xidmətinə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Əmək və Əhalinin Sosial Müdafiəsi

Nazirliyinə və Milli Arxiv İdarəsinə tapşırılsın ki:[11]

6.1. bu Fərmanın 5-ci hissəsində göstərilən xidmətlərin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin həmin mərkəzlərdə onlar üçün müəyyən etdiyi yerləri zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etsinlər;

6.2. mərkəzlərdə xidmət göstərəcək əməkdaşlarının təyinatı zamanı onların nəzakətli, məsuliyyətli, peşəkar olmaları, ünsiyyət qurmaq və izah etmək bacarıqları nəzərə alınsın.

7. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Xüsusi Dövlət Mühafizə Xidməti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərində xidmət göstərəcək dövlət orqanlarının informasiya sistemləri arasında əlaqələndirməni təmin etmək məqsədi ilə həmin mərkəzləri rabitə kanalları ilə təmin etsinlər.[12]

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 7-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə maliyyə vəsaitinin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

9.1. bu Fərmanın icrasına nəzarəti həyata keçirsin;

9.2. "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərə görə ödənilən dövlət rüsumlarının 30 faizinin həmin mərkəzlərin saxlanılması, mərkəzlərdə fəaliyyət göstərən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə ayrılması barədə müvafiq təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

10.1. bu Fərmanın 6-cı hissəsində qeyd edilən icra hakimiyyəti orqanları tərəfindən "ASAN xidmət" mərkəzlərində xidmət göstərilməsi üçün həmin orqanlara əlavə ştat vahidlərinin ayrılması barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.2. daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların "ASAN xidmət" mərkəzlərində quraşdırılacaq xüsusi terminallar vasitəsilə real vaxt rejimində əldə edilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.3. üç ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.4. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin nor-

mativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 sentyabr 2012-ci il**
**№ 706**

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında

## ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (bundan sonra – Dövlət Agentliyi) Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin (bundan sonra – mərkəzlər) vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət qurumları) əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.[13]

1.2. Dövlət Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası

Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Dövlət Agentliyi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Dövlət Agentliyi öz fəaliyyətini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəffaflıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında qurur.

2. Dövlət Agentliyinin fəaliyyət istiqamətləri

2.1. Dövlət Agentliyinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. mərkəzlərin vahid şəkildə idarə edilməsini, həmin mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir;[14]

2.1.2. mərkəzlərdə göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə nəzarət edir;

2.1.3. mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələrin aparılmasını təmin edir;

2.1.4. mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarət edir;

2.1.5. mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün etik kursların təşkilini, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin edir;

2.1.6. "ASAN xidmət indeksi"ni təşkil edən parametrləri rəhbər tutmaqla, dövlət xidmətlərinin qiymətləndirilməsini həyata keçirir, habelə dövlət qurumları tərəfindən xidmətlərin həyata keçirilməsində sosial innovasiyaların tətbiqi ilə bağlı araşdırmalar aparır;[15]

2.1.7. dövlət qurumları tərəfindən göstərilən hər bir xidməti təhlil edərək, onların elektron formada həyata keçirilməsi üçün müvafiq proqram təminatının, informasiya sistemlərinin, məlumat bazalarının və elektron xidmətlər reyestrinin yaradılması və təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirir.

## QEYDLƏR ÜÇÜN

## QEYDLƏR ÜÇÜN

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**POLİS AKADEMİYASI**

## “DİO-nun inzibati fəaliyyəti” kafedrası

**Bakalavr hazırlığına dair əyani təhsil alanlar üçün**

# İNZİBATİ HÜQUQ

**fənni üzrə**

## PRAKTİKUM

Naşir: Ceyhun Əliyev
Dizayner: İradə Əhmədova
Texniki redaktor: Ülvi Arif

Yığılmağa verilmişdir: 25.04.2018
Çapa imzalanmışdır: 29.05.2018
Ş.ç.v. 3. Tiraj 100.
"Ecoprint" nəşriyyatının
mətbəəsində çap olunmuşdur.
Tel.: +994 55 216 09 91